AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
XƏZƏR UNİVERSİTETİ

HUMANİTAR VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİ

İstiqamətin şifri və adı: 060209-Psixologiya
İxtisaslaşmanın adı: Klinik psixologiya

Psixologiya kafedrasının magistrantı
Məmmədova Fəridə Faiq qızının

Magistr elmi ixtisas dərəcəsi almaq üçün
# MÜASİR DÖVRDƏ AİLƏDAXİLİ KONFLİKTLƏRİN PSİXOLOJİ TƏHLİLİ
mövzusunda

DİSSERTASİYA İŞİ

Elmi rəhbər: BDU- nun Sosial və pedaqoji
psixologiya kafedrasının müəllimi,
psixologiya üzrə fəlsəfə doktoru, Mustafayev M.H

BAKI - 2018

# MÜNDƏRİCAT

GİRİŞ........................................................................................................ 3

I FƏSİL. AİLƏDAXİLİ MÜNASİBƏTLƏR VƏ AİLƏ TƏRBİYƏSİNİN TƏDQİQİ İSTİQAMƏTLƏRİ........................................................ 6

1.1. Ailənin psixoloji mahiyəti. Ailə tərbiyənin sosiomədəni mühiti kimi......... 6

1.2. Ailədaxili münasibətlərinin strukturu, ailə tipləri və ailə tərbiyəsinin səciyyəvi xüsusiyyətləri ....................................................................... 17

II FƏSİL. AİLƏAXİLİ MÜNASİBƏTLƏRDƏ ORTAYA ÇIXAN KONFİLİKTLƏRİN TƏDQİQİ VƏ ARADAN QALDIRILMASI YOLLARI ........................................................ 32

2.1 Ailədə konfiliktli münasibətlərin yaranma səbəbləri, faktorları və təzahürləri............................................................................................ 32

2.2. Gənc ailələrdə sosial konfliktlərin ailə-nikah münasibətlərinə təsirinin eksperimental tədqiqi ................................................................ 43

2.3.Ailədaxili konfiliktlərin aradan qaldırılması yolları .................................... 63

NƏTİCƏ.................................................................................................. 68

ƏDƏBİYYAT SİYAHISI ......................................................................... 71

# GİRİŞ

Müasir dövrdə ailə problemlərinin tədqiqi, onların qloballaşan ictimai-siyasi, sosial-psixoloji proseslər zəminində öyrənilməsi psixologiyanın aktual problemlərindən biri kimi diqqəti daha çox cəlb edir. Ailə həyatı mürəkkəb və çoxcəhətlidir. Ailə həyatının vektoru bilavasitə ailə münasibətləri ilə şərtlənir. Onlarm araşdırılması ailə psixologiyasının önəmli vəzifələrindən biridir.

Ailə həyatının sosial-psixoloji effektləri hər şeydən öncə ailə konfliktləri məhz ailə münasibətləri zəminində əmələ gəlir və inkişaf edir.

Ailə tərbiyəsi, ailədaxili münasibətlərin öyrənilməsi, tədqiqata cəlb olunması bütün dövrlərdə diqqət mərkəzində olmuşdur. Ailə tərbiyəsi, ailə-nikah, ailədaxili münasibətlərə bu qədər maraq və diqqətin artması bir neçə başlıca şərtlə bağlıdır. Birincisi, ailə münasibətləri birbaşa, açıq şəkildə cəmiyyət həyatında baş verən proseslərlə bağlıdır. Cəmiyyət daxilində gedən yeniləşmə qeyd-şərtsiz ailə həyatına da ciddi və güclü şəkildə təsir edir. İkincisi, ictimai mühit, cəmiyyətin inkişafı ailənin, insanların fiziki və mənəvi sağlamlığını təmin edən sosial institutun necəliyindən çox asılıdır. Üçüncüsü və daha əsası ondan ibarətdir ki, son dövrlərdə ailə həyatında, onun sosial funksiyalarında bir sıra neqativ hallar artmaqdadır. Bunları başlıca olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1) boşanma hallarının çoxalması;
2) ailədə uşaqların sayının azalması;
3) problemli ailələrin sayının artması;
4) ailənin uşaqların tərbiyəsi ilə bağlı funkiyasını yerinə yetirə bilməməsi;
5) ailə qurmaq istəməyən gənclərin sayının artması və s.

Məlum olduğu kimi, bütün xalqlarda ailə tərbiyəsi, ailədaxili münasibətlər müəyyən oxşarlıqlarla yanaşı, özünəməxsus xüsusiyyətlərə malikdir. O cümlədən, Azərbaycan ailəsinin də özünəməxsus, digərlərindən fərqlənən keyfiyyət və xüsusiyyətləri vardır. Bunlardan biri də Azərbaycan ailəsinin çoxuşaqlı olmasıdır.

Biz öz araşdırmalarımızda bu tədqiqatlara əsaslanmış tədqiqatın konseptual modelini anların kökündə təhlil etmişik.

Yuxarıda qeyd olunanlar tədqiq olunan mövzunun əhəmiyyətini, aktuallığını göstərir.

Mövzunun işlənmə səviyyəsi. Psixologiyada bu məsələlər müxtəlif istiqamətlərdə təhlil olunmuşdur. İ. Arabov, T.M. Afanasyeva, B.İ. Barski, V.A. Boyko, E.V. Çernova və başqalarının tədqiqatları bu cəhətdən maraqlıdır.

Azərbaycan psixologiyasında ailə münasibətləri ailə həyatının başlıca problemi kimi dəyərləndirilir və müxtəlif aspektlərdə araşdırılır. 90-cı illərdə Azərbaycan məktəblərində "Ailə həyatının psixologiya və etikası" fənni tədris olunmağa başlanılmışdır. Bu illərdə Ə. Əlizadənin və A.Abbasovun "Ailə" dərsliyində ailə münasibətləri sistemli nəzərdən keçirilir. Ə.Ə.Əlizadənin "Azərbaycan Etnopsixologiyasına giriş" (Bakı - 2003) monoqrafıyasında ailə münasibətlərinin psixoloji və etnopsixoloji məsələləri maraqlı materiallarla araşdırılmışdır.

L.Cabbarovanın "Tənhalıq halətinin fəsadları və profilaktikası", K.Şiriyevanın "Azərbaycanın cənub zonasında ailə konfliktləri", V.N.Əliyevin ekstremal şəraitdə davranışın xüsusiyyətləri kimi tədqiqatlarda ailə münasibətləri özünəməxsus bir fonda ailə konfliktləri fonunda araşdırılır.

Tədqiqat işinin obyekti. Bakı Dövlət Universitetinin təsadüfən seçilmiş tələbələri və Yasamal rayonunun 25-30 sakini tədqiqatda iştirak ediblər.

Tədqiqat işinin predmeti. Müasir dövrdə konfliktli ailə münasibətlərinin psixoloji baxımdan təhlilini, bu konfliktlərin yaranmasında başlıca amilləri, onların təzahür cərəyanını və həll edilməsi xüsusiyyətlərini, ailədaxili münasibətlərin formalaşmasını və inkişafını pisixoloji aspektdə araşdırmaq nəzərdə tutulur.

Tədqiqat işinin fərziyyəsi. Müasir dövrdə ailədaxili konfliktlərin səbəbini müəyyən edən mədəni-etnik, əxlaqi-mənəvi, maddi faktorla və zaman amilinin kompleks nəticəsi kimi təzahür edir.

Tədqiqat işində əsas fərziyyə ilə əlaqədar əlavə fərziyyələrdə irəli sürülür:

• Ailədə gənclərin nigaha, ailə həyatına, övladların tərbiyyə edilməsinə psixoloji cəhətdən hazırlanmasının özünəməxsus sistemi var.

- Ailə konfliktlərini şərtləndirən ailə üzvləri arasında "qruplaşma", "parçalanma" törədən amillərdən biri ailədə uşaqlara fərqli münasibət bəslənməsi, yəni

valideynlərin övladlara münasibətlərinin müxtəlifliyi, övladların isə həmin münasibətlərdən sui-istifadə etmələri ilə şərtlənir. - Ailə münasibətlərinə sosial-psixoloji amillərlə yanaşı maddi-iqtisadi vəziyyəti, ailə üzvlərinin maddi ehtiyaclarının ödənilməsi səviyyəsi və imkanları çox ciddi təsir göstərir.

Tədqiqat işinin məqsədi. Tədqiqatın başlıca məqsədi nəzəri-empirik təhlil əsasında müasir dövrdə Azərbaycanda ailədaxili konfliktləri müəyyənləşdirmək, tədqiq etmək və elmi psixoloji cəhətdən mənalandırmaqdan ibarətdir.

Tədqiqat işinin vəzifələri. Mövzu ilə əlaqədar qarşıya qoyulan məqsədə nail olmaq üçün tədqiqatın gedişinə aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulmuşdur.

1. Mövzuya aid psixoloji ədəbiyyat, eləcə də digər tədqiqatları təhlil edib qruplaşdırmaq, araşdırmaya yardımçı olaraq əsas fikir və mülahizələri seçib sistemləşdirməkdir. Bu əsasda problemin elmi nəzəri və praktik aspektdə həlli vəziyyətini öyrənməkdir;

2. Müasir dövrdə ailədaxili konfliktləri müəyyən etməyə imkan yaradacaq sorğu, test, şkala tərtib etmək və eksperiment aparmaqdır.

3. Əldə olunmuş faktik materialı kəmiyyətcə təhlil edib, ona psixoloji interpretasiv verməkdir.

Tədqiqat işinin metodikası: Tədqiqat prosesində ailədaxili münasibətlər və şəxsiyyətin formalaşmasının psixoloji xüsusiyyətlərin aşkara çıxarılması ilə bağlı konkret vəzifələri həyata keçirmək üçün kompleks metodlardan istifadə edilmişdir. Tədqiqat işinin quruluşu. Magistr dissertasiyası girişdən, iki fəsildən, nəticə, ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL. AİLƏDAXİLİ MÜNASİBƏTLƏR VƏ AİLƏ TƏRBİYƏSİNİN TƏDQİQİ İSTİQAMƏTLƏRİ

## 1.1.Ailənin psixoloji mahiyyəti. Ailə tərbiyənin sosiomədəni mühiti kimi

Ailə bütün dövrlərin və bütün cəmiyyətlərin aktual problemləri hesab edilir. Bu baxımdan, ailə anlayışına olan maraq daimi və kütləvi xarakter daşıyır. Bu da təsadüfi deyil. Belə ki, hər birimiz bir ailədə dünyaya göz açmışıq, böyümüşük, boya-başa çatmışıq. Hər birimiz bir atanın, bir ananın övladıyıq. Eyni zamanda, bizim sıralarımızda ailə quran hər bir kəs - həm kişilər, həm də qadınlar ailə qayğısını bölüşür və ailə məsuliyyətini öz üzərində hiss edir. Bu mənada, nəsillər, dövrlər yeniləşdikcə, dəyişdikcə, bir müddət əvvəl körpə, uşaq, daha sonra yeniyetmə, gənc olanların çoxu zamanı çatanda öz daimi tərəf müqabilini, həyatın enişli-yoxuşlu yollarında birgə addımlamaq istədiyi ömür-gün, həyat yoldaşını seçir, öz ailə ocağını qurur. Dünən atanın, ananın çəkdiyi qayğını bu gün onların oğlu, qızı çəkir... Nəsillər, dövrlər bir-birini əvəz etdikcə sanki həyat yenidən başlayır.

Ailəni çox zaman obrazlı şəkildə "kiçik dövlət" adlandırır, onu cəmiyyətin, dövlətin mövcudluğunun və tərəqqisinin təməli, məhək daşı hesab edirlər. İnsanın müasir həyat tərzinin ahəngdarlığına, siyasi, iqtisadi, hüquqi və s. təsisatlarının rəngarəngliyinə baxmayaraq, demək olar ki, hər bir sosial-tarixi cəmiyyət tipində ailə özünəməxsus sosial bütövlük, necə deyərlər, cəmiyyətin sabit özülü, "nüvəsi" kimi çıxış edir. Bir çox tədqiqatçılar bu məqama istinad edərək digər sosial təsisatların - icma, cəmiyyət və dövlət səviyyəsində təsisatlaşan tabeçilik münasibətlərinin, kooperasiyamn, həmrəyliyin, bu və digər ictimai təzahürlərin əsası, modeli kimi çıxış etdiyini vurğulayırlar. Bu yanaşmaya görə, ailədə tərəf müqabilləri, valideynlərlə övladlar, hər iki tərəf müqabilinin nəsil şəcərəsini əhatə edən yaxın qohumlar arasında münasibətlərin incəlikləri, onlara olan münasibət çoxcəhətli sosial, siyasi və iqtisadi münasibətlər sisteminin ilkin, başlanğıc səviyyəsini əks etdirir.

Maraqlıdır ki, tədqiqatçıların digər qrupu bu yanaşma çərçivəsində ailənin sosial-siyasi münasibətlər sistemində yerinin və rolunun mütləqləşdirildiyini qeyd

edərək ona tənqidi münasibət bəsləyirlər. Onlar ailə-dövlət və ailə-cəmiyyət münasibətlərinə birtərəfli yanaşmanın yanlış olduğunu, eyni zamanda, insanlar arasında qarşılıqlı münasibətlərin mürəkkəb və çoxşaxəli olmasına görə bir-birindən əhəmiyyətli dərəcədə fərqləndiyini ön plana çəkirlər.

Göründüyü kimi, bu iki yanaşma üsulu arasında prinsipial ziddiyyət yoxdur. Bununla belə, hər iki nəzəri yanaşmanın tərəfdarlarının bir-birinə tənqidi münasibəti (müəyyən istisnalar nəzərə alınmaqla, bu daha çox sağlam tənqidi münasibət kimi özünü büruzə verir) və kifayət qədər fərqli mövqedən çıxış etmələri onların fərqləndirilməsini zəruri edir. Qeyd edək ki, hər iki yanaşma tərzini özünəməxsus şəkildə birləşdirməyə can atan, bunu ictimai təzahürlərin bilavasitə insan amili ilə bağlı olması ilə izah edən tədqiqatçıların da sayı az deyildir. Eyni zamanda, bu və ya digər yanaşma tərzini əks etdirən çoxsaylı nəzəriyyələr, müxtəlif yanaşma üsulları vardır ki, irəlidə bu məsələyə geniş şəkildə toxunacağımızdan indi bu barədə qısa məlumat verməklə kifayətlənirik.

İstənilən cəmiyyətdə ailənin mövcudluğu ikili xarakter daşıyır. Belə ki, ümumi anlayış səviyyəsində qiymətləndirdikdə bu, cəmiyyətin özünəməxsus sosial təsisatıdır. Müasir şəraitdə onu cəmiyyətdən, dövlətdən, ictimai-siyasi münasibətlər sistemindən kənarda təsəvvür etmək mümkün deyildir. Digər tərəfdən isə, bu özünəməxsus mövcudluq inkişaf və fəaliyyət qanunauyğunluqları olan kiçik qrupdur. Bu heç də sirr deyil ki, ailə təsisatı nigah təsisatı ilə sıx şəkildə bağlıdır. Bu həm rəsmi, həm də qeyri-rəsmi səviyyədə çoxsaylı qarşılıqlı öhdəliklər və vəzifələr deməkdir. Ailədə tərəf müqabili olan hər bir qadın və kişi bu münasibətlər çərçivəsində məhz ailə həyatına, ailə qayğısına olan ehtiyacım, tələbatını ödəməyə can atır. Öncə qeyd edildiyi kimi, bu münasibətlər çərçivəsində valideyn - uşaq, ailə - yaxın qohumlar, gəlin - qaynana, kürəkən - qaynata və bu qəbildən olan digər münasibətlər forması spesifik məzmun və məna kəsb edir.

İstənilən ailənin əsasını müəyyən bir nigah cütlüyü, obrazlı şəkildə deyilsə, bir kişi ilə bir qadın arasında özünəməxsus şəkildə yaranan ittifaq təşkil edir. Eyni zamanda, müasir dövrdə münasibətləri rəsmi dövlət nigahı ilə tamamlanan ailələrlə yanaşı, nigahsız yaşayan və ya yalnız dini nigahla yaşayan ailələrə də geniş təsadüf

edilir. Bu sahədə aparılan tədqiqatlar göstərir ki, son illərdə nigahsız yaşayan ailələrin, "xüsusi çəkisi" nəzərə çarpacaq dərəcədə artmışdır. Bu məqamda hazırda, inkişaf etmiş ölkələr üçün xarakterik hal sayılır. Sosioloqlar və psixoloqlar belə bir xarakterik cəhəti müşahidə etmişlər ki, bu ölkələrdə əhalinin, xüsusən gənc nəslin ailə qurmaq, rəsmi nigaha girməyə olan marağı getdikcə azalır.

Ailə hər zaman bir sıra vacib funksiyaların daşıyıcısı kimi çıxış edir. Bu funksiyalar sırasında ailənin reproduktiv (nəsilartırma), tərbiyəvi, təsərrüfat-iqtisadi və rekreasion funksiyaları xüsusi yer tutur.

Ailənin reproduktiv funksiyası əhalinin təkrar istehsalını təmin edir. Əhalinin cins-yaş strukturu və nəsilartırma funksiyası dövlətin əmək ehtiyatlarının, sosial-iqtisadi potensialını müəyyən edən başlıca amillərdən biri kimi çıxış edir. Tədqiqatlar göstərir ki, yüksək inkişaf potensialına malik olan ölkələrdə doğulan uşaqların mütləq sayına olan tələbat anların arzuedilən sayından çox olur, ailədə uşaqların arzuolunan sayı isə, bir qayda olaraq, onların mövcud sayını üstələyir. Eyni zamanda, qadınların və kişilərin yaş nisbəti artdıqca onların nəsil artırmaq və ya yeni övlad sahibi olmaq istəyi zəifləyir, tədricən aradan qalxır.

Ailənin tərbiyəvi funksiyası onun reproduktiv funksiyası ilə sıx şəkildə bağlıdır. Psixoloqlar vurğulayırlar ki, əgər uşaq doğulduğu andan 3 yaşına qədər lazımi diqqət və qayğı ilə əhatə olunmayıbsa, onun bir çox sosial keyfiyyətləri zəifləyir, uşağın əqli və fiziki inkişafında ləngimələr, çətinliklər meydana gəlir. Bir çox hallarda belə uşaqlarda sonrakı inkişaf dövründə natamamlıq kompleksi özünü qabarıq şəkildə göstərir. Bu o deməkdir ki, normal və sağlam ailə mühiti uşağın hərtərəfli və ahəngdar inkişafı üçün müstəsna əhəmiyyət kəsb edir. Başqa sözlə, valideyn qayğısının uşaqların həyatında xüsusi yeri vardır. Bu qayğını həyatda nəyinsə əvəz etməsi mümkün deyildir. Psixoloqlar belə bir faktı müşahidə etmişlər ki, adətən ata-anasından və bacı-qardaşından uzun müddət uzaq düşən kiçik yaşlı uşaqlar çox vaxt fiziki və əqli cəhətdən normal inkişaf etmirlər. Tədqiqatçılar bu amili kiçik uşaqların yaxın adamlarla olan ünsiyyətə böyük və zəruri tələbatı ilə izah edirlər.

Müəyyən təsadüflər nəticəsində heyvanlar arasında "böyümüş" uşaqlar barədə bizə bəlli olan faktlar ailə mühiti ilə yanaşı sosial mühitin və erkən tərbiyənin uşağın

inkişafında həlledici təsirə malik olduğunu əyani şəkildə sübut edir. Öz növbəsində ailə mühiti uşağm şəxsiyyətinin formalaşmasına birbaşa təsir göstərir. Tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, valideynlərdən ən azı birinin spirtli içkilərə, narkomaniyaya, cinayət sayılan hüquqa zidd müxtəlif davranış formalarına aludə olması uşaqların davranışında mənfi təmayüllərin meydana çıxmasına, bir sıra hallarda uşaq cinayətkarlığına yol açır. Burada qeyri-adi heç nə yoxdur. El təbirincə desək, göz gördüyünü götürür. Yəni uşaqlar çox zaman ata-analarının xasiyyətini, davranışını, yerişini, duruşunu, fikirlərini, dediklərini bir etalon kimi qəbul edirlər. Kiçik yaşlı uşaqlar adətən öz valideynlərini ideallaşdırır, təbii bir övlad bağlılığı ilə onlara oxşamağa çalışır, bu zaman nəyin yaxşı, nəyin pis olduğunun fərqinə varmırlar.

Məsələn, uşağın valideynlərindən biri spirtli içkilərə aludəçilik göstərirsə, övladlarında bənzər davranışı "tərbiyə" etməyə çalışırsa, uşağın səhv hərəkətləri - xoşuna gələn bir əşyanı oğurlaması, özündən zəifləri və kiçikləri incitməsi, anlaqsızlığı səbəbindən etdiyi digər məsuliyyətsiz hərəkətlər valideynlər tərəfindən rəğbətləndirilirsə və ya onlar buna laqeyd yanaşırlarsa, onda bu uşağın bir qədər böyüdükdən sonra cinayət törətməsi, özbaşınalıq etməsi heç də təəccüblü sayılmamalıdır. Bir sıra tədqiqatlar göstərir ki, cinayət törədən azyaşlı uşaqların 80 faizindən çoxu valideynlərindən biri və ya hər ikisi spirtli içkilərə aludə olan ailələrdən çıxır.

Müasir cəmiyyətdə ailənin yeni nəslin formalaşmasında tərbiyəvi rolu haqqında təsəvvürlər kökündən dəyişmişdir. Ailənin ənənəvi tiplərindən müasir, egalitar ailə tipinə keçidin sürətlənməsi müvafiq təsəvvürləri yenidən formalaşdırır. Belə ailələrdə atanın və ananın valideynlər kimi razılaşdırılmış davranışı zəif nəzərə çarpdığından uşaqlar öz ata və analarını daha çox müstəqil fərdlər kimi qavrayırlar. Bu səbəbdən, ayrı-ayrı ailələrdə ata-ana, valideyn-övlad anlayışları fərqli şəkildə başa düşülür.

Sosioloqlar və psixoloqlar ailə tərbiyəsinin bir neçə dayanıqlı stereotipini müəyyən edirlər:

1) Uşağın mənafeyindən və mövqeyindən çıxış etmə;

2) Peşəkarlıq;

3) Praqmatik yanaşma.

Birinci halda uşağın davranışına və şıltaqlığına ifrat aludəçilik özünü göstərir. Ailədə hər kəs uşağın nazı ilə oynayır, səhvlərinə, etdiyi hərəkətlərə görə onu heç kəs məzəmmət etmir. Belə uşaqlarda çox vaxt fərdi məsuliyyət, qadağalar və valideynlər qarşısında cavabdehlik hissi tərbiyə edilmir. Onlara ailənin böyük üzvləri müstəsna xidmət göstərir, onların hər bir kiçik arzusu dərhal yerinə yetirilir. Çox vaxt belə uşaqlar atanın-ananın bircə övladı olur və ya nənələri, babaları tərəfindən tərbiyə edilirlər.

Bir qədər təzadlı və qəribə görünsə də, burada "pişik öz balasını çox istədiyindən yeyir" deyimini xatırlatmaq yerinə düşür. Belə ki, öz övladlarını, nəvələrini çox sevən atalar, analar, nənələr və babalar, necə deyərlər, bu sevginin, istəyin "şiddətindən" onlan mənəvi, müəyyən mənada fiziki cəhətdən şikəst etdiklərini, uşağın təbii qabiliyyət və imkanlarının məhdudlaşdırdıqlarını, onların müstəqil şəxsiyyət kimi inkişafına böyük zərbə vurduqlarını anlamırlar. Uşağı bütün qayğılardan, "əziyyət çəkməkdən" azad edən, "getmə gözümdən, gedərəm özümdən" prinsipi ilə hərəkət edən valideynlər, nənələr, babalar sonradan bunun ağrısını, acısını çəkirlər. Başqa sözlə, "nəvə baldan şirindir" deyərək öz nəvəsini əzizləyən, oxşayan, onu gözlərindən uzağa qoymaq istəməyən nənələr, babalar bir müddət keçdikdən, nəvə böyüdükdən sonra anlayırlar ki, "baldan şirin olan nəvə" "acı bağırsaq" kimi dərd, bəla gətirməkdən başqa heç nəyə yaramır. Böyüdükdə özündən razı, infantil gənclərə çevrilən bu uşaqlar bir qayda olaraq, öz üzərlərinə məsuliyyət götürməyi bacarmır, buna hazır olmur və bunu heç də arzulamırlar. Hamıdan qayğı və kömək gözləmək, gözlədiyini əldə etmədikdə incimək, küsmək və ya dava-dalaş salmaq belə adamlara xas olan xüsusiyyətlərdir. Bu problem bir çox Azərbaycan ailələri üçün xarakterik olduğundan müvafiq ailədaxili tərbiyə stereotiplərinə xüsusi diqqət yetirmək lazım gəlir.

İkinci halda öz övladlarının tərbiyəsinə peşəkarlıq təmayülü baxımından yanaşan valideynlər bilavasitə uşağın tərbiyəsi ilə məşğul olmaqdan özünəməxsus şəkildə imtina edirlər. Uşağın tərbiyəsi kiçik yaşlarında dayələrə, bağça tərbiyəçilə-

rinə tapşırılır. O, tədricən böyüdükdə isə tərbiyəçi vəzifəsini məktəbdə müəllimlər, pedaqoqlar, ayrı-ayrı fəaliyyət sahələri üzrə ixtisaslaşan peşəkar tərbiyəçilər əvəz edirlər.

Bu, həm ailənin təbii ehtiyaclarından, həm də ayrı-ayrılıqda peşə-ixtisas və əmək fəaliyyətinə xüsusi əhəmiyyət verən valideynlərin dünyagörüşündən, uşaq tərbiyəsinə olan özünəməxsus münasibətindən irəli gəlir. Onlar ailənin maddi təminatına xüsusi əhəmiyyət verirlər və ailənin maddi təminatını hər şeydən önəmli, daha vacib sayırlar. Belə valideynlərin özünəməxsus tərbiyə üsulu vardır. Onlar övladlarının tərbiyəsinə o zaman xüsusi diqqət yetirirlər ki, uşaq hansısa xoşagəlməz hərəkətə yol vermişdir və ya ata-anasının nəzərində əl-ayağa dolaşır.

Belə valideynlərin tərbiyə üsulu öz məhdudluğu və çox zaman sərt davranış formalarının seçilməsi ilə fərqlənir. Bu cür valideynlərin tərbiyəsi sərt qadağalardan, çox zaman isə uşağın döyülüb-söyülməsi ilə tamamlanan fiziki təzyiqdən ibarətdir. Valideyn-uşaq münasibətlərində qapalı və sərt davranış üsulunun seçilməsi onların bir-birini axıradək anlamasına mane olur. Bir çox hallarda uşağın valideynlər tərəfindən yerli-yersiz sərt şəkildə cəzalandırılması, onun ailədə zəruri qayğını, həssaslığı və mehribanlığı görməməsi ataya, anaya münasibətində daxili narazılıq, inciklik hissi yaradır. Belə vəziyyət uşaqda qorxu və inamsızlıq hissini qüvvətləndirir, onun ətraf aləmi anlamasında, sosial mühitə uyğunlaşmasında ciddi problemlər yaradır. Bu halda valideynlər özləri ilə övladaları arasında anlaşılmazlığın, keçilməz maneələrin yaranmasına səbəb olurlar. Onlar öz övladlarına "ipə-sapa yatmayan uşaq", "başabəla", "dəcəl", "qaradinməz", "şıltaq" və s. bu kimi stereotipləşmiş obrazlarla yanaşırlar. Belə ailələrdə uşaqların düşüncəsi, fikirləri, fərdi qabiliyyətləri, bacarıq və vərdişlərinin inkişafına çox zaman əhəmiyyət verilmir. Ailədə getdikcə böyüyən, xarakteri, düşüncəsi yetkinləşən, ünsiyyətə, qarşılıqlı münasibətlərdə anlaşmaya və hörmətə tələbatı artan uşağın fərdi-psixoloji keyfiyyətləri və cins-yaş xüsusiyyətləri çox zaman nəzərə alınmır.

Ailə həyatı ilə bağlı problemlərin tədqiqi, öyrənilməsi həm nəzəri cəhətdən, həm də praktik baxımdan çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, ailə və nigahın dayanıqsızlığı, boşanmaların sayının artması ilə bağlı yaranan çoxsaylı problemlər bu

gün bir çox dünya ölkələri üçün xarakterikdir. Bu problem əksər hallarda urbanizasiya prosesi və urbanizasiyanın doğurduğu intensiv miqrasiya ilə izah edilir. Digər tərəfdən, qadınların ümumi fəallığının artması tədqiqatçılar tərəfindən boşanmaların sayını artıran amil kimi dəyərləndirilir. Başqa sözlə, ailə təsisatı indi özünün çətin və böhranlı anlarından birini yaşayır. Ailəni daxildən möhkəmləndirən bir çox amillər - qadının həyat yoldaşından iqtisadi asılılığı, dini, əxlaqi, hüquqi qadağalar əvvəlki təsir gücünü və əhəmiyyətini itirmiş və ya kəskin dəyişikliklərə, ciddi təbəddülata uğramışdır. Odur ki, indi ailədə qarşılıqlı şəxsi münasibətlərin səviyyəsi mühüm əhəmiyyət kəsb edir. Çoxsaylı tədqiqatlar göstərir ki, əksər ailələrdə boşanmalar hər iki tərəf müqabilinin həlli yolunu yalnız ayrılmaqda gördüyü müxtəlif ailədaxili münaqişələrlə bağlı olur.

Tədqiqatçılar ailədaxili münaqişələr törədə biləcək səbəblərin sırasını dörd səviyyədə ifadə etməyi məqsədəuyğun sayırlar:

1) psixofizioloji səviyyə;

2) psixoloji səviyyə;

3) sosial rollar səviyyəsi;

4) sosiomədəni (mənəvi) səviyyə.

Psixoloji səviyyədə yaranan münaqişələr ailədə tərəf müqabillərinin cinsi həyatında yaranan uğursuzluq kimi meydana çıxır. Ümumilikdə, bu amil tez-tez özünü büruzə versə də, ayrılanlar çox nadir hallarda bunu başlıca səbəb kimi qeyd edirlər. Bu isə insanlara xas olan bir çox tipik stereotiplər, o cümlədən, münaqişə, gərginlik vəziyyətində insanların öz hərəkətlərinin, davranışlarının real motivlərini gizlətməyə, "ört-basdır" etməyə yönəlməsi ilə izah edilir.

Psixoloqlar bir qayda olaraq, psixofizioloji uyğunluğu sağlam, ahəngdar ailə münasibətlərinin təməli kimi qiymətləndirirlər. Prinsip etibarı ilə bu fıkri dolayısı ilə rədd edənlər və ya onu kəskin polemika, müzakirə mövzusuna çevirənlər az deyil.

Lakin psixofizioloji uyğunluğu ailədə tərəf müqabili olan şəxslərin qarşılıqlı münasibətlərində həlledici rola malik olması heç kəsdə şübhə doğurmur.

Əgər ailə qurularkən tərəf müqabilləri üçün psixofızioloji uyğunluq nə qədər böyük əhəmiyyət kəsb edirsə, əlverişli psixoloji iqlim də ailənin qorunub saxlanması

və möhkəmlənməsi üçün bir o qədər zəruri olur. Başqa sözlə, ailədə münasibətlərin psixoloji səviyyəsi ailənin müqəddəratını və gələcəyini bir çox cəhətdən təyin edir.

Münaqişənin üçüncü - sosial rollar səviyyəsi ailədə məişət-təsərrüfat işlərinin düzgün bölüşdürülməməsi, ailədaxili məsuliyyətsizlik və intizamsızlıq ilə sıx bağlıdır. Belə ailələrdə adətən ümumi narazılıq mühiti, qarşılıqlı laqeydlik hökm sürür. Ailədə tərəf müqabili olan şəxslərdən biri, bəzən hər ikisi üzərinə düşən məsuliyyəti lazımınca qiymətləndirmir. Bu isə ailədə ciddi böhranın yaranmasını, bəzi hallarda isə ailənin dağılmasına gətirib çıxarır.

Ailədaxili münaqişələrin dördüncü - sosiomədəni (mənəvi) səviyyəsi qarşılıqlı anlaşılmazlıqdan, tərəf müqabillərinin fikirlərinin, düşüncəsinin, dünyagörüşünün uyğun gəlməməsindən doğur.

Ailədə maraqların toqquşması, qadın və ya kişi üçün həyati əhəmiyyət kəsb edən dəyərlərin, onun tərəf müqabili üçün qəbuledilməz olması, onların ünsiyyət, fikir mübadiləsində ortaq məxrəcə gələ bilməmələri ailə mühitinin harmoniyasını pozur, ciddi narazılığa, kəskin fikir ayrılığına səbəb olur.

Ailədaxili münaqişələri doğuran səbəblər kifayət qədər mürəkkəb və rəngarəngdir. Lakin, ümumilikdə bu səbələri iki qrupa:

1) ailə qurulanadək mövcud olan səbəblərə;

2) ailə qurulduqdan sonra yaranan səbəblər çoxluğuna ayırmaq mümkündür. Birinci səbəbləri çox zaman risk amilləri qrupu adlandırırlar. Bu elə səbəblər çoxluğudur ki, mümkün ailə böhranını və ya ailənin dağılma riskini ailə qurulmamışdan öncə özündə əks etdirir. Müvafiq cəhdlərə baxmayaraq, ailə qurulana qədər olan tamaşalıq əksər hallarda bu riski aradan qaldırmır. Risk amilləri insanın tərbiyəsi, şəxsiyyəti, milli, irqi, dini mənsubiyyəti, sosial statusu, eyni zamanda, nigahın şərtləri ilə bilavasitə bağlıdır. Tədqiqatçılar aşağıdakı səbəbləri əsas risk amilləri qrupuna aid edirlər:

1) ailədə tərəf müqabillərinin təhsilində və yaşında böyük fərqin mövcudluğu (xüsusən, qadının kişidən yaşda nəzərə çarpacaq dərəcədə böyük olması);

2) tərəf müqabillərdən birinin spirtli içkilərə, narkomaniyaya meyililiyi və ya aludəçiliyi;

3) çox erkən yaşda nigaha daxil olma;

4) nigaha və ailəyə qeyri-ciddi münasibət;

5) ilkin tanışlıq müddətinin çox qısa olması;

6) ailə qurduqdan sonra uşağın dünyaya gəlməsi ehtimalı və tərəf müqabillərindən birinin bunu arzulamaması;

7) valideynlərin nigahın bağlanılmasına kəskin etiraz etməsi;

8) qarşılıqlı razılıq olmadan məcburiyyət qarşısında bağlanılan nigah.

Bu amillər ailə həyatının ilk illərində xüsusilə həlledici təsirə malik olur. Belə ki, dağılan ailələr və müvafiq olaraq boşananlar arasında 1 ildən 3-4 ilə qədər birgə yaşayanlar nisbi çoxluq təşkil edir. Bu onu göstərir ki, risk amilləri qrupu ailə quranların həyatını ilk illərdə bir çox cəhətdən təyin edir.

Ailə quranlar çox fərqli, müxtəlif, bəzən biri digərinə zidd olan qərar qəbul edirlər. Biri bu yolla öz gələcək həyatını və taleyini müəyyənləşdirdiyini düşünür, digəri isə fikirləşir ki, belə bir məsuliyyətli addım atmaqla müstəqil həyata qədəm qoya biləcək. Bəzən birinin acığına digəri ilə və ya "dostluq xatirinə" ailə quranlar da tapılır ki, bu da ümumilikdə ailə həyatına qeyri-ciddi münasibətdən xəbər verir.

Təcrübə göstərir ki, təhsil səviyəsinin artması bütövlükdə ilkin nigaha daxil olma yaşını ləngidən amillərdən biri kimi çıxış edir. Bu baxımdan, Azərbaycanda ali təhsil ocaqlarının və orta məktəbi bitirdikdən sonra təhsili davam etdirmək istəyənlərin sayının artması qurulan ailələrin tədricən sayının azalmasına, eləcə də ailədə doğulan uşaqların sayının planlaşdırılmasına təsir göstərən mühüm amillərdən biri kimi çıxış edir.

Ailə həyatını şərtləndirən sosial-psixoloji və sosial-iqtisadi amillər bir-biri ilə sıx şəkildə bağlıdır. Bu amillərin sosial-psixoloji yanaşma baxımından sistemli, əlaqələndirilmiş şəkildə öyrənilməsi ailə psixologiyasının incəliklərini dərindən qavramağa, müvafiq praktik tövsiyyələr işləyib hazırlamağa kömək edir. Nəticə etibarı ilə ailə problemlərinin sosial-psixoloji təhlili bir çox aktual məsələlərin uğurlu həllinə əlverişli zəmin yaradır.

Hazırda nigahlarının sayının azalaraq ən aşağı həddə yaxınlaşması, gəncləri ailə qurmaq meyllərinin azalması, ailəyə olan ənənəvi münasibətin dəyişməsi bu

istiqamətdə ciddi böhranın yaşandığını göstərir. Bu, öncə qeyd edildiyi kimi, Azərbaycanda əhalinin ənənəvi demoqrafık strukturunun pozulması, həm ölkədaxili, həm də ölkəxarici miqrasiyanın geniş vüsət alması ilə bilavasitə əlaqədardır. Bu əhalinin demoqrafik strukturunda bir sıra yeniliklərlə, məsələn, əcnəbilərlə, xarici ölkələrin vətəndaşlan ilə ailə quran azərbaycanlı qadınların və kişilərin sayının nəzərəçarpacaq dərəcədə artması ilə müşayiət olunur. Bu, sosial-psixoloji yanaşma baxımından aktual məsələlərdən biri hesab edilir. Belə ki, qarışıq nigahlar bütün dünyada getdikcə daha geniş vüsət almaqdadır və müxtəlif irqlərin, dinlərin, etnosların nümayəndələri arasında belə nigahlara getdikcə daha çox rast gəlinir. Belə ailələrdə valideyn-övlad münasibətləri, tərəf müqabilləri arasında münasibətlərin sosial-psixoloji xarakteri, qarşılıqlı uyğunlaşma və bu tipli ailənin sosiomədəni mühiti tədqiqat obyekti kimi böyük aktuallıq kəsb edir.

Hazırda qurulan ailələrin bir qisminin dağılması müxtəlif səbəblərlə izah edilir. Tərəf müqabillərinin ailə quranadək bəzən bir-birilərini yaxından tanıya bilməməsi, qadın və kişinin dünyagörüşündə meydana çıxan ziddiyyətlər nəticəsində yadlaşmanın baş verməsi və qarşılıqlı sevgi hissinin itirilməsi bu səbəblər sırasına aid edilir. Bu amilləri ümumilikdə fərdlərin təbii müxtəlifliyindən irəli gələn ziddiyyətlər kimi də səciyyələndirmək mümkündür. Başqa sözlə, bu o deməkdir ki, fərqli həyat və düşüncə təcrübəsinin daşıyıcısı olan iki gəncin - ailədə tərəf müqabili olmuş qadının və kişinin ailə barədə təsəvvürlərinin, müvafıq davranış və yaşam tərzinə olan münasibətlərinin toqquşması ailə böhranına gətirib çıxaran mühüm səbəblərdən sayıla bilər.

Nəticə etibarı ilə ailədaxili münasibətlərin xarakteri ailənin taleyinə həlledici təsir göstərir.

Tədqiqatçılar boşanmalara və ailənin dağılmasına gətirib çıxaran səbəbləri üç qrupa ayırmağı məqsədəuyğun hesab edirlər:

1) maddi-məişət problemləri;

2) şəxsi münaqişələr;

3) xarici təsirlər.

Maddi-məişət problemləri ailənin yaşayış tərzi ilə bağlı meydana çıxan

müxtəlif çətinlikləri özündə əks etdirir. Yaşayış şəraitinin ağırlığı, tərəf müqabillərindən birinin ailə təsərrüfatını idarə etmək istəməməsi və ya bunu bacarmaması, maddi təminatın olmaması və digər müvaflq problemlər ailələrin dağılmasına səbəb olan mənfi amillərdən sayılır. Belə problemlərin davamlı xarakter alması ağır maddi-mənəvi sıxıntılar doğurur. Bu vəziyyət son nəticədə ailədə ciddi fikir ayrılığının və kəskin münaqişələrin yaranmasına, daxili və xarici təsirlər nəticəsində ailənin ciddi mövcudluq böhranı yaşanmasına səbəb olur. Bəziləri bu böhrandan çıxış yolu taparaq ailə həyatını öz sağlam məcrasına qaytarmağa nail olsa da, digərləri - öz həyat yoldaşından ayrılmağı üstün tuturlar.

Bir çox hallarda şəxsi münaqişələr də ailələrin dağılmasında həlledici təsirə malik olur. Öncə qeyd edildiyi kimi, ilkin sevgi hissinin itirilməsi, həyata fərqli baxışlar, kobudluq, qısqanclıq, şübhələr, inamsızlıq zəminində yaranan şəxsi ziddiyyətlər ailə həyatına olduqca mənfi təsir göstərir. Kobudluq, saymamazlıq və hörmətsizlik sadalanan amillər sırasında apancı yer tutur. Qarşılıqlı münasibətlərin sadalanan prinsiplər əsasında qurulması ailədə, necə deyərlər, "iki düşmən cəbhə"nin yaranmasına - qarşılıqlı laqeydliyə və yadlaşmağa gətirib çıxarır.

Qadınlar, adətən, həyat yoldaşları ailəyə soyuq yanaşdıqda, içkiyə qurşandıqda, narkotik vasitələrə aludə olduqda, bu və ya digər səbəblərdən ailə məsuliyyətini daşımaq iqtidarında olmadıqda boşanmanı təşəbbüskar çıxış kimi hesab edirlər. Belə hallarda qadının ailədə zorakılığa məruz qalması, şəxsi ləyaqət hissinin tərəf müqabili tərəfindən alçaldılması onu bu addımı atmağa vadar edir.

Ailənin dağılmasına təsir göstərən xarici amillərə gəldikdə, burada xəyanət, tərəf müqabillərindən birinin həyat yoldaşına emosional-hissi münasibətlərin dəyişməsi və ya yeni ailə qurmaq təşəbbüsü, valideynlərin, bir sıra kənar şəxslərin ailə həyatına müdaxilə etməsi xüsusi əhəmiyyət kəsb edir. Xəyanət sözü yəgin ki, hər kəsə yaxşı tanışdır. Həyatında ən azı, bir dəfə ciddi xəyanətə uğrayan hər hansı şəxs bunun nə demək olduğunu yaxşı bilir. Psixoloqlar xəyanətin laqeydlik, inciklik və peşmançılıq hissini qüvvətləndirdiyini xüsusi vurğulayırlar. Bir qayda olaraq, ailədə xəyanətə uğrayanlar bundan gec-tez xəbər tutur və bu zaman dərin emosional-psixoloji sarsıntı, gərgin stress keçirirlər. İstər qadının, istərsə də kişinin xəyanəti

ailədə dərin böhrana, qarşılıqlı inam hissinin itməsinə, ailənin dağılmaq təhlükəsi ilə üz-üzə qalmasına səbəb olur.

Bütövlükdə valideynlərin gənclərin ailə həyatına kobud müdaxiləsi çox zaman mənfı fəsadlarla müşayiət olunur. Bu müdaxilə mənfi kənar təsirlə tamamlandıqda ailənin mövcudluğu təhlükə qarşısında qalır. Bəzən gənc ailələrin "ayaq tutub" yeriyə bilməməsinin, başqa sözlə, həyatının ilkin sınaqlarından çıxmasının günahkarı məhz valideynlər olur.

Beləliklə, ailə həyatında meydana çıxan çətinliklər həm ailə qurmaq istəyənləri, həm də ailəsi dağılanları ciddi çətinliklərlə üzləşdirir. Bununla belə, bəzi ailələrin dağılmasının mütləq şəkildə mənfı amil kimi qiymətləndirmək mümkün deyil. Belə ki, bu amil istər-istəməz hər kəsin diqqətini ailə-nigah münasibətlərinə çəkir.

## 1.2. Ailədaxili münasibətlərin strukturu, ailə tipləri və ailə tərbiyəsinin səciyyəvi xüsusiyyətləri

Ailə münasibətlərinin kökünü vəhdətdə olan ər-arvad və valideyn-uşaqlar arasındakı münasibətlər təşkil edir. Ənənəvi ailə həmin şaxəli sütun üzərində yaranmış və inkişaf etmişdir. Müasir ailədə isə bu baxımdan mahiyyətcə yeni cəhətlər əmələ gəlmişdir.

Vaxtilə sosioloqlar və psixoloqlar ailənin möhkəmləndirilməsindən danışanda, diqqəti, ilk növbədə, valideynlərlə - övladlar arasındakı münasibətlərə cəlb edirdilər.

İndi isə bir çox sosioloqlar və demoqraflar valideynlik münasibətlərini ər - arvadlıq münasibətlərindən təcrid edirlər. Ailə münasibətlərinin möhkəmləndirilməsi yollarının təkcə ər - arvad münasibətlərində axtarır, onlann cinsi tələbatlarının təmin olunmasına, intim əlaqələrinə daha çox diqqət yetirirlər. Bəzi psixoloqların fikrincə, müasir ailədə, xüsusilə şəhər ailəsində, şəxsiyətlərarası münasibətlərin psixoloji mərkəzi dəyişilmiş, ərin və arvadın şəxsiyyəti birinci dərəcəli əhəmiyyət kəsb etmişdir. Ər-arvad münasibətləri nisbi müstəqillik kəsb etmiş və ailə həyatında daha mühüm rol oynamağa başlamışdır. Valideynlərlə uşaqların qarşılıqlı münasibətlərinin

əhəmiyyəti böyük olsa da, onlar müasir ailədə artıq ikinci plana keçmişdir. Bəzi müəlliflər hətta ər-arvadın mənafeyinin öz-özlüyündə ailənin mənafeyindən daha üstün olduğunu iddia edirlər.

70-80-ci illərdə sosiologiyada, demoqrafıyada, psixologiyada ailə bu ölçülərlə təhlil olunub. Ailə münasibətlərində ər-arvad münasibətlərinin ön plana keçməsini humanizmin təntənəsi, zəfər çalması hesab ediblər. Lakin indi mütəxəssislər ailənin böhran vəziyyətində olmasından və ya böhran həllinə çatmasından daha çox narahat olmağa başlamışlar. Sən demə, ailə münasibətlərində valideynlər - övladlar arasındakı münasibətlərin arxa plana keçməsi ilə ailənin möhkəmliyini şərtləndirən mənəvi-psixoloji dayaqlar sarsılmışdır. Boşanma zəminində dağılan ailələrin həddi-hüdudu yoxdur. Artıq bir çox sosioloqlar və demoqraflar belə hesab edirlər ki, ailə münasibətlərini təkcə ər-arvad münasibətləri ilə məhdudlaşdırmaq birtərəflidir. Ailəni möhkəmləndirməyin başlıca şərti valideynlər - övladlar arasındakı münasibətlərin optimallaşdırılması ilə bağlıdır, Azərbaycan ailəsinin inkişaf yolu da bunu sübut edir.

Azərbaycanlı ailəsi dünyada ən möhkəm ailələrdən biridir. Bu mühüm xüsusiyyətin özünəməxsus tarixi kökləri vardır. Müasir Azərbaycan ailəsində də ər-arvad münasibətləri inkişaf edərək yeni məna çalarları kəsb etmişdir. Həmin çoxşaxəli və mürəkkəb proses müxtəlif amillərlə bağlı olsa da, onun dinamikasında aydın nəzərə çarpan başlıca cəhətlər ailə həyatında qadının xislətinin artması ilə bilavasitə bağlıdır.

Azərbaycanlı ailəsində qadının statusu həmişə yüksək olub. Qadının adı ailənin namus, şərəf rəmzi sayılır. Qadın ləçəyini atanda ən azman qəhrəmanlar belə əl saxlardı. Kişi uzaq səfərlərə gedəndə də arvadının qeyrətinə bel bağlardı, onun xeyir - duası ilə lap nağıllarda olduğu kimi möcüzələr göstərərdi. Azərbaycan qadını həmişə ailədə böyük hörmət sahibi olub, bu gün də böyük hörmət sahibidir. Lakin indi o, özünün sosial statusunun genişlənməsi hesabına ailədə daha mühüm rol oynamağa başlamışdır. Bu zəmində onun əri ilə münasibətləri sahəsində yeni psixoloji çalarlar əmələ gəlmişdir. Məhəbbət, qayğı və kömək onların başlıca əlamətləri kimi özünü göstərir.

Müasir Azərbaycan ailəsində ər-arvad münasibətləri valideyn-övlad

münasibətlərindən ayrılmazdır. Müəyyən yaşa çatanda bütün oğlan və qızlarda ailə qurmaq tələbatı əmələ gəlir, onlar evlənmək istəyirlər və nəticədə evlənirlər. Ancaq onlardan hər biri bu vaxt müəyyən motivdən çıxış edir: bir qrupu oğlanı sevdiyi üçün ona ərə gedir, ikincisi adət və ənənə üzrə evlənir (hamı evlənir məndə evlənim) ,üçüncüsü maddi mülahizələrə (oğlanın yaxşı peşəsi, evi, ümumiyyətlə, maddi təminatı və s. vardır), digər qrupu qız xoşuna gəldiyi üçün, yaxud əxlaqi mülahizələrə görə evlənir.

Ailənin taleyi, bu həyatın fərəhli, uğurlu olub - olmaması ərin və arvadın şəxsiyyətindən asılıdır. Ailədə ər- arvad orta hesabla 32- 40 il birgə ömür sürür.Azərbaycan Respublikasında - uzunömürlülər diyarında 100 ildən artıq birlikdə ömür- gün sürmüş xoşbəxt adamlar da vardır. Hər bir gənc bilməlidir ki, kiminlə ailə qurur, yaşayır, onun hansı xüsusiyyətləri vardır, bu xüsusiyyətləri ailə həyatında necə nəzərə almaq olar? Lakin bəzən bu vacib cəhətlər nəzərə alınmır, zahiri xoşagəlmə, təsadüfi ünsiyyət və s.ailə qurmaqla nəticələnir. Ailənin psixoloji iqlimi ər və arvadın, gəlin və qayınananın, eləcə də ailənin digər üzvlərinin sosial- psixoloji cəhətdən bir- birinə uyuşmasında özünü daha aydın şəkildə göstərir.

Ər və arvadın bir- birinə uyuşması özünün bir mühüm xüsusiyyətinə görə başqa adamlar arasındakı uyuşmasından fərqlənir: o, əsasən məhəbbət hissinə əsaslanır. Görkəmli Azərbaycan yazıçısı M.S.Ordubadi yazırdı: "Ailəni iki nəfər naşı həyata təzəcə atılan, eyni zamanda bir- birini sevən adam qurmağa məcburdur. Onlar elə adamlardır ki, şəxsiyyətcə, şəkilcə, zövq və maraq cəhətcə də bir- birlərinə oxşamırlar. Onların uyuşması üçün  ümumi dil tapması üçün istinad edə biləcəyi yeganə bir vasitə varsa, o da sevgiləridir. Bunu üçün onlar nə cür hərəkət edirlərsə etsinlər, sevginin ləkələnməsinə, bu istinadgahın laxlamasma imkan verməməlidirlər.

Məhəbbət qanunları ilə yaşayan ailələr çoxdur. Ər və ya arvad bütün həyatı boyu nəinki ömür - gün yoldaşını sevir, həm də ona öz uşaqlarını, ev - eşiyini sevməyi öyrədir, hətta özlərinin ixtiyar çağlarında belə bir - birinin qəlbini gənclik məhəbbətinin pak nəfəsi və qeyri-adi hərarəti ilə  isidirlər.

Ailə xoşbəxtliyinin sirlərini təkcə, məhəbbətlə izah etmək bu gün çox sadəlövh görünərdi. Adamların təxminən 30 faizi bir-birini sevmədən ailə qururlar. Buraya ilk

növbədə qohum və tanışlar, ana və bacılar vasitəsilə yaranan ailələr daxildir. Bir çox ailələr isə təsadüfi tanışlıq əsasında yaranır. Müəyyən mülahizə ilə bağlanan nigahlara da az təsadüf olunmur. Sosioloqlar müəyyənləşdirmişlər ki, kişi və qadınların 70 faizi bir- birini sevərək evlənir. "Könül sevən göyçək olar"- demişlər. Lakin burada da biz qəribə hadisələrlə rastlaşırıq. Evlənəndən 5-6 il keçir, məlum olur ki, onların yalnız 46 faizi öz həyat yoldaşını sevməkdə davam edir, 24 faiz isə artıq sevmir.

Ailə inkişaf etdikcə, ər- arvadın münasibətləri də mürəkkəbləşir. Onların bir-birinə uyuşmasında müxtəlif amillər mühüm rol oynamağa başlayır. Ailə bir - birini sevən, bir -birinə hörmət və ehtiram edən iki adamın birliyindən yaranır. Ailənin bir sütunu ərin, bir sütunu isə arvadın çiyninə söykənir. Ər və arvadın maraqları və zövqü uyğun gəldikdə, sözləri daha yaxşı tutur. Bəzən ər- arvad öz xarakterlərinə görə bir- birlərinə oxşadıqda, hər ikisi mehriban olduqda, psixoloji cəhətdən bir-birinə asanlıqla uyuşur, birlikdə fərəhli həyat sürürlər. Ər- arvadın hər ikisi sanqvinik temperament tipinə mənsub olduqda bir-birilə asanlıqla dil tapır və mehriban yaşayırlar. Ər də, arvad da xolerik (tündməcaz) temperament tipinə mənsub olduqda isə çox vaxt bir- birinə uyuşa bilmirlər. Halbuki onlar müxtəlif temperament tipinə, məsələn, sanqvinik və fleqmatik temperament tipinə mənsub olduqda, bir- birinə daha yaxşı uyuşurlar.

Hər bir adam bütün ömrü boyu əsasən iki ailənin üzvü olur. Onlardan biri valideynlərin ailəsi, ikincisi isə oğlan və qızların özlərinin yaratdıqları ailədir. Bu iki ailədən hər birinin öz tarixi, öz taleyi vardır. Onların heç vaxt eyniləşdirmək olmaz. Lakin bu iki ailə görünməz tellərlə bir- biri ilə bağlıdır. Biz burada təkcə heç də onu nəzərə almırıq ki, hər bir qız və oğlan ata evinin abu- havasını öz ailəsinə gətirir. İki ailənin əlaqəsi daha geniş məna daşıyır: aylarla, illərlə davam edir, qayınata va qayınana, gəlin və kürəkənin hətta nəvələrin də həyatına bu və ya digər şəkildə öz təsirini göstərir. Ailə həyatının ilk illəri gənc ər- arvadın bir- birinə uyğunlaşması, isinişməsi dövrüdür. Ərin və arvad hərəsi bir ailədə böyüyüb tərbiyə almışlar, hərəsinin öz xarakteri, zövqü, adəti vardır. İnsanlara, məişət məsələlərinə, ər və arvadın vəzifələrinə, davranış və rəftarına müxtəlif cür yanaşırlar. Hətta birini

kədərləndirən, şadlandıran hadisə digərinə adi kimi görünür. Ər və arvad ilk gündən bir- biriləri ilə münasibətdə səmimi olmalı, qətiyyən yalan danışmamalı, evin sirrini saxlamağı bacarmalı, bir-birinə inanmalı və etibar etməli, ailənin sevincini də, kədərini də birlikdə yaşamalıdır.Əgər ilk gündən evdə inam və etibar itirsə, onlardan hər biri özü üçün yaşayırsa belə ailələrin sonrakı ömrü heç də fərəhli olmur. Psixoloqlar göstərirlər ki, nikahda iki "mən"in qarşılıqlı mübarizəsi və psixoloji uyğunlaşması on il müddətində davam edə bilir. Ona görə də "xasiyyətimiz tutmur", "yola getmirik" iddiaları ilə ərizə yazıb məhkəməyə müraciət etməkdə tələsmək heç kimə məsləhət görülmür.

Yadda saxlamaq lazımdır ki, sosialist nikah- ailə münasibətlərinin əsasında nəinki qarşılıqlı məhəbbət, habelə ər- arvad, ailə borcu, ailənin qorunması üçünəxlaqi və hüquqi məsuliyət, uşaqların tərbiyəsi, ailənin əmək qabiliyyəti olmayan üzvlərinin maddi cəhətdən təminatı durur.

Ər- arvad borcundan danışaq. Aydındır ki, yüksək mənəvi və estetik hiss olan məhəbbət həm də təbii- bioloji dayağa malikdir. Ona görə də o, zəifləyə, bəzən tamamilə fəlakətə düçar ola bilir. Belə hallarda məhz mənəvi- hüquqi borc hissi ər-arvada ailəyə qarşı sadiqliyi, sədaqəti qoruyub saxlamaqda kömək edir, tələsik,özünə bəraət qazanmamış uyğunsuzluqdan yan qaçılır.

İnsan həyatının çox mühüm hissəsini ailədə həyat yoldaşı kəsb edir. Ər və arvadda qəribə həssaslıq əmələ gəlməyə başlayır: onların hər biri öz ömür - gün yoldaşının baxışlarına, mimiklarına, jestlərinə elə isinişirlər ki, bir - birlərinin dərdini - sərini, sevinc anlarını,istək və arzularını sözsüz də başa düşürlər.

Ər-arvad münasibətləri Azərbaycan ailəsində mahiyyətcə nə qədər mühüm yer tutsa da, onun mənəvi həyatının dərin qatlarının əhatə edən ana kökləri valideyn-övlad arasındakı münasibətlərlə bağlıdır.

Ailə sadə və mürəkkəb olur. Mürəkkəb ailə üç və ya daha çox nəsildən - baba-nənə, ata-ana və uşaqlardan ibarətdir. Əgər iki və daha çox sadə ailə birlikdə yaşayırsa, o da mürəkkəb ailə hesab olunur.

Vaxtilə mürəkkəb ailə daha geniş yayılmışdı. Belə ailəyə patriarxal və ya ənənəvi ailə deyilir. Onun vəziyyətləri təkcə ailədə üç və daha çox nəslin yaşaması ilə

deyil, həm də uşaqların sayı ilə bağlı idi. Ənənəvi ailənin həyatı əsrlər boyu bərqərar olmuş adət və ənənələrdə idarə olunurdu. Onun münasibətlər şəbəkəsində böyüyün də, kiçiyin də öz yeri vardır. Ailənin mənəvi həyatında baba və nənə xüsusilə mühüm rol oynayırdı. Ailənin ən xoşbəxt çalarlarında da, çətin günlərində də onların nüfuzu, hörməti həlledici idi.

Kişi ailənin başçısı sayılırdı. Ailə həyatı ilə bağlı bütün başlıca qərarları o qəbul edirdi. Ailədə ən ağır fiziki işləri kişi görərdi. Evin "təsərrüfat həyatı" isə qadının payına düşürdü. Onun əlləri qızıl idi. O, inəklərə baxır, qoyun-quzu bəsləyir, eyni zamanda bir-birindən dadlı xörəklər bişirir, evi tər-təmiz saxlayır, uşaqlara pal-paltar tikir, yorğan sırıyardı. Bir sözlə, səhərdən axşamacan işləyirdi.

Kişiyə qayğı göstərmək, qulluq etmək qadının vəzifəsi idi. O bilirdi ki, uşaqlann xoşbəxtliyi kişinin sağlamlığından asılıdır. Kişi evə gələndə pərvanə kimi başına dolanardı. Nüfuzunu göz bəbəyi kimi qoruyur, onun zabitəsilə uşaqları ərsəyə çatdırırdı. Ev-eşiyi ana nəfəsi ilə isidirdi. O, evin əsl cəfakeşi idi. Hər an, hər dəqiqə fədakarlıq nümunəsi göstərir, özünün sağlamlığı hesabına gecə-gündüz uşaqların oduna yanırdı.

Ənənəvi ailənin pozulmaz qanunlarına görə, ailə çoxuşaqlı olmalıdır. Uşaqlar nə qədər çox olsaydı, valideynlər özlərini bir o qədər xoşbəxt sayırdılar. "Allahın payıdır" - deyərdilər. Uşaqların da sayı nə az - nə çox: 12, 13,14, 15....olardı.

Keçmiş ailə həm doğum evi, həm poliklinika və aptek, həm də məktəb idi. Onun müalicə üsulu xalq təbabətinə əsaslanırdı. Ailənin qida rasyonunda əksər yeri meyvə, tərəvəz, ağartı və s. tuturdu. Əti hərdənbir yeyərdilər. Xörəklərin çeşidi bir-birindən qəşəng, hamısı da ədviyyatla bişirilirdi. Ailə yeməyi bir yerdə yeyərdilər. Buna ailəni möhkəmləndirən ritual kimi baxırdılar. Süfrə başında hamının ovqatının yaxşı olmasına fikir verərdilər.

Keçmiş ailə həm də özünəməxsus məktəb idi. Onu obrazlı şəkildə "ana məktəbi" adlandırırlar. Bu məktəbin nə cədvəli, nə zəngi, nə də tənəffüsü vardı. O yayda da, qışda da adi günlərdə olduğu kimi fəaliyyət göstərirdi; sübh açılandan gecənin yarısına qədər uşaqlar həyat dərsi alırdılar. Bu məktəbdə, necə deyərlər, cəmi iki fənn keçilirdi - ana dili və əmək fənləri. Ana məktəbinin qızıl qanunu nümunədən

ibarət idi. Qızı anasının, oğlanı atasının timsalında tərbiyə edirdilər. "Ana məktəbi" əsl mənəvi tərbiyə məktəbi idi. Bu məktəbin nə qədər səmərəli olmasını təsəvvür etmək üçün göstərmək kifayətdir ki, uşaqlar 16 yaşına çatanda artıq sərbəst işləməyə də, ailə qurmağa da hazır olurdular.

Ənənəvi ailənin müsbət cəhətləri ilə yanaşı məhdud cəhətləri də az deyildi. İstər ailədə, istərsə də ondan kənarda qadınların ünsiyyəti məhdudlaşdırılırdı. Ər-arvadın savadsızlığı təkcə onların qarşılıqlı münasibətlərinin xarakterini deyil, həm də ailə pedaqogikasında, xüsusilə qız tərbiyəsində özünü göstərən məhdud cəhətləri şərtləndirirdi.

Nuklear ailə sadə ailədir. Mürəkkəb ailədən fərqli olaraq nuklear ailə iki nəsildən - ata-ana və uşaqlardan ibarətdir. Əgər uşaqlardan biri evlənirsə və ata-anası ilə birlikdə yaşayırsa, bu zaman ailənin tipi dəyişir - nuklear ailə mürəkkəb ailəyə çevrilir. Demoqrafların hesablamalarına görə, nuklear ailə bu gün ən geniş yayılmış ailə tipidir.

Nuklear ailə əsas ailə tipidir. Biz ailənin hansı tipini nəzərdən keçirsək, onun məhz nuklear ailə əsasında təşəkkül etdiyini görərik.

Uşaqları sayına görə nuklear ailənin 3 tipini fərqləndirirlər:

a) çoxuşaqlı (5 və daha çox uşaq);

b) orta uşaqlı (3-4 uşaq);

c) azuşaqlı (1-2 uşaq);

İkinci dünya müharibəsindən sonrakı illərdə ailənin inkişafında bir meyl xüsusilə aydın nəzərə çarpırdı. Dünyanın hər yerində olduğu ki, respublikamızda da azuşaqlı ailələrin miqdarı sürətlə artırdı. Demoqrafların fıkrincə, hazırda azuşaqlılıq müasir ailə üçün müəyyənedici xüsusiyyətə çevrilir.

Ailədə uşaqların azalmasının psixoloji nəticələrini valideynlər çox vaxt aydm dərk etmirlər. Ata-ananın gözünün ağı-qarası bircə balası və ya iki uşaqdan biri ağır xəstələnəndə, qəzaya düşəndə - onlar vahimə, təşviş, qorxu məngənəsində hansı hissləri keçirmirlər, nələrlə qarşılaşmırlar...

Demoqrafiyada müasir ailəni xarakterizə etmək üçün sadə (nuklear) və mürəkkəb ailə ilə yanaşı tam və ya natamam ailə terminlərindən də geniş istifadə

olunur.

Ailənin tam və ya natamam olmasını ər və arvadın varlığına əsasən müəyyən edirlər. Əgər ailədə ər və arvad birlikdə yaşayırsa, belə ailə tam ailə hesab olunur. Əgər ər və ya arvad vəfat etmişdir, yaxud boşanmışdırsa, bu zaman ailə natamam ailəyə çevrilir.

İnsanlara çoxdan məlumdur ki, ailələrin əmin-amanlığı cəmiyyətin mənəvi sağlamlığında bilavasitə əks olunur. Ölkəmizdə bir milyondan çox ailə var. Onların çoxu ana-ata fərəhi ilə xoşbəxt uşaqlar tərbiyə edirlər. Lakin bir çox ailə əməlli-başlı qol-qanad açmağa macal tapmamış boşanma nəticəsində dağılır. Bu sahədə statistik məlumatlar çox göstərilir. Onlann arxasında neçə-neçə insanın acı taleyini bəzən görmək olmur. Halbuki boşanmaya biz bu meyarla yanaşmalı, ancaq və ancaq insan taleyi haqda düşünməliyik. Yenə də statistikaya müraciət edək: boşanmadan sonrakı 10 il müddətində ancaq 25%-i, yəni 4 nəfərdən yalnız biri ikinci dəfə ərə gedə bilir. Bəs, uşaqlar haqqında nə demək olar? Boşanmış hər 100 ailədə orta hesabla 120 uşaq böyüyür. Bu o deməkdir ki, ildə boşanma nəticəsində minlərlə uşaq analı-atalı yetimə çevrilir. Analı-atalı yetim! Bu ifadə qoy heç kəsi təəccübləndirməsin.

Ata və ya ana vəfat edəndə, uşaqların tərbiyəsində çoxlu çətinliklər meydana çıxır. Ölüm ailəyə ağır yara vurur, uşaqları sarsıdır, lakin saf ailənin mənəvi dayaqlarını çox vaxt dağıda bilmir. Uşaqlar çətinlikləri aradan qaldıraraq, boya-başa çatır, həyatın istisini də görürlər, soyuğunu da.

Boşanma isə ailənin özəyini təşkil edən insan münasibətlərini - ər-arvad, ata-oğul, ata-qız, ana-uşaqlar arasındakı münasibətləri pozur. Uşaqlar çox vaxt ana ilə yaşasalar da, valideynlərin istər məhkəməyə qədərki, istərsə də məhkəmədən sonrakı dövrdə hədd-hüdud bilməyən təhqir və hədələrinin hədəfinə çevrilirlər. Onlar uşaqların gözündə öz nüfuzlarını itirirlər. Uşaqlar özgələşir, gününü çox vaxt küçədə keçirir, hətta müxtəlif cinayətkar qruplara da qoşulurlar.

İnsanın psixologiyası belədir: o, çətin anlarda həmişə özünə müxtəlif yollarla təsəlli verir, haqq qazandırır, nədəsə təskinlik tapır. Bəs, neynəsin?... Həyat yoldaşı kobud, əti-acı, soyuq adam olsa da, bir-birindən qəşəng üç körpə balası var. Onlan atasız qoysun? Bəs, uşaqların gələcək taleyi necə olsun? Ana bu kədərli sözləri

ürəyində qaynada-qaynada özünün acı taleyi ilə hesablaşır, evin ab-havası nə qədər dözülməz olsa da, uşaqlara qıymır, hər cür əzab-əziyyətə dözür.

Sosioloqlar ailələri bu baxımdan təhlil edərkən uğurlu və uğursuz ailə terminlərindən istifadə edirlər. Uğurlu ailələrdən hər biri özünəməxsus sosial-psixoloji xüsusiyyətləri ilə seçilir. Bu gün uğurlu ailələr bir-birinə bənzəməsələr də, onların rastlaşdıqları özünəməxsus problemlər ailə həyatının fərəhli axımında çox vaxt nəzərə çarpmır. Uğursuz ailələrin həyatı isə bu problemlərdən başlayır, onlardan hər biri özünün hətta ilk baxışda həllolunmaz görünən problemləri ilə diqqəti daha çox cəlb edir. Uğurlu ailələrdən fərqli olaraq uğursuz ailələrdə ərlə arvad ailə həyatında meydana çıxan problemlərə eyni baxımdan yanaşmır, bir-birilərinin hisslərini pis başa düşürlər. Onlar bir yastığa baş qoysalar da, bir-birilərinə ər-arvad qayğısı göstərmir, acı sözlərlə bir-birlərini təhqir edir, hirsləndirirlər. Ərə elə gəlir ki, arvadı onu sevmir, arvad isə yəgin edir ki, əri onu istəmir. Onlar bir-birinə inanmır, etibar etmir, asudə vaxtlarını bir yerdə keçirmirlər. Uğursuz ailədə söz-söhbət öz-özünə əmələ gəlir. Belə ailələrdə uşaqların vəziyyətini təsəvvür edin..Onların bir çoxunun küçəyə düşməsi valideynləri sonradan, mənəvi cəhətdən şikəst olanda yandırır.

Uşaq şəxsiyyətinin formalaşmasında ailə xeyli müddət ərzində əsas rol oynayır. "İnsanın xarakterinin, əməyə, mənəvi, ideya və mədəniyyət sərvətlərinə münasibətinin əsasları ailədə formalaşır."

Ailənin tərbiyə mühitini şərtləndirən amilləri iki tipə ayırmaq olar. Ana-ata, ana-uşaqlar, bacı-qardaşlar arasındakı münasibətlər, valideynlərin uşaqlara münasibətləri, onların şəxsi keyfıyyətləri və s. birinci tip amillər sırasına daxildir. Ailənin maddi vəziyyətini, mənzil şəraitini, strukturunu və s. isə ikinci tip amillərə aid etmək olar.

Uşaqların tərbiyəsi sahəsində ikinci tip amillərin əhəmiyyəti aydındır. Lakin bununla belə, onların təsirini həlledici hesab etmək olmaz. Ailənin əsas tərbiyə imkanları, hər şeydən əvvəl, valideynlərin və uşaqların qarşılıqlı əlaqəsi ilə müəyyən olunur.

Ailə həyatı şəxsiyyətin inkişafina bütövlükdə təsir göstərir. Bu cəhət, birinci

növbədə, uşağın emosional aləmində əks olunur. Son zamanlar psixoloqlar həmin məsələyə xüsusi diqqət yetirir, uşağın emosiya və hisslərinin inkişafında ananın roluna son dərəcə böyük əhəmiyyət verirlər.

Gəlin, bircə anlığa dünyanın məşhur rəssamlarının ilhamla yaratdıqları ülvi madonna obrazlarını gözlərimiz qarşısında canlandıraq. Onlarm, demək olar ki, hamısında uşaq ananın sol qucağında təsvir olunur. Görəsən, bu adi təsadüfdürmü? Bəlkə uşağın anasının sol qucağında təsvir olunması rəssamlıqda ənənədir? Bu sual uzun müddət sənətşünaslıq üçün sirli olmuşdur. Müasir psixologiya isə həmin sirləri artıq aydınlaşdırmışdır. Bir sıra tanınmış mütəxəssilərin fıkrincə, bu instinktiv hərəkətin səbəbi odur ki, körpə ana ürəyinin döyüntülərini hələ ana bətnində eşidir, ona öyrəşir və özünü, necə deyərlər, ən munis "qəlb musiqisinin sədaları altında" daha yaxşı hiss edir. Təzə doğulmuş uşaq üçün bu əsrarəngiz uşaq səsi ana ilə bağlılıq deməkdir. Məhz buna görə də sol tərəfdən qucağa götürülmüş uşaqlar az ağlayır, tez kökəlir, başqa uşaqlara nisbətən tez inkişaf edirlər. Başqa sözlə, onlar 1 yaşında həkim köməyinə az ehtiyac duyurlar.

Yeri gəlmişkən onu da qeyd edək ki, uşağı sol tərəfdən qucağa götürən qadınların çoxu bunun nə ilə əlaqədar olduğunu izah edə bilmirlər. Xoşbəxtlikdən anaların əksəriyyəti intuitiv surətdə olsa da, uşağı necə qucağa götürməyi yaxşı bilirlər.

Mütəxəssislər belə hesab edirlər ki, südəmər uşağın hansı tərəfdən qucağa götürülməsi onun inkişafina böyük təsir göstərir. Əgər ana uşağı sol tərəfdən qucağına götürmüşsə, deməli, hər şey qaydasındadır, yox əgər sağ tərəfdən qucağına götürmüşsə, deməli, bunun ziyanı ola bilər.

Bəzi analar uşağı sağ tərəfdən qucaqlanna götürürlər, bəs, bunu nə ilə izah etmək olar? Həmin suala dəqiq cavab vermək çətindir. Lakin bəzi psixoloqlar belə güman edirlər ki, əksər halda uşağı sağ tərəfdən qucağına alan anaların çoxu doğuş zamanı qorxu hissi keçirmiş, çətinliklə doğmuş və ya uşaq doğmağı arzulamamışdır. Buna görə də onlarla doğma övladları arasında fiziki kontakt zəifdir.

Ana uşaq aləminin affektiv mərkəzidir. Uşağın xarici aləmə bütün münasibətləri ana vasitəsilə reallaşır. Bu münasibətlər sisteminə tədricən ata, bacı, qardaş və b. daxil olur. Uşaq yaşa dolduqca onun həyatında və psixi inkişafında atanın rolu

daha da artır. Onun münasibətlər sistemi şaxələnir və daha da mürəkkəbləşir. Uşaq tədricən ailə münasibətləri normalarına yiyələnir. Onda "yaxşı nədir, pis nədir?" haqqında təsəvvürlər formalaşır. Uşağını motivasiya sahəsində köklü dəyişikliklər əmələ gəlir. Özü haqqında təsəvvürləri formalaşdıqca, uşağın davranış və rəftarı da dəyişir. Yaşlılarla və həmyaşıdları ilə ünsiyyət şəraitində uşağın xarakteri formalaşmağa başlayır... Bu mərhələdə də valideynlərlə uşaqlar arasındakı münasibətlər həlledici əhəmiyyət kəsb edir.

Psixoloqlar kollektivdə öz davranış və rəftarı ilə bir-birindən kəskin surətdə fərqlənən şagirdləri iki qrupa ayırmışlar. Birinci qrupa özünün kollektivçiliyi, müstəqilliyi, məsuliyyət hissi, aktivliyi, özünütənqidi yanaşması və s., ikinci qrupa isə əks keyfiyyətlərlə fərqlənən uşaqları daxil etmişlər. Bundan sonra psixoloqlar həmin uşaqların valideynləri ilə münasibətlərinin xarakterini müqayisəli surətdə öyrənmişlər. Məlum olmuşdur ki, birinci qrupa daxil olan uşaqların valideynləri onların hissləri ilə yaxından maraqlanır, onlarla təmkinlə rəftar edir, özlərinin asudə vaxtlarının onlarla birlikdə keçirir, onlara mənəvi təsir göstərirlər.

Tədqiqatın nəticəsi aydındır: valideynlərin uşaqlarla münasibətləri nəinki məktəbəqədər və kiçik məktəbli yaşı dövrünlərində, həm də yeniyetməlik və gənclik yaşı dövrlərində də onların bir şəxsiyyət kimi inkişafının başlıca əsasını təşkil edir. Bu baxımdan təkcə onu qeyd etmək kifayərdir ki, gənclərin ictimai-siyasi inkişafına valideynlər mühüm təsir göstərirlər.

Uşağın gələcək kişi və qadın kimi formalaşmasının əsasları da ailədə qoyulur. Bu məsələyə ayrıca diqqət yetirmək lazımdır.

Uşağın tərbiyəsində müəyyən adət və ənənələr mövcuddur. Ailədə oğlan və qız uşaqlarını tərbiyə edərkən, adətən, bu adət və ənənələri gözləyirlər. Hər bir valideyn cəmiyyətdə bərqərar olmuş kişilik və qadınlıq etalon və stereotiplərini nəzərə alır, oğlanlara kişi, qızlara isə qadın üçün səciyyəvi tələbat, maraq və xarakter əlamətləri, adət və vərdişlər, davranış və rəftar qaydaları aşılayır.

Psixoloji tədqiqatlar göstərir ki, qızlar qadınlıq etalonlarını, hər şeydən əvvəl, ana ilə dialoq şəraitində mənimsəyirlər. Onlara bu etalonlara müvafıq şəkildə evdarlıq, uşaqlara qulluq etmək vərdişləri aşılanır, musiqi mədəniyyəti (o cümlədən

layla çalmaq), özünün ata və qardaşları nümunəsində kişiyə hörmət hissi, oğlanlarla rəftar aktı tərbiyə olunur. Onlarda mehribanlıq, təmkinlilik, nəzakətlilik və s. kimi qız üçün səciyyəvi keyfiyyətlərin formalaşmasına xüsusi diqqət yetirilir.

Oğlan uşaqlarına kişiyə məxsus xarakter əlamətləri, xüsusilə iradi keyfiyyətlər aşılanır. Onlarda təmkinlilik, dözümlülük, mərdlik və s. keyfiyyətlər tərbiyə olunur. Oğlan uşağına anası, bacısı nümunəsində qadına, qızlara hörmətlə yanaşmaq, çətin işlərdə onlara kömək etmək və s. aşılanır. Onların bədən tərbiyəsinə daha çox diqqət yetirilir.

Yeniyetməlik yaşı dövründə oğlanlar və qızlar kişilik və qadınlıq etalonlarına fəal sürətdə yiyələnirlər. Onlar qadın kimi bəzənməyə, kişi kimi saç saxlamağa başlayırlar. Qızlarda kosmetik vasitələrə maraq artır. Oğlanlar qızların yanında güclü olduqlarını göstərir, hansı işdəsə fərqlənməyə çalışırlar. Oğanlarla qızların qarşılıqlı münasibətlərində yeni çalarlar əmələ gəlir. Onlar bir-birindən utanmağa başlayırlar.

Uşaqların kişi və qadın rollarını mənimsəməsində valideynlərin davranışı da mühümdür. Atanın bir kişi, ananın isə qadın kimi nümunəsi uşaqların oğlan və qız tək formalaşmasında eyni dərəcədə zəruridir. Bu baxımdan valideynlərin uşaqlarına münasibətinin xarakteri də əhəmiyyətlidir.

Analar çox vaxt uşaqlarının cinsi xüsusiyyətlərini kifayət qədər nəzərə almır, bir uşaq, bir övlad kimi onları bir-birindən əslində seçmirlər, qıza da, oğlana da eyni dərəcədə qayğı ilə yanaşırlar. Əlbəttə, ana qayğısı, ana şəfqəti lazımdır. Lakin belə bir qayğılı ana münasibəti ilə ata münasibətində müəyyən sərhəd istər-istəməz özünü göstərir. Belə ki, atalar analardan fərqli olaraq davranış və rəftarında uşaqların cinsi xüsusiyyətlərinə daha çox diqqət yetirirlər. Bu baxımdan onlar uşaqların kişi və qadın rollarının mənimsəməsində daha təsirli rol oynayırlar. Uşaqlar atanın qayğı və zabitəsində özlərini xoşbəxt hiss edirlər. Atanın hətta qısa bir müddət ərzində-6 ay, 1 il evdə olmaması nəticəsində övladlarda, xüsusilə oğlan uşaqlannda qorxaqlıq, qaradinməzlik, tərslik, əsəbilik və s. kimi mənfl əlamətlər tədricən əmələ gəlir.

Oğlan uşaqları özlərini ataları ilə eyniləşdirir, onun bir çox hərəkətlərini təqlid yolu ilə mənimsəyirlər. Bu mənada biz ailədə uşaqların tərbiyəsində atanın xüsusi məsuliyyət daşımasından danışmalıyıq.

Oğlan uşağı üçün ata ağıl, iradə qüvvəsi, kişi əzəməti nümunəsidir. Ata oğlunu tərbiyə etməklə, həm də özünü tərbiyə edir və dəyişir. Öz oğlunun simasında gələcək kişinin formalaşmasını görmək və ona bu sahədə ən yaxşı davranış nümunəsi göstərmək o deməkdir ki, ata özünün kişi ləyaqətini qoruyur, daha da inkişaf etdirir.

Müşahidələr göstərir ki, lap kiçik yaşlarından atası ilə kifayət qədər ünsiyyət imkanına malik olmayan oğlanlar sonralar çox vaxt öz atalıq vəzifələrini icra etməkdə çətinlik çəkirlər. Atasız tərbiyə olunan oğlanlar isə əlverişli şəraitdə ya qadın davranış tipini mənimsəyir, ya da onlarda kişi davranışı haqqında yanlış təsəvvürlər formalaşır.

Qızların mənəvi inkişafını da atasız təsəvvür etmək çətindir. Oğlan uşağının həyatında ana nə qədər böyük rol oynayırsa, qız uşağının həyatında ata bir o qədər rol oynayır. Psixoloqlar əsaslı surətdə müəyyənləşdirmişlər ki, atasız böyüyən qız uşaqlarında kişi haqqında dolğun təsəvvür formalaşmır. Bu əsasda da onun gələcəkdə öz həyat yoldaşı ilə münasibətlərində xeyli çətinliklər qarşıya çıxır. Biz burada başqa faktları da ayırd edə bilərik. Lakin onları bir məna birləşdirir: ailənin mənəvi inkişafı həm ana, həm də ata ilə bilavasitə bağlıdır.

Ailədə oğlan və qızların tərbiyəsində müəyyən nöqsanlarla da qarşılaşırıq. Onların ikisi haqqında ayrıca danışmağı lazım bilirik.

Bir sıra hallarda valideynlər qız uşağını mahiyyət etibarilə oğlan kimi tərbiyə edirlər. Onu oğlan kimi geyindirir, hətta ona oğlan oyuncaqları alırlar. Belə bir şəraitdə qız öz cinsinə xas olmayan davranış mədəniyyətinə yiyələnir və bu əsasda da onda maskulinizasiya əlamətləri formalaşır. Maskulinizasiya hallarına nisbətən az təsadüf olunsa da, onların psixoloji nəticələri haqqında ciddi düşünmək lazımdır. Qız uşaqlarının lap kiçik yaşlarından qadın etalon və stereotiplərini düzgün mənimsəməsinə xüsusi diqqət yetirilməlidir.

Bəzi ailələrdə oğlan uşağında kişi keyfiyyətlərinin formalaşmasına əslində əhəmiyyət verilmir. Bunun nəticəsində də lap kiçik yaşlarından başlayaraq, onda qıza məxsus keyfiyyətlərin - feminizasiya əlamətlərinin formalaşması üçün psixoloji cəhətdən əlverişli şərait yaranır.

Feminizasiya oğlan uşaqlarında qadın əlamətlərinin əmələ gəlməsinə deyilir.

Feminizasiya əlamətləri bir sıra hallarda zahiri xarakter daşıyır, uşaqların zahiri görkəmində, deyək ki, sifət cizgilərində aydın dərəcədə nəzərə çarpır. Lakin belə hallar demək olar ki, geniş müşahidə olunmur. Bir sıra hallarda feminizasiya əlamətləri şəxsiyyətin bütün iradi keyfiyyətlərinə, onun xarakter əlamətlərinə nüfuz edir və oğlanların kişi rolunu mənimsəməsi prosesini çətinləşdirir. Bu isə oğlanlarda qızların qarşılıqlı münasibətində özünəməxsus psixoloji çətinliklər yaradır. Belə oğlanlar qız modası elementlərinə asanlıqla uyurlar: onlar kimi saç saxlayır, qızların geniş istifadə etdikləri rəngli və güllü parçalardan paltar tikdirirlər və s.

İlk baxışda bunlar modanın yayılması qanunları və s. ilə izah olunur. Lakin onların psixoloji mənası və nəticələri əslində daha dərindir, biz həmin məsələyə sabahkı əsgərin, ərin yaxud atanın cəmiyyətdə artıq bərqərar olmuş idealları baxımından yanaşmalıyıq. Bu baxımdan feminizasiyanın nəticələri haqqmda ciddi düşünmək lazımdır. Son zamanlar sosioloqlar, psixoloqlar və pedaqoqlar bu məsələyə diqqəti yönəldir, maskulinizasiyadan fərqli olaraq, onun daha çox müşahidə olunduğunu qeyd edirlər.

Müəyyən edilmişdir ki, feminizasiya halları kənd uşaqlarına nisbətən şəhər uşaqlarında daha çox özünü göstərir. Əsasən qız və ya qadın mühitində böyüyən oğlan uşaqlarında feminizasiya əlamətləri daha geniş müşahidə olunur. Bu cəhətdən müəllimlərin rolu böyükdür,

Oğlan uşaqlarında kişiyə məxsus keyfıyyətlərin əmələ gəlməsi ona görə çətinləşir ki, məktəbdə müəllimlərin əksəriyyəti qadınlardır: onlar təbii ki, uşaqlara öz istəklərindən asılı olmayaraq böyük məmnuniyyətlə qadm keyfiyyətləri - səliqəlilik, risk etməmək, səs salmamaq və s. aşılayırlar.

Ailədə oğlan uşağı çox vaxt anası ilə ünsiyyətdə olur. Gəzintiyə daha çox anası ilə gedir, ev işlərini anasının yaxından köməyilə yerinə yetirir. Bir çox oğlan uşaqları ən yaxşı halda idman oyunlarında tamaşaçı kimi iştirak edir, əslində idmanla məşğul olmurlar. Bəzi ailələrdə oğlan uşaqlarının əzizlənməsi, hər cür qayğıdan azad edilməsi, çətinlikdən uzaqlaşdırılması və s. hallar nəzərə çarpır. Bu oğlanlarda xüsusilə "kişi" xarakterinin formalaşmasına mənfı təsir göstərir.

Beləliklə, oğlanların bir çoxu düzgün kişi tərbiyəsi almırlar. Bu tərbiyə

üslubunun mənfı psixoloji nəticələri ailə həyatında aydın nəzərə çarpır. Onlar ailədə özlərini çox vaxt kişi kimi apara bilmir, kişi nüfuzu qazana bilmirlər. Əsl qadın belə hallarda, adətən, əzab çəkir. Axı qadın ərinin, sözün həqiqi mənasında, kişi xarakterini, onun ailənin şərəf və ləyaqətini qorumaq əzmini duyanda, özünün və uşaqlarının taleyini ona etibar edir, kişi vüqarı və əzəməti ilə fəxr edir...

Uşaqların formalaşmasında ailənin rolu son dərəcə misilsizdir. Aildə uşaq sosial münasibətlərə - ailədaxili münasibətlərə qoşulur, onların vasitəsilə insan, dünya, mənəvi sərvətlər haqqında anlayışlara yiyələnir, cisim və hadisələrə qiymət verməyi, başqa adamları başa düşməyi, yaşlılara, qadın və kiçiklərə, kiçik uşaqlara hörmət və kömək etməyi, öz nöqsanlarını görməyi öyrədir. Ailədə ata-ana, ata-uşaqlar, ana-uşaqlar, ana-qaynana, bacı-qardaş, bacı-bacı arasındakı paralel münasibətlər - bunların hamısı böyük tərbiyəvi əhəmiyyətə malikdir. Uşaqların tərbiyəsi baxımından ailədə kiçik məsələ yoxdur. A.S.Makarenko göstərirdi ki, ata hətta qəzeti necə oxuması ilə uşaqları tərbiyə edir.

Görkəmli pedaqoq valideynlərə müraciətlə deyirdi ki, tərbiyə işinin əsl mahiyyəti heç də sizin uşaqlarla təklikdə söhbət etmənizdən, uşağa müstəqil təsir göstərmənizdən ibarət deyildir, ailənizin, şəxsi və ictimai həyatınızın təşkilindən, uşağın həyatını təşkil etməkdən ibarətdir.

Valideynlər uşaqlara onların yaşına müvafiq tələblər verməli, nəinki həmin tələblərə əməl olunmasına diqqət yetirməli, həm də onlara müstəqillik verməli, ailə problemlərinin müzakirəsinə cəlb etməli, uşaqları narahat edən məsələləri onlarla birlikdə müzakirə etməlidir. Valideynlər bu yolla uşaqlarda iradə və xarakterin inkişafı, məsuliyyət hissinin formalaşması üçün şərait yaradır, öz övladlarına əmək adətləri aşılayırlar.

Valideynlərin uşaq və yeniyetmələrlə sosial-siyasi mövzularda söhbətləri də böyük tərbiyə əhəmiyyətə malikdir. Valideynlər uşaqlara ən yaxın adamlardır; uşaqlar, bir qayda olaraq, onlara hamıdan çox inanır, etibar bəsləyirlər. Bir cəhət şübhəsizdir ki, valideynlərlə uşaqlar arasındakı münasibətlər nə qədər əlverişli olsa, onların uşaq və yeniyetmələrin şəxsiyyətinin formalaşmasına təsiri bir o qədər möhkəm və səmərəli olar.

# II FƏSİL. AİLƏDAXİLİ MÜNASİBƏTLƏRDƏ ORTAYA ÇIXAN KONFLİKTLƏRİN TƏDQİQİ VƏ ARADAN QALDIRILMASI YOLLARI

## 2.1. Ailədə konfliktli münasibətlərin yaranma səbəbləri, faktorları və təzahürləri

Ər-arvad münasibətləri kişi ilə qadının psixologiyasını köklü surətdə dəyişir. Onlar ülfət bağladıqları anlardan özlərini yalnız bir-birilərinə mənsub olduqlarını qəbul edirlər. Ər-arvadda qəribə həssaslıq əmələ gəlməyə başlayır, onlar başqa adamların, hətta öz doğma övladlarının yanında pərdə gözləyir, özlərini ər-arvaddan çox ata-ana kimi aparırlar. Halbuki ər-arvad həyatının çox mühüm bir sahəsi onların intim münasibətləri ilə bağlıdır. Ailədaxili konfliktlərin bir səbəbi də intim münasibətlərin yerində olmamasıdır. Məhz bu münasibətlər sahəsində ərlə-arvad bir-birini təmin etmədikdə ailədə söz-söhbət, dava-dalaş üçün şərait yaranır, ailə münasibətləri tədricən pozulmağa başlayır, kişi və ya arvad evdən soyuyur, hətta kişinin gözü onun-bunun ocağında qalır. Bu zaman həkimlər seksual uyğunsuzluqdan danışırlar. Mütəxəssislərin hesablamalarına görə, boşanmaların təxminən 30%- i məhz seksual uyğunsuzluq zəminində baş verir.

Ərlə-arvadm intim həyatına adi məsələ kimi yanaşmaq olmaz. Bu baxımdan iki cəhəti xüsusi qeyd etmək lazımdır:

I.Bütün adamlarda yeməyə, yuxuya, soyuqdan, yaxud həddindən artıq istidən qorunmağa və s. tələbat olduğu kimi, əks cinsə də tələbat var. Bunlar təbiidir. Təbii tələbatların bütün növləri heyvanlar üçün də səciyyəvidir, lakin bir mühüm cəhəti həmişə nəzərə almaq lazımdır: insanın təbii tələbatları özünün psixoloji məzmununa və təmin olunma formalarına görə heyvanların təbii tələbatlarından köklü surətdə fərqlənir. Axı insanın tələbatı cəmiyyətdə, konkret tarixi şəraitdə formalaşır və inkişaf edir. Tələbatların məzmunu da, təmin olunma vasitələri də cəmiyyətin inkişaf səviyyəsi ilə şərtlənir. Mədəni və mənəvi tələbatlar formalaşdıqca, təbii tələbatlar da insanilaşir, daha çox mənəvi estetik məzmun kəsb edir.

II.Seksual tələbat insanın təbii tələbatları içərisində xüsusi yer tutur. Bu isə

təsadüfi deyildir. İnsanın cinsi həyatı onun başqa bioloji funksiyalarından fərqli olaraq məhz başqa adama münasibət sahəsi ilə bağlıdır. İki adamın -kişi və qadının, ər-arvadın münasibəti isə sosial münasibət məsələsidir. Ailənin intim aləmi ər-arvada insan münasibətlərini özünəməxsus hərarətini bəxş edir. Bu münasibətlər qarşılıqlı məhəbbət əsaslananda daha da gözəlləşir, insan ünsiyyətinin fərəhli anlarına çevrilir. Əks halda isə cəhənnəm əzabına və əsl işgəncəyə bənzəyir. Gün keçdikcə münasibətlər dözülməz həddə çatır. Görkəmli mütəfəkkirlər apardıqları tədqiqatlardan belə bir nəticəyə gəlmişdilər ki, intim münasibətlərdə qadının rolu əvəzsizdir və ər-arvad münasibətində böyük əhəmiyyət kəsb edir. Qadın özünü qadın gözəlliyini, cazibəsini, zərifliyini qoruyub saxlamalıdır. Yaşı, peşə sahəsi, təhsil səviyyəsi çərçivəsində səliqə-sahmanlı, sığal-tumarlı olmalıdır. İntim münasibətlərin nəcibləşdirilməsi də qadının davranış və rəftarı ilə bilavasitə bağlıdır.

Ər-arvadın intim həyatı əslində onların ömür-gün yolunun bütün çalarlarını özündə əks etdirir. Kişilər həmişə öz həyat yoldaşlarından mehribanlıq və zərif rəftar gözləyirlər. Halbuki, onların öz həyat yoldaşlarını qiymətləndirə bilmək və sevmək bacarığı ailənin intim həyatı üçün olduqca zəruridir. Qadın öz gözəlliyini qoruyub saxlaması da elə ərin qayğı və mehribanlığından bilavasitə asılıdır.

Ailənin intim aləmində fizioloji və psixoloji çalarlar özünəməxsus şəkildə birləşir. Ər-arvadm bir şəxsiyyət kimi xüsusiyyətləri onların qarşılıqlı münasibətlərinin məhz psixoloji çalarlarında əks olunur; Onlar bu anlarda bir-birilərinə nə qədər yaxın olduqlarını dərk edir, bir yerdə özlərini əsl mənada xoşbəxt hiss edirlər. Əks halda isə ailənin təməli sarsılmağa, münasibətlər korlanmağa, onlar bir-birilərindən uzaqlaşmağa başlayırlar.

Əgər ər-arvadlar aralarındakı kövrək, ülvi, saf və təmiz hissləri ömürləri boyu qoruyub saxlaya bilsələr, evdə ailə münasibətlərinin inkişafı üçün əlverişli şərait yaranır.

Ailədə müxtəlif səbəblərdən baş verən konfliktli situasiyaların düzgün həll edilməsinə fikir yönəltmədikcə, gün keçdikcə evlilik daha da mənfi nöqtəyə yönələn təhlükə siqnalına çevrilir. Konflikt zamanı baş verən qarşıdurmalarda kişinin və ya qadının arasında davamlı bir güc mübarizəsi yaşandığı görülür, ya da biri digərinə

(ümumiyyətlə, qadın ərinə) tamamilə boyun əymək məcburiyyətində qalır. Evliliyin nəslin davamı, qadın və kişinin bir-birilərini tamamlayaraq yetkinləşmələri, iffətlərini qorumaları, sağlam bir cəmiyyət həyatının təşəkkülü kimi hikmətlərə görə Allahın lütf etdiyi bir xeyir olduğu unudulur.Ailə mühitinə sevgisizlik və anlayışsızlıq hakimdir. Nə axşam evə yorğun-arğın gələn ər arvadından gülərüzlü bir qarşılama görər, nə də qadın səylərinə qarşılıq olaraq ərindən bir təqdir və təşəkkür cümləsi eşidər. Ailə mühitinə sevgi və anlayışdan çox, güclü olan kişinin və ya qadının digərini davamlı izləmə, yoxlama altında tutmağa çalışması öz damğasını vurur. Ər və arvad bir-birilərindən edə bildikləri qədərini deyil, ən mükəmməlini istəyirlər. Təməldə ailə fərdləri arasında özünü təsdiqləmə və qarşı tərəfi qəbul etmə böhranı yaşanır. Edilənin tədqir edilməsi yerinə, davamlı olaraq "olması lazım olan " sözləri işlədilir. Buna görə də əksər davranışlar saxtadır, qarşı tərəfin bəyənməsi üçün edilir. Bu tərz mükəmməlliyyətçilik nəticəsində ailə fərdləri özlərini olduqları halı ilə heç bir dəyərlərinin olmadığını, özünün düşüncə və davranışlarının əhəmiyyətsiz olduğu hissinə qapılırlar. Yaşanan hadisələr çox vaxt olduğu kimi qəbul edilmədiyindən həmişə günahlandırma mövqeyi tutulur. Beləcə tamamilə xaricdən asılı, öz iç dünyası ilə qopuq, robot kimi yaşayan bir ailə tipi formalaşır.

İnciklikləər, küskünlüklər və problemlər ifadə edilə bilmədiyindən və həllsiz şəkildə davam etdirildiyindən ailə fərdləri bir-birilərini anlamaz, bir-birilərinə anlayış göstərməz.

Nəhayət, ərlə arvad arasında bir-birinə inam, etibar əslində yoxa çıxır. Guya bunlar var kimi görünsə də, təməldə etibarsızlıq vardır. Konfliktlər həllsiz qaldığı üçün evlilik də yavaş-yavaş bədbəxt və ümidsiz bir məcraya doğru süründürülür. Çox vaxt belə münasibətlərdə kişinin qadına zor tətbiq etməyinə də rast gəlinir. Aparılan araşdırmalar göstərir ki, fiziki zor tətbiq etməyə müraciət edən kişilərin əksəriyyəti bunu əsasən öz ailələrində görüb, götürüb və bu davranışları modelləşdiriblər.

Unutmayaq ki, ən böyük nümunəmiz olan sevimli Peyğəmbərimiz də həyatı boyunca heç bir qadınına əl qaldırmamışdır. Bu onun qadınları ilə problemi olmadığından deyil, problemi bu şəkildə həll etməyə çalışmamasındandır. Konfliktlər ciddi ölçüyə çatanda isə həyat yoldaşından bir və ya bir neçə gün uzaq dayanmış,

amma heç bir zaman zor tətbiq etməmişdir. Çünki o hesab edirdi ki, zor tətbiq etmə xüsusilə bir kişi üçün acizlik, zəiflik və uduzma hesab edilir.

Cəmiyyətin ən kiçik vahidi olan ailə, insanların bəslənmə və baxım ehtiyaclarını qarşılayan, güvən duyğusu verən, bədən və ağıl sağlamlığını qoruyan və inkişaf etdirən, bəzənsə hər növ şiddətin bəsləndiyi, zorakılığın tətbiq olunduğu tək mərkəzdir. Bunu da unutmaq lazım deyil ki, ailə canlı bir təsisatdır. O da dialektika qanunlarına tabedir. Bu mənada da söhbət heç də ailədə münaqişənin olub-olmaması haqqında getmir. Əslində münaqişəsiz ailə yoxdur və ola da bilməz.

Ailə qurmaq yalnız nigah bağlamaq, toy eləmək, yeni evə köçmək deyil. Ailə qurmaq -oğlanın da, qizin da həyatında tamamilə yeni bir əlaqə formasının, məsuliyyətin yaranması deməkdir. Ailə qarşısında məsuliyyət hiss etmək əsl kişilik əlamətidir. Bu məsuliyyət hissi ərdən tələb edir ki, o yalnız özü üçün deyil, ailə üçün də yaşasın, həyatın şirinliklərindən təkbaşına deyil, ailəsi ilə birlikdə bəhrələnsin.

Təəssüf ki, bu məsuliyyət hissini tərsinə başa düşən, öz kişilik hüququndan sui-istifadə edən cavan ərlər də az deyil. Onlar ailədə mənəm-mənəmlik etməyi ailəyə başçılıq etmək başa düşür və bu hərəkətləri ilə öz arvadlarının mənliyinə toxunur, onları hörmətdən salırlar. Kişi gərək sevdiyi arvadın şərəfini və mənliyini qorusun, onun qadınlıq ləyaqətini yüksək tutsun.

Həyat yoldaşları "ər və arvad" yaşanan qarşıdurmaların təməlində, hər şeydən əvvəl, evlilik kimi bir təcrübənin ilk dəfə yaşanır olması gəlir. Hər iki tərəf də, illər ili adət etdiyi yaşantılarını dəyişərək yeni bir həyata addım atmışlar. Üstəlik, "ailə" adlı verilən bu yeni mühit, bütün məsuliyyətləri ilə birlikdə, təməli meydana gətirmək, ailə evinə kərpicləri bir-bir özləri qoymaq vəziyyətindədir. Bu vəziyyət istər istəməz, gənc ailə üzərində ciddi bir yük meydana gətirir. Dahası, hələ bir-biriylə əlaqədar olaraq "tanıma" müddətləri də tam bitməmişdir. Həyat yoldaşları, evliliklərini möhkəm bir təmələ oturtmaq üçün bir-birilərini yaxşıca tanımaq və bir-birilərini tam mənasıyla güvənmək ehtiyacı hiss edərlər. Bu müddətdə, cütlük evlilik əvvəli bir-biriləri haqqında zehinlərində daşıdığı düşüncələrdə ciddi dəyişikliklər ola bilər.

Ətrafımızda tez-tez eşitdiyimiz kimi ,"Mən səni belə tanımırdım", şikayətlənmələri bu dövrün tipik xüsusiyyətlərindəndir.

Ailələrdə konfliktli vəziyyətin yaranma səbəblərinə: iqtisadi problemlərdən, cütlüyün ailəriylə əlaqələrinə, ünsiyyət formalarından, evdə qərarların necə alınacağına, cütlüyün birincininmi yoxsa ikincinin birdənmi işləyəcəyi, ev işlərində əmək bölgüsünün necə ediləcəyinə, bazarlığın kimin edəcəyinə, diş pastasının ortadanmı yoxsa ucdanmı sıxıldığına qədər ..... xeyli çox mövzunu misal göstərə bilərik. Evliliyin ilk 1-2 ili, bu problemlərin nisbətən sabit bir həllə qərarlaşdırılmağa cəhd göstərildiyi ildir. Cütlüyün anlayış səviyyələri və yetkinlik səviyyəsindən asılı olaraq bu müddət uzanıb qısala bilər.

Ailə söz-söhbətsiz olmaz. İnsanlar nə qədər bir-birini sevsələr də, nə qədər bir-birilərinə yaxın və yekdil olsalar da, onlar bir-birini təkrar edə bilməzlər, eyni cür sevib, eyni cür düşünə bilməzlər. Demək xasiyyət müxtəlifliyi olan yerdə fikir və hərəkət müxtəlifliyi də ola bilər. Bu isə müəyyən söz-söhbətə, narazılığa səbəb ola bilər və olur da. Vay o gündən ki, bu kiçik narazılıqları ailənin xeyrinə həll edə bilməyəsən, bax ondan qorxmaq lazımdır. O ailələr xoşbəxt olur ki, ərlə arvad bir-birinə güzəştə gedə bilir, biri od olanda o biri su olur. Çünki ailə səadəti təkcə sevgi, məhəbbət üzərində qurulmur, qarşılıqlı anlaşma, çətinliyə dözüm, qohum-əqrabanı yola verərək, səbirli olmaq ailənin xoşbəxtliyini təmin edən əsas şərtlərdəndir.

Bir çox hallarda ailədə münaqişəli vəziyyət yaranır, bəzən isə adi küsüşmə, deyişmə, ağızlaşma və s. nəticəsində ailə ixtilafları həddini aşıb daha kəskin səciyyə daşıyır.

Ailə münaqişələri mənbəyinə, məzmununa və formasına görə müxtəlifdir. Ailə həyatında onlardan bəzilərinə, xüsusilə:

1) ər-arvadın tələbatlarının, o cümlədən seksual tələbatlarının təmin olunmaması əsasında əmələ gələn;

2) onların tərbiyəsi, xüsusilə xarakteri və mənəvi inkişafı ilə bağlı olan;

3) ər-arvadın özlərinin qarşılıqlı hüquq və vəzifələrindən, ailədə əmək bölgüsündən, uşaqlara göstərilən qulluqdan narazı olması əsasında əmələ gələn münaqişələrə daha çox təsadüf olunur.

Ailə münaqişələrinin ən başlıca səbəbi uzun müddət maddi səbəblərlə (ailənin təmin olunması, pulun xərclənməsi, mənzil problemi və s.) bağlı olmuşdur. Şəx-

siyyətin hərtərəfli inkişafı, xüsusilə istər ərin, istərsə arvadın təhsil - peşə səviyyəsinin yüksəlməsi, tələbat sahəsinin zənginləşməsi və s. nəticəsində başlamışdır. Bu cəhət ailə münaqişələrində bütün aydınlığı ilə özünü göstərir.

Münaqişələrin əmələ gəlməsində mənəvi-psixoloji səbəblərin rolu gündən-günə artır.

Ər-arvadın mübahisəsini, dava-dalaşını özünəməxsus döyüşə bənzədən sosioloqlar düzgün olaraq qeyd edirlər ki, bu döyüşdə qalib yoxdur, ola da bilməz, ancaq məğlub olan vardır. Onlar dalaşa-dalaşa qohumlarm yanında, ən başlıcası uşaqların yanında hörmətdən düşürlər. Bu o deməkdir ki, mənəvi cəhətdən ər də, arvad da məğlubiyyətə uğrayır.

Boşanmaların bir qismi ər-arvad vəfasızlığı (xəyanəti) nəticəsində baş verir. Yalnız şüurlu, bilərəkdən atılmış addımdan başqa hər şeyi-səhvi, diqqətsizliyi, düşüncəsiz hərəkəti, hətta təsadüfi məğlub olmanı da bağışlamaq mümkündür. Bəşəriyyət bu hissə qarşı nə üçün belə barışmazdır? Cavabı aydındır: insanların bir-birinə inamı olmadan birgə iş, fəaliyyət mümkün deyildir. Xəyanət, yeri gələndə, hətta bir xalqın taleyini belə həll edir. Qonşunun qonşuya xəyanəti də çətin bağışlana bilər. Ailə içərisindəki xəyanət isə daha dəhşətlidir. Ona görə də bu dünyaya göz açan gündən uşaqlara xəyanət hissi yad olmalıdır.

Azərbaycanlı ailələr üçün ər-arvadın sərxoşluğa qurşanması da səciyyəvi hal deyildir. Papiros çəkməyə və içməyə meylə xüsusən qadınlar arasında çox nadir hallarda rast gəlmək mümkündür. Lakin bəzi kişilərin içkiyə həddindən artıq aludəçiliyi nəticəsində ailə dağılır. Bu zaman boşanmanın təşəbbüsçüsü, adətən, qadınlar olurlar. Onlar sərxoşluq kimi bir bəlanı ailə həyatı, uşaqların tərbiyəsi üçün normal şəraitlə bir araya sığmaz sanırlar.

Ailədə ər-arvad arasında ixtilaf doğuran səbəblərdən biri qısqanclıqdır. Həyatda elə şəxslər vardır ki, onlar təbiətən qısqancdırlar. Bəzən bu hiss belələrində heç bir əsas olmadan baş qaldırır və bunun üçün müəyyən bəhanə də lazım olmur. Səbəb onun daxili aləmində, təbiətindədir. Qısqanclıq üç şəkildə özünü büruzə verir: a) kişi və ya qadın azca qısqanır, sonra yanıldığını başa düşüb peşmançılıq hissi keçirir, zəifliyinə təəssüflənir; b) kişi və qadın son dərəcə özündən çıxır, danışığına,

hərəkətinə hədd qoymur; ) kişi və qadın yalnız özünə təsəlli verməklə kifayətlənir.

Ərin öz arvadına inanmaması və bunu nəinki ona, habelə uşaqlara, qohumlara, tanışlara, qonşulara və başqalarına hiss etdirməsi ailə faciəsidir.

Dramaturq Sabit Rəhmanın «Əliqulu evlənir» komediyasmda bu məsələ qoyulmuşdur. Rövşən Nazlıya: «..Sənin yad bir kişi ilə gülümsəyərək, bir dəfə danışmağın aylarla mənim yuxumu qaçırdır. Sən özünə bəzək - düzək verib gündə bir cür saçını darayanda, mənə şübhədən saçımı yoluram ...»

Yasəmən : «gözəl arvada əri qısqanar da» - deyəndə Nazlı ona haqlı etiraz edir: «Bir balaca qısqanmaq olar, sözüm yoxdur, məzə üçün. Yoxsa Rövşən kimi dəlilik eləmək? Mənə bir məktub gəlmişdi, nə bilim hansı axmaq yazmışdı? Belə gözəlsən, belə qəşəngsən ... İmza da qoymuşdu... Ə. Özündən çıxmadı? İdarədə Əhməd adlı bir oğlan var idi, düşdü onun üstünə. Xəcalətdən ayrı bir yerdə işə girdim. Orada da müdirin adı Əbdül imiş, dedi: yəqin qabaqcadan sözləşmişdiniz. Qərəz məni addım-addım təqib eləyirdi. Su içirdim, su satanla savaşırdı ki, niyə mənim arvadımın üzünə baxdın? Paltar tikdirirdim, dərzini hədələyirdi. Hətta cansız şeylərə, şkafa, divara, otağa da məni qısqanırdı».

Qadın qısqanclığı bəzən daha ifrat formalarda özünü göstərir. Fırıldaqçı falçılara inanan, evindən soyumuş əri üçün «cadu etdirən», «məhəbbət duası» yazdıran qadınlar hələ də aramızda vardır. Kişinin ciblərini axtaran, telefon nömrələrindən şübhələnən və telefon söhbətlərinə qulaq asan, tanış qadınların söz-söhbətinə inanıb evdə dava-dalaş salan qadın, özünə hörmət etmədiyini düşünürmü? O, bu yolla özünü tanışların, qohumların, uşaqların yanında yalnız gözdən salır.

Hər bir ailə özünün psixoloji xüsusiyyətlərinə və s. görə başqalarından fərqlənir. Bundan asılı olaraq eyni bir maddi və ya mənəvi-psixoloji səbəb müxtəlif ailələrin həyatında eyni şəkildə özünü göstərmir.

Ailə münaqişə şəraitini necə aradan qaldırmaq olar?

Mütəxəssislərin fikrincə, bunun üçün ilk növbədə ər-arvad münasibətləri mədəniyyətini, nigah mədəniyyətini, bir sözlə, ailə mədəniyyətini yüksəltmək lazımdır.

Ailə mədəniyyəti çox geniş anlayışdır. Hər bir gənc aydın dərk etməlidir ki, ailə mədəniyyəti bir-birinə hörmətdən, səmimi münasibətdən, qarşılıqlı etimaddan, bir-

birinin qayğısına qalmağı bacarmaqdan, fikir və hissləri qarşılıqh etimad tərzində bölüşdürmək, yeri gələndə, birini digərinə qarşılıqlı güzəştə getməyindən, ağıllı, təmkinli yaşayışdan yaranır. Ailə mədəniyyətində böyük-kiçik məsələ yoxdur... Özlüyündə kiçik sayılan məsələni böyütmək, ciddi münaqişə səviyyəsinə çatdırmaq, yaxud böyük münaqişələri səbr və təmkinlə həll etmək mümkündür. Buna görə cavanlar öz ailələrinin tamlığını qoruyub saxlamaq üçün ilk növbədə cəmiyyət qarşısında cıddı məsuliyyət daşıdıqlarnıı dərk etməlidirlər. Çünki nigahın əsasını məhəbbət hissi ilə borc və məsuliyyət hisslərinin vəhdəti təşkil edir.

Münaqişə ər-arvad həyatının dramasını ifadə edir, lakin o, ailə faciəsinə çevrilməməlidir. Bunun üçün ailə mədəniyyətinin tələblərinə əməl etmək lazımdır. Onların ən sadələri aşağıdakılardan ibarətdir: vuruşub barışmaqdansa, artıq-əksik danışıb bir-birini təhqir edəndən sonra mübahisəni kəsməkdənsə, necə deyərlər, «başını yarıb ətəyinə qoz tökməkdənsə», münaqişəyə başlamamaq daha asandır.

Uşaqların yanında mübahisə açmamaq, açıq söhbət üçün münasib vaxt tapmaq, səmimi olmaq, həyat yoldaşının etiraz və iradlarını diqqətlə qulaq asmaq, onun bütün «dəlil-sübutlarını» aydınlaşdırmaq, mübahisəli məsələləri ağıllı surətdə həll etmək, həmişə xeyirxah mövqe tutmaq vacibdir. Bugün sosioloqlar və psixoloqlar ailə ixtilafları məsələlərindən danışarkən diqqətli hətta «küsmək (dalaşmaq) mədəniyyətinin» əhəmiyyətinə cəlb edirlər.

Ailədə baş vermiş xırda məsələləri unutmaq, yaddan çıxarmaq zəruridir. Münaqişə baş verdikdə, çalışmaq lazımdır ki, ər-arvad bir-birinə həyat yoldaşı, övladının atası və anası kimi hörmət etsin, insanlıq ləyaqəti və nüfuzu ilə hesablaşması, xırdalanıb kiçilməsin, həmişə cəmiyyətin, ailənin və uşaqların mənafeyini nəzərə alsın. Bu, əsl insan hünəridir.

Barışmağı öyrənmək lazımdır. Onun da öz vaxtı vardır. Bunun üçün küsüb bir tərəfə oturmaq deyil, ailənin ümumi qayğılarına qoşulmaq. Bəzi sözləri uşağın adından demək (oğlum, indi anan çay dəmləyəcək, içərik), özünün günahkar olduğunu birinci etiraf etməyə çalışmaq, bir neçə gündən sonra narazılığın köklərini sakit şəraitdə araşdırmaq lazımdır.

Ər yaxud arvad mübahisəli məsələləri aydınlaşdırarkən səsini yüksəltməməli,

əksinə, ixtilaf dərinləşdikcə sözünü sakit, yumşaq və nəzakətlə çatdırmalıdır.

Münaqişə dairəsini genişləndirməmək məsləhətdir. Ər-arvad «dərdini» dost və tanışlarına, rəfiqələrinə, qohumlarına mümkün qədər danışmamalıdır.Ancaq zəruri hallarda məsləhət üçün onlara müraciət etmək olar.Bəzi qadınlar və kişilər evin bütün söz-söhbətini müxtəlif ünvanlara aparır, öz həyat yoldaşını və ya qaynanasını ələ salır, onlar haqqında pis sözlər danışırlar. Atalar deyiblər ki, yoldaşını göstər, deyim sən kimsən? Bu sözlərdə böyük hikmət gizlənmişdir. Başqalarının yanında öz qadınını uşaqların anasını pisləyən ər əslində özünün kimliyini göstərir. Eləcə də qadın «Ailə insana nə üçün lazımdır?» - sualının mənasını qəribə də görünsə, bizə aydındır. Ailə xoşbəxt olmaq və uşaqlar tərbiyə etmək üçündür.

Ailəsiz xoşbəxtlik yoxdur, ola da bilməz. Statistika çox maraqlı bir qanuna-uyğunluq müəyyən etmişdir. Evli kişilər və qadınlar subaylara nisbətən daha çox yaşayır, az xəstələnirlər. Məsələn, 35-44 yaşlarında evli kişilərə nisbətən subaylar arasında ölənlərin miqdarı 2,5 , dul kişilər arasmda 3,2 , boşanmış kişilər arasında 2,8 dəfə çoxdur. Həmin yaş dövründə evli qadınlara nisbətən subay qadınlar içərisində ölənlərin miqdarı təxminən 2, dul qadınlar içərisində 1,8 dəfə, boşanmış qadınlar içərisində 1,9 dəfə çoxdur.

Ailədə əlverişli psixoloji iqlim öz-özünə əmələ gəlmir. O, cəmiyyət qarşısında, ailəsi - həyat yoldaşı və uşaqları qarşısında məsuliyyət və borcunu düzgün başa düşən ağıllı, həssas ər və arvadın, ata və ananın gündəlik səyi ilə yaranır. Bu baxımdan onlar öz ailə dramının nəinki müəllifləri, həm də aktyorlarıdır. Ər və arvad, ata və ana özlərinin müdrik və nəcib insan olduqlarını bu ailə rolları vasitəsilə göstərməlidirlər.

Gəlin-qayınana münasibətləri ailə həyatı, xüsusən də əksər Azərbaycan ailələri üçün böyük aktuallıq kəsb edir.Bu münasibətlər ilk baxışda sadə görünsə də, əslində çox mürəkkəb, yozulmaz və təhlili çətin bir məsələdir.

Ailənin mənəvi həyatında qaynana və qayınata, bəy və gəlinin digər qohumları mühüm rol oynayır. Onlar nəinki ər və arvadın münasibətlərində rol oynayır, hətta ər-arvad münaqişəsinə də təsir göstərirlər. Bəzən elə olur ki, gənc ailənin taleyində əhəmiyyətli dərəcədə dönüş yaradırlar.

Ətrafımızda oğlunu evləndirən, qızını ərə verən, övlad toyuna həvəslə hazırlaşan

gələcək qaynanaların şadlığını, fərəhini çox görmüşük. Qayınata da sevinir, ancaq təmkinli görünməyə çalışır. Demək, hamı -qayınata da, qayınana da, gəlin də, bəy də bu günü gözləyirmiş. Nəhayət hamının arzusu yerinə yetir. Toy olıır. Toy bitdikdən sonra isə həyatın adi, toysuz günləri başlayır. Toylar bir-birinə bənzəsə də , ailələrin toysuz günləri bir-birinə heç də bənzəmir. Ailə içərisində yeni ailə yaranır. Bayaqdan yalnız anaya məxsus olan oğul, indi eyni zamanda gəlinə də məxsus olur. Bayaqdan yalnız anasını sevən oğul, indi gənc arvadını da sevməli olur. Bayaqdan oğul məhəbbətini şəriksiz qəbul etməyə alışmış ana gəlinin bu məhəbbətə şərik çıxmasına dözə biləcəkmi?

Ailə ərlə arvadın ittifaqından başlasa da, onun əsasını, məzmununu övladlar və onların tərbiyəsi təşkil edir. Bir-birini sevən iki adamın qovuşması böyük xoş-bəxtlikdir, lakin bu hələ tam ailə deyil. Tam ailə övladlar meydana gələndən sonra başlayır.

Uşaq ailənin abu-havasını dəyişir. Uşaq ajləyə sevinc və həyəcan gətirir, rahatlıq və narahatlıq gətirir. İndiyədək yalnız bir-birini sevən, bir-birinin qayğısı ilə məşğul olanların sevgisi indi tamam yeni bir istiqamətə yönəlməli olur. İndi kişi üçün qadın yalnız həyat yoldaşı deyil, eyni zamanda onun övladlarının anasıdır. İndi qadın üçün kişi yalnız ər deyil, eyni zamanda onun əziz balalarının atasıdır. Ər-arvad münasi-bətləri hiss edilmədən dəyişir, yeni məzmun, yeni keyfiyyət kəsb edir. Özlərini psixoloji, mənəvi və fıziki cəhətdən valideyn olmağa hazırlayan ər-arvad uşaq meydana gələndə çaşbaş olmur, bir sıra çətinlikləri səbirlə dəf edə bilirlər.

Gənc nəslin tərbiyəsi ailənin başlıca funksiyalarından biridir, valideynlərin isə ən mühüm vəzifələrindəndir. Uşaqların tərbiyəsində ailə münasibətlərinin roluna xüsusi diqqət yetirilməlidir. Ailədə böyüməklə olan nəslin tərbiyə edilməsi pro-sesində də valideynlərin istifadə etdikləri ən yetişdirmək isə ən müqqədd, ən böyük, ən çətin və həyat boyu davam etdirilməsi lazım olan ən mühüm, ən əhəmiyyətli sənətdir.İngilis və Amerikalı elm adamlarının apardıqları tədqiqatlara görə konkliktli ailədə böyüyən uşaqların zəkası normal şəraitdə, normal ailədə böyüyən uşaqların zəka səviyyəsindən 8 bal aşağı olur. Mütəxəsislər zəka səviyyəsindəki 8 ballıq fərqin ,bir uşağın yaşıdlarından boyca 6 santimetr qısa olmasına gətirib çıxardığını

bildirmişlər. Tədqiqatçılar konfiliktli ailədə böyüyən uşaqlarda stressin artdığını, bunun da beynin inkişafına mənfı təsir etdiyini qeyd etmişlər.

Konfliktli ailələrdə böyüyən uşaqların mənəvi zorakılığa məruz qalmasını gizlədən "Mənim uşağım mənim əşyamdır" şüarı altında gedən qovğalar xüsusi bir mövzudur. Əksər halda o ciddi tərbiyə pərdəsi altında gizlədilir. Onun psixoloji kökləri isə həmin şeylərdir: belə valideynlər insanı dəyərlərini hiss etmirlər bunlarda uşaqların üzərində tamamlanır. Təcrübə sübut edir ki, ərlə - arvad boşanmaya yaxın, hələ ondanda əvvəl, demək olar ki, bir - birinə yaxın insanlar deyillər. Onların hər biri özünü tənha və dağıdılmış həyatlarını yaşayırlar. Belə ailələrdə ən böyük zərbəni uşaqlar alır. Belə ailələr də uşaq emosional oyanıqlı, şıltaq, əsəbi, ağlağan, qorxaq, əksərən - aqresiv, nevroz, səbirsiz olurlar. Valideynlər öz ailələrindəki həqiqi vəziyyəti gizlətməməli və boşanmaq qərarına gələndə belə uşaqları məlumatlandırmalıdırlar. Çünki belə hallar gizlədildikdə uşaqlar bunu hiss edir o da uşağa ağır gəlir, daha ağırı isə valideynlərin onu ailədaxili həyatından uzaqlaşdırmasıdır, guya ki, bunların ona dəxli yoxdur. Bəzən valideynlər maskalanır, rola girirlər. Uşaqlar bunu sezdikdə bu, ona daha pis təsir edir. Boşanma halları meydana gəldikdə belə valideynlər ilk növbədə uşaqlara bildirməlidirlər ki, onların ayrı - ayrı yerlərdə yaşamalarına baxmayaraq, onların hər ikisi uşaqlarını sevir, uşaqlar onların hər ikisinə məxsus olmaqları davam edir. Demək olar ki, əksər hallarda hər iki valideyn boşanmada özünü deyil, digərini günahlandırır. Digər valideynin pis olmasına uşaqlarını əmin edən valideynlər ən böyük səhvə yol vermiş olurlar. Uşaqlar üçün valideynlərinin pis olmasına əminlik ən böyük faciədir.

Konfliktli ailədə böyüyən uşaqların aldığı psixoloji zərbə gələcək həyatında əvəzsiz rol oynayır. Belə uşaqlar yaşadıqlarına nisbətən öznəinamsız, qorxaq, əsəbi, aqressiv, nevroz olur. Onlar öznügünahlandırmaya və öznəqapanmaya, depresiyaya meylli olurlar.

## 2.2. Gənc ailələrdə sosial konfliktlərin ailə-nikah münasibətlərinə təsirinin eksperimental tədqiqi

Gənc ailələrdə sosial konfliktlərin ailə-nikah münasibətlərinə təsirini müəyyənləşdirmək üçün ilk növbədə nikah və boşanmalar haqqında məsələlərin qanun tərəfindən tənzimlənən problemlərini diqqət mərkəzinə gətirmək zəruridir.

Məlumdur ki, nikah və boşanmalar haqqında məlumatlar Ədliyyə Nazirliyinin Qeydiyyat şöbələri tərəfindən tərtib edilən nikahın bağlanması və pozulması haqqında müvafiq aktlarda olan məlumatların statistik cəhətdən işlənib hazırlanması nəticəsində əldə edilir. Azərbaycanda ailə qurmaq üçün qanunla müəyyənləşdirilmiş minimum yaş həddi kişilərdə 18, qadınlarda isə 17 yaşdır. Nikah tarixi Ədliyyə Nazirliyinin Qeydiyyat şöbələri tərəfindən qeydiyyatdan keçmə tarixi hesab edilir. Nikahın pozulması qeydiyyatdan keçirildiyi andan pozulmuş hesab edilir.

Nikah - kişi və qadının bir-birinə və uşaqlara qarşı hüquq və vəzifələrini müəyyənləşdirən münasibət formasıdır. Ər və arvad arasında hüquqi münasibət, onların nikahlarının Ədliyyə Nazirliyinin Qeydiyyat şöbələrində qeyd etdirilməsidir.

Əhalinin təbii hərəkətinin cari statistikası yalnız hüquqi cəhətdən qeyd olunmuş nikahları nəzərə alır. Əhalinin siyahıyaalınmasında isə rəsmi qeydə alınıb-alınmamasından asılı olmayaraq, faktiki nikahda olanlar da hesaba alınır.

Nikahın ümumi əmsalı – qeydə alınmış nikahların sayının əhalinin orta illik sayına olan nisbətidir, əhalinin hər 1000 nəfərinə uyğun hesablanır.

Boşanma (nikahın pozulması) – birlikdə yaşayan ər-arvadın nikahlarının son hüquqi ləğvi tərəflərə təkrar nikaha daxil olmaq hüququ verir. Nikahın pozulma faktı Ədliyyə Nazirliyinin Qeydiyyat şöbələrində qeydiyyata alındıqdan sonra pozulmuş hesab olunur.

Boşanmanın ümumi əmsalı – göstərilən dövr ərzində boşanma saylarının həmin dövr ərzində əhalinin orta illik sayına nisbətidir. Əhalinin hər 1000 nəfərinə uyğun hesablanır.

Bildiyimiz kimi müasir dövrdə boşanmaların sayı artmaqda davam edir. Xüsusilədə gənc ailələrdə bu prosesi və boşanmaya gətirib çıxaran səbəbləri

aydınlaşdırmaq üçün bir sıra məqamlara diqqət yetirək.

Tədqiqatçılar gənc ailələrdə boşanmalara və ailənin dağılmasına gətirib çıxaran sosial kofliktləri 3 qrupa ayırmağı məqsədəuyğun hesab edirlər:

1) Maddi – məişət problemləri;

2) Şəxsi münaqişələr;

3) Xarici təsirlər.

Maddi-məişət problemləri ailənin yaşayış tərzi ilə bağlı meydana çıxan müxtəlif çətinlikləri özündə əks etdirir. Yaşayış şəraitinin ağırlığı, tərəf müqabillərindən birinin ailə təsərrüfatını idarə etmək istəməməsi və ya bunu bacarmaması, maddi təminatın olmaması və digər müvafiq problemlər ailələrin dağılmasına səbəb olan mənfi amillərdən sayılır. Belə problemlərin davamlı xarakter alması ağır maddi-mənəvi sıxıntılar doğurur.

Bu vəziyyət son nəticədə ailədə ciddi fikir ayrılığının və kəskin münaqişələrin yaranmasına, ailənin ciddi böhran yaşamasına səbəb olur. Bəziləri bu böhrandan çıxış yolu taparaq ailə həyatını məcrasına qaytarmağa nail olsalar da, digərləri öz həyat yoldaşından ayrılmağı üstün tuturlar.

Bir çox hallarda şəxsi münaqişələr də ailələrin dağılmasında həlledici təsirə malik olur. Öncə qeyd edildiyi kimi, ilkin sevgi hissinin itirilməsi, həyata fərqli baxışlar, kobudluq, qısqanclıq, şübhələr, inamsızlıq zəminində yaranan şəxsi ziddiyyətlər ailə həyatına olduqca mənfi təsir göstərir. Kobudluq, saymamazlıq və hörmətsizlik sadalanan amillər sırasında aparıcı yer tutur. Və bu amillər də nəticədə ailədə qarşılıqlı laqeydliyə, yadlaşmaya gətirib çıxarır.

Qadınlar, adətən, həyat yoldaşları ailəyə soyuq yanaşdıqda, içkiyə qurşandıqda, narkotik vasitələrə aludə olduqda, bu və ya digər səbəblərdən ailə məsuliyyətini daşımaq iqtidarında olmadıqda boşanmaya əl atırlar. Belə hallarda qadının ailədə zorakılığa məruz qalması, şəxsi ləyaqət hissinin tərəf müqabili tərəfindən alçaldılması onu bu addımı atmağa vadar edir.

Kişilərin qadınların kobud və məsuliyyətsiz davranışına münasibəti isə tamam fərqli məzmuna malikdir. Hər bir kişi bunu özünə qarşı olan hörmətsizlik, inamsızlıq, saymazlıq kimi dəyərləndirir. Burada xarakterlərin toqquşması amili də özünəməxsus

rol oynayır. Bu amil kişilər üçün daha böyük əhəmiyyət kəsb edir. Çünki xarakterlərindən asıllı olmayaraq, ailədə tərəf müqabilinin onunla hesablaşması hər bir kişi üçün başlıca şərtdir.

Gənc ailənin dağılmasına təsir edən xarici amillərə gəldikdə, burada xəyanət, tərəf müqabillərindən birinin həyat yoldaşına emosional-hissi münasibətinin dəyişməsi və ya yeni ailə qurmaq təşəbbüsü, valideynlərin, bir sıra kənar şəxslərin ailə həyatına müdaxilə etməsi xüsusi yer tutur.

Bir qayda olaraq, tərəf müqabillərindən birinin öz həyat yoldaşına xəyanət etməsi onların münasibətlərində olan natamamlığı, gizli yadlaşma meylini aşkara çıxarır. Tədqiqatçılar gənc ailədə xəyanətin laqeydlik, inciklik və peşmançılıq hissini qüvvətləndirdiyini xüsusi vurğulayırlar. Ailədə xəyanətə uğrayanlar gec-tez bundan xəbər tuturlar və bu zaman dərin emosional-psixoloji sarsıntı keçirirlər. Istər qadının, istərsə də kişinin xəyanəti ailədə dərin böhrana, qarşılıqlı inam hissinin itməsinə, ailənin dağılmaq təhlükəsi ilə üz-üzə qalmasına səbəb olur.

Bütövlükdə valideynlərin gənclərin ailə həyatına bəzən kobud müdaxiləsi çox zaman mənfi fəsadlarla müşayiət olunur. Bu müdaxilə mənfi kənar təsirlə tamamlandıqda ailələrin mövcudluğu təhlükə qarşısında qalır. Bəzən gənc ailələrin ayaq tutub yeriyə bilməməsinin, başqa sözlə, həyatın ilkin sınaqlarından çıxmamasının günahkarı məhz valideynlər olur.

Şəxsi ailə həyatının pozulmasına ayrı-ayrı insanların münasibəti fərqli olur. Hər kəs bu böhranı özünəməxsus şəkildə yaşayır. Ailə həyatı ilə bağlı ümidlərin puç olması, həyat yoldaşında onun arzulamadığı , dözülməz hesab etdiyi bir çox keyfiyyətlərin ortaya çıxması hər kəs üçün ağırdır. Bu zaman insanın üzləşdiyi ruhi-mənəvi böhran, sanki onun həyatını dondurur.

Ailədə yaranan böhran nəticəsində özünü yalqız və kimsəsiz hiss edən insan böyük ümidsizliyə qapılır, gərginlik, yorğunluq, özünə, yaxın ətrafa, əməyə qarşı biganəlik bir müddət onun həyat tərzinə çevrilir. Bu zaman dağılan ailələrdə uşaq-ların üzləşdiyi çətinlikləri və problemləri də yaddan çıxarmaq lazım deyil. Belə ki, ayrıldıqdan sonra keçmiş tərəf müqabilləri arasında uzun müddət davam edən açıq və gizli münaqişə vəziyyəti yaranır. Bu, bir tərəfdən uşaqlara diqqəti və qayğını həddən

artıq zəiflədir, digər tərəfdən isə onların anormal inkişafına səbəb olur.

Ümmumiyyətlə son on ildə boşanmalar və gənc ailələrdə ailənin dağılmasına gətirib çıxaran amiləri müəyyən etmək üçün ilk növbədə biz statistik məlumatlara istinad etməyi məqsədəuyğun hesab etdik.

Rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsalları

(Şəhər yerləri üzrə) (mənbə Statistika komitsəinini elektron ünvanı)

Cədvəl 3.1

| | Nikahların sayı | Boşanmaların sayı | Əhalinin hər 1000 nəfərinə | |
|---|---|---|---|---|
| | | | nikahların sayı | boşanmaların sayı |
| Şəhər yerləri üzrə - cəmi | | | | |
| 2000 | 19994 | 4332 | 4,9 | 1,1 |
| 2001 | 22927 | 4341 | 5,6 | 1,1 |
| 2002 | 22438 | 4726 | 5,4 | 1,1 |
| 2003 | 26935 | 5555 | 6,4 | 1,3 |
| 2004 | 30873 | 5606 | 7,1 | 1,3 |
| 2005 | 35593 | 6864 | 8,1 | 1,6 |
| 2006 | 39345 | 5841 | 8,8 | 1,3 |
| 2007 | 41814 | 6093 | 9,2 | 1,3 |
| 2008 | 40996 | 5820 | 8,9 | 1,3 |
| 2009 | 40708 | 5765 | 8,7 | 1,2 |
| 2010 | 41592 | 6753 | 8,8 | 1,4 |

Şəhər yerləri üzrə rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsallarına nəzər saldıqda görürük ki, son on ildə boşanmaların sayı dinamik olaraq artmaqda davam edir. Əgər 2000-ci ilə şəhər yerləri üzrə rəsmi qeydə alınmış nikahların sayı 19994 –dürsə, boşanmaların sayı 4332 –dir. Bu onu göstərir ki, normal cəmiyyət üçün bu hədd olduqca yüksəkdir. Demək olar ki, nikah bağlayanların 21,6 %-i boşanmaya məruz qalmışdır. Təbbi ki, statistik baxımdan boşanmaların səbəbləri göstərilməsə də, onun ümumi səbəblər üzündən baş verdiyini söyləmək olar. Burada təbii ki, sosial-psixoloji və sosial-iqtisadi amillərlə yanaşı, ailədə uyuşma problemi də diqqət mərəkzinə gətirilməlidir.

Qeyd olunmalıdır ki, mürəkkəb sosial-iqtisadi şəraitdə gənclər özlərinin ailə haqqında təsəvvürlərini bir qədər ideallaşdırırlar. Onlar yalnız ailə qurmaq, uşaq dünyaya gətirmək haqqında düşünmür, həm də özünüə məxsus ev-eşiyə, zəngin həyat

tərzinə malik olmağa, ailəyə daha yaxşı uyğunlaşmağa çalışırlar və ya bunu arzu edirlər.

Rəyi soruşulanların əksəriyəti belə qənaətdədir ki, onların ailə qurmamışdan qabaq təsəvvürləri, aildə qurduqdan sonra gördükləri ilə uzlaşmır və ya arzularının həyata keçmədiyni düşünürlər. Bununla yanaşı şəhər yerlərində boşanmaların əsas mərkəzi elementi və ya səbəbi zəruri olan məişət problemlərinin vaxtında həll olunmamasıdır. Rəyi soruşulanların 65 %-i bunu təsdiq edir.

Şəhər yerləri üzrə rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsallarına nəzər saldıqda görürük ki, 2000-ci illə 2010-cu ilin müqayisəsi göstərir ki, əgər 2000-ci ildə şəhər yerləri üzrə rəsmi qeydə alınmış nikahların sayı 19994 – dürsə, boşanmaların sayı 4332, 2010-cu ildə nikahların sayı 41592, boşanmalarını sayı isə 6753 olmuşdur. Bu onu göstərir ki, 2000-ci illə müqayisədə boşanmaların sayı 1,4 dəfədən çox artmışdır. Əlbəttə, biz bunu təbi amillərlə izah edə bilrik. Amma 2000-ci illə müqayisədə əhalinin gəlirləri artmış və sosial-iqisadi vəziyyət əvvəlki dövrlərlə müqayisə ediləcək səviyyədə yüksəlmişdir. Deməli sosial-iqtisadi amillərin rolu boşanma faktlarında bir o qədər də yüksək deyildir. Yalnız psixoloji və sosial-psixoloji amillərin daha öndə getməsi məsələsi burada aktuallaşır.

Rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsalları

(kənd yerləri üzrə) (mənbə Statistika komitəsinin elektron ünvanı)

Cədvəl 3.2

| İllər | Nikahların sayı | Boşanmaların sayı | Əhalinin hər 1000 nəfərinə | |
|---|---|---|---|---|
| | | | nikahların sayı | boşanmaların sayı |
| Kənd yerləri üzrə - cəmi | | | | |
| 2000 | 19617 | 1146 | 5,0 | 0,3 |
| 2001 | 18934 | 1041 | 4,8 | 0,3 |
| 2002 | 19223 | 1012 | 4,9 | 0,3 |
| 2003 | 29156 | 1116 | 7,4 | 0,3 |
| 2004 | 31304 | 1308 | 7,9 | 0,3 |
| 2005 | 36050 | 2031 | 9,1 | 0,5 |
| 2006 | 40098 | 1976 | 10,0 | 0,5 |
| 2007 | 39944 | 2247 | 9,8 | 0,6 |
| 2008 | 38968 | 2113 | 9,5 | 0,5 |
| 2009 | 37364 | 2019 | 9,0 | 0,5 |
| 2010 | 37580 | 2308 | 9,0 | 0,6 |

Bir məsələni də xüsusi vurğulamaq istərdik ki, faktlar göstəir ki, gənc ailələrdə boşanmaların sayının azaldılması üçün həyata keçirilən tədbirlər, onların dostları və qohumları tərəfindən qınanması və s. kimi cəhdlər buna kömək etmir. Şəhər yerlərində boşanmaların statistikası kənd yerlərinə nisbətən yüksəkdir.

Kənd yerləri üzrə rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsallarına nəzər saldıqda görurük ki, son on ildə boşanmaların sayı şəhərlər üzrə olduğu kimi artmaqda davam edir. Əgər 2000-ci ilə kənd yerləri üzrə rəsmi qeydə alınmış nikahların sayı 19617 olmuşsa, boşanmaların sayı 1146 olmuşdur. Deməк olar ki, nikah quranların 5,9 %- boşanmaya məruz qalmışdır. Statsitika göstərir ki, kənd yerləri üzrə boşanmaların sayı 2000-ci ildə şəhərə nisbətən aşağıdır. Bunun başlıca səbəblərindən biri kimi kənd yerlərində hələ də ailənin milli mentalitet üzərində qurulduğunu söyləmək mümkündür və boşanmaların sayının azlığı bu amillə izah edilə bilər. Yerdə qalan 5,9 %-in isə təbii ki, ailədaxili münasbətlərlə və ya sosial-iqtisadi, psixoloji amillərlə izaha edə bilərik.

Kənd yerləri üzrə rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsallarına 2000-ci illə 2010-cu ilin müqayisəsi göstərir ki, əgər 2000-ci ildə şəhər yerləri üzrə rəsmi qeydə alınmış nikahların sayı 19617, boşanmaların sayı 1146 olmuşsa, 2010-cu ildə nikahların sayı 37580, boşanmaların sayı isə 2308 olmuşdur. Bu onu göstərir ki, 2000-ci illə müqayisədə boşanmaların sayı 2 dəfədən çox artmışdır. Əlbəttə, bu amil boşanmaların sayının artamsını təsdiqləyən faktdır. Amma bununla belə kənd yerləri üzrə boşanmaların statistikasının şəhərə nisbətən çox az olduğu görünür.

Şəhər yerlərində boşanmaların statistikası kənd yerlərinə nisbətən yüksəkdir və bu əks əlaqəni sübut etməyə imkan verir. Yəni şəhər yerlərində boşanma daha yüksəkdir.

Bir məqama da diqqəti yönəltmək istəyirik ki, Milli Məclisin sosial siyasət komissiyasının açıqlamasına əsasən, Azərbaycanda boşanmaların sayı 2 dəfə artıb. Ölkəmiz üzrə ailə məsələləri ilə bağlı statistika ürəkaçan faktlar vəd etmir. Belə ki, Qeydiyyat və Notariat Baş İdarəsinin Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinin məlumatında göstərilir ki, 2011-ci ilin 6 ayı ərzində Azərbaycanda 39 803

nikah bağlanıb. Bu ilin birinci yarısında Azərbaycanda əcnəbi və vətəndaşlığı olmayanlarla 792 nikah bağlanıb. İlin ilk yarısında ölkədə 5335 nikahın pozulma halı qeydə alınıb. Onlardan 19-u əcnəbilər və vətəndaşlığı olmayanlarla olan nikahlara aiddir.

Məlumatda göstərilir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə nikahların və boşanmaların sayında artım qeydə alınıb. Belə ki, 2010-cu ilin ilk 6 ayında ölkədə 32 681 nikah bağlanıb, əcnəbilər və vətəndaşlığı olmayanlarla nikahların sayı isə 773 təşkil edib. Ötən ilin birinci yarısında ölkədə 4276 nikahın pozulma halı qeydə alınıb. Ötən ilin müvafiq dövründə əcnəbilərlə və vətəndaşlığı olmayanlarla pozulan nikahların sayında isə azalma müşahidə olunub. Belə ki, keçən ilin müvafiq dövründə əcnəbi və vətəndaşlığı olmayanlarla 41 nikahın pozulması halı qeydə alınıb.

Göründüyü kimi ailədə baş verən boşanmalar adətən gənc ailərədə özünü göstərir. Bəs görəsən bunun səbəbi nədədir?

Rəyi soruşulanlar müxtəlif səbəblər göstərirlər: kimisi bunu ailəyə kənardan edilən müdaxilə, kimisi yeni qurulan ailənin təcrübəsizliyi, səbirli olmaması, hər bir məsələnin həllində tələsik qərar qəbul etməsi ilə, kimisi iqtisadi çətinliklərlə və s. izah edir. Getdikcə dərinləşən münasibətlər isə sonunda ailənin dağılmasına gətirib çıxarır.

Repodentlər boşanma hadisələrini ən qlobal problem kimi dəyərləndirirlər. Rəyi soruşulan insanlar boşanma hadisələrinin səbəbləri, faktlara yanaşma kimi əsasən sosial, məişət problemləri, iqtisadi çətinliklər, tərəflərin bir-birini anlamaması və s. səbəblər göstərilir. Ən əsası, isə sadə insanların göstərdikləri səbəblər statistik məlumatların ürək açmayan mənzərəsi ilə üst-üstə düşür. Məlumdur ki, ictimai rəy ailənin muxtariyyətinin qorunması vəzifəsini ilk növbədə onun üzvlərinin üzərinə qoyur. Azərbaycanın ta qədimdən özünəməxsus ailə modeli mövcuddur. Həmişə də ailə quruluşunun müqəddəsliyinə, toxunulmazlığına çalışılıb. Heç şübhəsiz, müasir Azərbaycan əhalisinin əksəriyyəti üçün bu gün də ailə əsas dayaq rolunu oynayan dəyərdir. Ailə ocağını insan üçün malik olduqlarının ən vacib və qiymətlisi hesab edənlər təbii ki, onu kənar neqativ təsir və təhlükələrdən qorumağa çalışırlar. Belə ki, ailə üzvləri problemləri evdən kənara çıxarmamalı və ailədaxili işlərə kənar şəxsləri

cəlb etməməli, xırda məsələləri dərinləşdirməməlidirlər və s.

Bu gün boşanma statistikasının gün-gündən böyüyən rəqəmlərinə istinad edən bəzi adamlar Qərb adətlərindən yararlanmağı da tövsiyə edirlər. Amma Qərblə Şərq arasında ailəyə münasibətdə olduğu kimi, boşanmanın əsaslanması ilə yanaşı, statistik göstəricilərin də fəlakətli olduğunu xatırlasaq, bu cür tövsiyələrin əsassız olduğuna hamı inanar.

Dünyaya inteqrasiyadan danışdığımız vaxtda Qərbin bütün adətlərini kor-koranə mənimsəməyimiz yanlışlıq olardı. Məsələn, "boy- friend" (oğlan dostu) və "girl-friend" (qız dostu) kimi anlayışların mövcud olduğu Qərb ölkələrində gənclər nikah bağlamadan illərlə bir yerdə yaşayır və əlaqələri yalnız uşaq dünyaya gətirmək istəyi olanda rəsmiləşdirirlər. O zamana qədər isə onlar bir-birlərini sınaqdan keçirir, sosial problemlərini həll edir, ayaqüstə duruş gətirməyi öyrənirlər. Bir-birlərinə uyğun gəlməyəndə isə ayrılırlar. Əzəldən rəsmi əlaqələri olmadığından onlar boşanma statistikasına da düşmürlər. Sadəcə iki dost kimi bir müddət bir yerdə yaşayır, sonra da yollarını ayırırlar.

Apardığımız tədqiqat göstərdi ki, hazırda gənclər üçün işsizlik, maaşların az olması, ev almaq perspektivinin yoxluğu və s. istər-istəməz ailədaxili gərginliyə səbəb olur. Boşanmaların bünövrəsi əsasən bu səbəblərdir .

Rəyi soruşulanların 72 %-i ailədaxili zorakılığın, kişilərin zərərli vərdişlərə meyilliliyini, qadınların öz hüquqlarından xəbərsiz olmaları və hüquqlarını tələb edə bilmədikləri, valideynlərin müdaxiləsi və s. də ailələrin dağılmasına səbəb olan amillər kimi diqqət mərkəzinə gətirmişlər.

Rəyi soruşulanların 12%-i son dönəmlərdə ailənin dağılması faktı kimi cinsi uyğunsuzluğu da qeyd edib. Onlara görə, tək-tük hallarda boşanmanın konkret səbəbi olur. Belə ki, məhkəmədə konkret olaraq bir səbəb göstərilir, amma reallıqda bir neçə səbəb üst-üstə düşdüyündən son nəticə barədə qərar əldə edilir. Digər 16%-i gənc ailələrdə boşanmanın səbbələrini göstərməkdə çətinlik çəkmişlər.

Hesab edirir ki, boşanma hadisəsinə bütövlükdə mənfi hal kimi yanaşmaq metodoloji baxımdan düzgün deyildir. Belə ki, bir sıra hallarda boşanma şans kimi dəyərləndirilməlidir. İnsanlar bir-birləri ilə bir yerdə yaşaya bilmirlərsə, onda

boşanma məişət zorakılığına məruz qalan qadınlara şans verir ki, həyatını təzədən başlasın. Bir yazını diqqət mərkəzinə gətirmək istəyirik: «Heç olmasa uşaqlar əzab çəkməsinlər". Boşanma, ailələrin dağılması bütün hallarda faciədir. Ailənin, onu quran insanların faciəsi. Bu ailələrdə dünyaya gələn uşaqların faciəsi.

Psixoloqlar ayrılıq və boşanma hadisələrindən sonra ailə modelində ən böyük zərbənin uşaqlara dəyməsi qənaətindədirlər. Uşaqlar geriyə dönüb baxarkən xatırladıqları ata-anaları arasında xəbər daşıyıcısı olmaları, ata-analarının dava-dalaşları, miskin bir vəziyyətdə təhlükəsizlik axtarışı ilə küncə sıxılmaları olur. Bir də onlar qarşı cinsdən olan biriylə necə səmimi davranacaqlarını bilmirlər. Ailə dramları onların həyat dramlarına çevrilir. Bəlkə valideynlər öz faciələrindən savayı, onların təmiz yaddaşlarını və qəlblərini də yaralamamağı düşünsələr.

Apardığımız tədqiqatı aktuallaşdıran əsas cəhətlərdən biri də son 10 ildə bu sahədə, yəni gənc ailələrdə sosial konfliktlərin, o cümlədən boşanmanın səbələrini ayırd etməyə yönəlmiş tədqiqatların olduqca az olması və pedaqoji-psixoloji baxımdan boşanmanın səbəblərinin müəyyən edilməməsidir. Bu sahəyə həsr olunmuş son tədqiqatlar demək olar ki, gənc ailələrdə sosial konfliktlərin, o cümlədən boşanmanın ümumi məsələlərini araşdırmış, rəsmi statsitikaya müraciət etmədən problemə yanaşılmışdır. Bununla yanaşı bu tədqiqatlar pilotaj xarakterli tədqiqatlar olmuşdur.

Aparılmış tədqiqatların nəticələri və statistika göstərir ki, rəyi soruşulanların əkəsriyyəti boşanma üçün ailədaxili münasibətləri xüsusi ilə də qaynana-gəlin, qaynata-gəlin, gəlin-baldız və digər ailə üzvləri ilə neqativ münasibətlərini əsas götürmüşlər. Onlar rəyi soruşulanların 45%-ni təşkil edir. Digər səbəblərdən, məsələn, məişət problemlərinin həll olunmamasından qaynaqlanan problemləri olanların 25%-i boşanmanın məhz bu səbəbdən baş verdiyini göstərmişdir. Aşağı gəlirlərin olması səbəbindən boşananların sayının 30% olması da diqqəti çəkən məsələlərdən biridir.

Bununla yanaşı rəyi soruşulanların əksəriyyətinin boşanmada motivasiya imkanları müəyyənləşdirilməmiş qalır. Çünki bu motivasiyanı boşananların özü də başa düşmür. Boşanma vəziyyətini təhlil edərkən burada sosial-psixoloji iqlimlə bağlı

olan bir sıra subyektiv səbəblərin olduğu da müəyyənləşdi. Buraya: ailəyə xəyanət, psixoloji və fiziki zorakılıq, spirtli içkilərdən və narkotiklərdən istifadə, gənclərin ailə həyatından gözləmələri ilə yanaşı real ailə həyatı arasındakı ziddiyətlər, bir-birinə dözümsüzlük göstərmək, ünsüyyətdə bir-birini başa düşməmək, ünsüyyət çatışmazlığı, məhəbbətin olmaması və s. daxil etmək olar. Lakin biz tədqiqatımızda ən zəruri olan və boşanma üçün əhəmiyyətli səbəb kimi çıxış edən amilləri əsas götürməyə çalışmışıq.

Baxmayaraq ki, son dövrlərdə pedaqoji və demoqrafik ədəbiyyatlarda Azərbaycan aillərində boşanmaların və böhranların səbəbləri geniş təhlil olunsa da, pedaqoji-psixoloji baxımdan problem geniş diapozonda tədqiq olunmamışdır. Eləcə də, boşanmaların regional səbəbləri lazımi qədər diqqət mərkəzinə gətirilməmişdir.

Tədqiqat bir neçə mərhələdə aparılmışdır. Emprik tədqiqatın birinci mərəhələsində boşanma haqqında şəhadətnamə almış insanlarla formal anket sorğusu keçirilmişdir. Rəyə soruşulanların ümumi sayı 200 nəfər olmuşdur.

Onlardan 62,5% - qadınlar, 37,5% - kişilər; 40% - aəzəri türkü, 28% - ləzgi, 20% - talış, 12-i isə başqa etnoslar olmuşdur. Rəyi soruşulanların yaş çivarı aşağıdakı kimi götürülmüşdür: 21-25 yaş - 20,2%, 26-30 yaş - 30,8%, 31-35 yaş - 23%, 36-40 yaş - 26%. İlkin tədqiqat qiyabi sorğu vasitəsilə keçirilmişdir. Lakin kütləvi sorğu ailələrin problemlərini tam şəkildə ayır etməyə təbii ki, imkan vermədi. Ailənin boşanmasına təsir göstərən amillərin daha incə detallarına varmaq üçün tədqiqatın ikinci mərhələsində boşanmanı yaşamış insalarla intrevyu keçirtdik. Bu sorğu birincini demək olar ki, tamamladı. Burada biz boşanmanın sosial portiretini yaratmağa çalışdıq. Məlumdur ki, boşanama hər şeydən əvvəl gənc ailələrin problemləridir.

Statistik məlumatlar göstərir ki, nikahın davametmə müddətinə görə 5 ildən 20-ilə kimi 9061 boşanma qeydə alınmışdır. Bunların əksəriyyəti, yəni 3482 boşanma halı 5 ilə qədər birgə yaşamış ailələrdir. 2047 boşanam halı 5-9 ilə kimi, 2345 boşanam halı 10-19 ilə kimi və 1187 boşanma halı isə 20 ildən yuxarı birgə yaşamış ailərdir.

2010-cu ildə nikahın davametmə müddəti və boşananların göstəriciləri ( mənbə Statistika komitəsinin elektron ünvanı)

Cədvəl 3.3

| | Boşanmaların sayı | Nikahın davametmə müddətinə görə (il) | | | |
|---|---|---|---|---|---|
| | | 5 ilə qədər | 5-9 il | 10-19 il | 20 il və yuxarı |
| | | | | | |
| | 9061 | 3482 | 2047 | 2345 | 1187 |
| Kişilər | | | | | |
| 18 yaşadək | 1 | 1 | - | - | - |
| 18 | 1 | 1 | - | - | - |
| 19 | 8 | 8 | - | - | - |
| 20-24 | 470 | 441 | 29 | - | - |
| 25-29 | 1684 | 1294 | 376 | 14 | - |
| 30-34 | 2105 | 985 | 799 | 321 | - |
| 35-39 | 1603 | 371 | 483 | 739 | 10 |
| 40-44 | 1279 | 170 | 211 | 740 | 158 |
| 45-49 | 860 | 100 | 75 | 319 | 366 |
| 50-54 | 558 | 58 | 40 | 124 | 336 |
| 55-59 | 266 | 22 | 17 | 45 | 182 |
| 60 və yuxarı yaşda | 226 | 31 | 17 | 43 | 135 |
| Qadınlar | | | | | |
| Cəmi | 9061 | 3482 | 2047 | 2345 | 1187 |
| o cümlədən: | | | | | |
| 18 yaşadək | 10 | 10 | - | - | - |
| 18 | 34 | 34 | - | - | - |
| 19 | 61 | 61 | - | - | - |
| 20-24 | 1252 | 1093 | 159 | - | - |
| 25-29 | 2104 | 1233 | 780 | 91 | - |
| 30-34 | 1840 | 566 | 634 | 640 | - |
| 35-39 | 1349 | 226 | 256 | 822 | 45 |
| 40-44 | 1059 | 139 | 119 | 483 | 318 |
| 45-49 | 636 | 67 | 58 | 162 | 349 |
| 50-54 | 429 | 34 | 22 | 97 | 276 |
| 55-59 | 166 | 8 | 14 | 25 | 119 |
| 60 və yuxarı yaşda | 121 | 11 | 5 | 25 | 80 |

Apardığımız tədqiqatda rəyi soruşulanların 46,6%-i 5 ilədək artıq birgə yaşayan ailələr olduğu, onlardan bir ildən az birgə ailə həyatını yaşayanların sayı 9,7%, demək olar ki, rəyi soruşulanların hər dörd nəfərindən biri 23% - i 5 ildən 10 ilə kimi, 12,7% - i 10 ildən 15 ilə kimi, 9,3% -i 15ildən 20 ilə kimi, 8,2% -i 20 ildən artıq birgə

yaşayış şəraitində olan ailələrdir.

Rəyi soruşulanların 45%-i – keçmiş 30 yaşa qədər ailəli olmuş, onlardan 18,7% -i isə 25 yaşına qədər birgə yaşamışlar . Rəyi soruşulanların yarıdan çoxu 48,5%-nin bir uşağı olumuş, 27,1 % - nin iki, 4,6% - üç və daha artıq uşağı olmuşdur. Rəyi soruşulanların 19,7% -nin uşaqları olmamışdır.

Rəyi soruşulanlarını əkəsriyyəti 74,7%-i boşanmaya qədər elə də çətinliklər xüsusilə də paltar və qida problemləri oldmadığı vurğulanmışdır. Onlaradan 36,5% özlərinə uzunmüddət istifadə etmək üçün zəruri olan malların alınmasında çətinlik çəkməmişlər, 7,4% - i bahalı əşyalara malik olduqlarını, 8,6% -ində isə maddi çətinliklərin olduğu, 16,7% - ində isə geyim tələbatının ödənməsi qeyd olunmuşdur.

Boşanmaya məruz qalmış aillərin təhsil səviyyəsi də diqqəti çəkmişdir: boşa-nanlardan 39,7% - ali təhsilə, 34,4% - orta ixtisas təhsilinə, 13,4% - orta təhsilə, 9,4% - isə natamam təhsilə malik olmuşlar 2,6% - orta natamam təhsil, 0,7% - isə elmi dərəcəyə malik olmuşdur. Tədqiaqat göstərdi ki, boşanmaların fərqli təzahürləri daha çox xasiyyətimiz tutmadı aforizmi üzərində qurulub. Buradan belə qənatə gəlmək olar ki, ailənin dağılmasının subyektiv motivasiyası boşanmaının problematikasını aydınlaşdırmağa imkan verir. Resopodentlərə boşanmanını səbəblərini müəyyən etmək üçün bir neçə sualla müraciət etdik.

Birinci sualın məzmunu belə idi: «Sizcə ailənizdə boşanmaya səbəb olan amil hansıdır?». Bu sualı cavablandıran resopodentələrin 32% -i bir-birlərini başa düşə bilməmələrini, ailədaxili münasibətlərin gərginliyini, ümümui maraqların olmamasını və s. göstərmişlər. Burada ikinci yeri cütlüklərdən birinə inamın olmaması, ailəyə xəyanət və s.tutmuşdur.

Rəyi soruşulanların 25% -i boşanmaya bu amillərin səbəb olduğunu vurğu-lamışlar. Boşanmaya səbəb olan amillərdən üçüncü yerdə 7%-narkomaniya və alkolqolizm durur. Dördünücü yerdə valideynlərin onların ailə həyatına müdaxiləsi-23%, madii çətinliklər 17, 5%, yaşayış şəraitinin olmaması 7, 5 % təşkil edir.

Məna baxımından verilmiş informasiyaları təhlil etsək görərik ki,subyektivlik baxımından ailəninin boşanmasına səbəb daha çox ailənin bir-birini başa düşməməsi, ümumi maraqların olmamasıdır. Dəgər amillər də burada müəyyən rola malikdir.

Lakin bununla belə faiz baxımından boşanmanın baş verməsinə gətirib çıxaran əsasən subyektiv və psixoloji amillərdir.

Tədqiqat zaman bir sıra maraqlı faktlar da üzə çıxdı. Belə ki, boşanmanın yaş xüsusiyyətlərini müəyyən edərkən gənclərdə boşanmaya gətirib çıxaran amillər bir qədər yaşlı dövrdə boşanmaya gətirib çıxaran amillərdən fərqlidir. Gənclərdə ailənin dağılmasına səbəb məişət problemləridirsə, 26 yaşadan başlayaraq cütliüklər arasında boşanmaya gətirib çıxaran amillər cütlüklərin bir-birini başa düşməmsidir. Bu amil 26 yaşdan başlayaraq dominatlıq təşkil edir. Bunu aşağıdakı cədvəl 3.4-də daha aydın görmək mümkündür.

Yaşa görə boşanmaların göstəriciləri (%-lə ifadəsi)

Cədvəl 3.4.

| resopo-dent-lərin yaşı | Cütlük-lərin bir-birini başa düşmə-məsi | Maddi çətin-liklər | Utandırıcı məişət şəraiti | Xəyanət | Valideynlərin ailənin işinə qarışması | Alko-qolizm | Fiziki zorakılıq | Narkotik asılılıq | Hərhansı səbəbdən uşağın olmamsı | Druqoe |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 21 - 25 | 39,7 | 28 | 15,4 | 27,1 | 22,4 | 22,9 | 10,7 | 2,8 | 2,8 | 2,9 |
| 26 - 30 | 40,2 | 21,2 | 14,1 | 23,9 | 18,7 | 19,9 | 11,8 | 1,6 | 5,9 | 2,6 |
| 31 - 35 | 37,8 | 15,4 | 9,8 | 28 | 17,9 | 21,1 | 11 | 2,4 | 1,6 | 5,2 |
| 36 - 40 | 38,7 | 22 | 14,3 | 30,4 | 8,4 | 26,8 | 10,7 | 0,6 | 2,4 | 5,4 |
| 41 - 45 | 46,7 | 6,5 | 4,7 | 28 | 6,1 | 28 | 8,4 | 0,9 | 3,6 | 1,8 |
| 46 - 50 | 24,7 | 17,3 | 9,9 | 27,2 | 14,8 | 33,3 | 13,6 | 0 | 2,5 | 6,1 |
| 51 - 55 | 33,3 | 6,7 | 2,2 | 28,9 | 8,9 | 26,7 | 15,6 | 0 | 0 | 13,3 |
| 56 - 60 | 60 | 5 | 5 | 10 | 25 | 15 | 5 | 0 | 0 | 5 |
| cəmi | | | | | | | | | | 0 |
| | | | | | | | | | | |

Rəyi soruşulanlarla aparılımış söhbət göstərdi ki, nikahın birinci ilində onların təlabatını ödəməyən maddi çatışmazlıqlar, xüsusəndə pul çatmır və bu konfliktin yaranmasına gətirib çıxarar. Təbii ki, bütün konfliktlər boşanmaya gətirib çıxarmır. Bir gənc özünün boşanmadan əvvəliki vəziyyətini belə təsvir edir: "Yaşadığımız birinci ildə maddi çətinlik dözülməz idi. Mən tələbə idim və həyat yoldaşımın pulu ilə yaşayırdıq. O həmişə mənim başıma bunu qaxınc edərdi ki, bəs mənim pulumla yaşayırıq. Sən necə kişisən?. (kişi 27 yaş, birgə nigahda 5 il olmuşdur). "Məni həmişə

pulun çatmaması əsəbləşdirirdi. Evdə yeməyə adi şeylər belə çatmırdı. O isə axırıncı pula içki alardı, uşağın yeməyi olmadığı halda belə onu ailə marqlandırmazdı (qadın, 28 yaş, birgə nikahda 2 il yaşamışdır).

Cədvəl 3.4-dən görünür ki, valideynlərin gənc ailənin münasibətlərinə nüfuz etməsi boşanmada mühüm amillərdən biri kimi özünü göstərir. Bu amil daha çox gənc ailələrdə dominatlıq kəsb edir. Ailənin strukturunun möhkəmlənməməsi onun bir sıra təzyiqlərə davam gətirə bilməməsinə səbəb olur.

Ailədə ərin alkoqolizmə qurşanması və fiziki zorakılıq da bir sıra hallarda konfliktlərə gətirib çıxarır və boşanma üçün zəmin yradır. Bu o ailələr üçün xarakterikdir ki, həmin ailələr uzun müddət birgə yaşamışlar. Müəyyən yaşdan sonra, məsələn 40 yaşdan sonra bu amillər ailənəin dağılmasında aparıcı faktora çevrilir.

Tədqiqat zamanı ailə mütəxsissələrinin fikirlərinə görə fiziki zorakılıq daha çox gənc olmayan ailələrdə problemlər yaradır və boşanmaya gətirib çıxarır.

Rəyi soruşlan kişilərin və qadınların fikrincə boşanmanın başlıca səbəblərindən biri onların bir-birini anlamamsı və ya bir yerdə yola getməmələridir ( kişilər 25 %, qadınlar isə 32 %). Ailənin maddi vəziyyətinin boşanmanın səbəbi kimi 18, 5 % kişilər, 19 %-isə qadınlar göstərmişlər.

Digər səbəbləri xarakterizə etdikdə görünür ki, üçüncü yerdə narkotik asılılıq və ya alkoqolizm durur (16,6 % qadınlar, 10, 6%-isə kişilər). İearxiyada dördüncü yerdə qadına və ya kişiyə inamsızılıq durur. Uyğun olaraq qadınların 15,5 %-i hesab edirlər ki, kişilər onları başqaları ilə dəyişirlər, kişilərin isə 5,5%-i hesab edirələr ki, qadınlar onları sevmirlər və boşanmanın əsas səbəbi kimi bunu diqqət mərkəzinə gətirirlər.

Boşanma haqqında umumi fikirlər boşanmamış ailərin fikirləri ilə üst-üstə düşmür. Belə ki, «Siz necə düşünürsünüz, hansı səbəbədən ailələr dağılır» sualına rəyi soruşulanlardan 46,7 %-i hesab edir ki, ailənin dağılmasının başlıca səbəbi madii çətinlik və ya ailənin tam şəkildə təmin olunmamasıdır. Bunun aşağıdakı sırada aydın görə bilərik:

- Maddi çətinliklər- 31, 4%
- Utandırıcı məişət şəraiti- 14, 7 %
- Ailəyə xəyanət - 7.8 %

- Valideynlərin ailənin işəinə qarışması- 27,9 %
- Ailənin bir-birini başa düşməməsi – 42, 5 %

Buradan belə qənatə gəlmək olar ki, iki əsas amil Azərbaycan ailəsi üçün boşanmanı yaradan digər amillərdən dominatlıq təşkil edir. Birincisi maddi çətinlik, ikincisi valdiyenlərin ailənin münasibətlərinə nüfuz etməsi.

Görəsən boşanmanın günahkarı kimdir? Apardığımız tədqiqat göstərdi ki, boşanmanın əsas təşəbbüskarları qadınlardır. Belə ki, rəyi soruşulanların 53,1%-nin təşəbbüskarları qadınlar olduğunu, 26,1%, -inin kişilər, 19,9%-i isə suala cavab verməkdə çətinlik çəkdiklərini söyləmişlər.

Tədqiqat zamanı bir maraqlı fakt da ayıdın oldu ki, əgər boşanmanın səbəbkarı kişidirsə, o zaman ailədə boşanmanın səbəbi kimi ailənin bir-birini başa düşməməsi göstərilir. Əgər ailənin dağılmasında təşəbbüskar qadındırsa, o zaman boşanmanın səbəbi kimi ailənin maddi təminatının aşağı olması, ailənin gəlirlərinin az və ya heç olmaması və s .kimi amillər göstərilir. Bunu aşağıdakı cədvəl 3.5-dən aydın şəkildə görə bilərik.

Boşanmanın əsas səbəblərinin cütlüklərin təşəbbüsündən asılılığının göstəriciləri (%-lə ifadə)

Cədvəl 3.5.

| Boşanmanın əsas səbəbləri | Kişinin təşəbbüsü | Qadının təşəbbüsü |
|---|---|---|
| Cütlüklərin bir-birini başa düşməməsi | 39,5 | 42,8 |
| Maddi amil (maddi çətinliklər, yaşayış şəraitinin dözülməzliyi) | 25,8 | 32,5 |
| Valideynlərin gənclərin münasibətlərinə nüfuz etməsi | 22,9 | 16,1 |
| Ailə üzvlərinin xəyanəti | 7,5 | 12,5 |
| Narkotikdən və alkoqoldan istifadə | 3,8 | 6,2 |

Rəyi soruşlanların 34,7%-i ailə konfliktində hər iki cütlüyün rolunu vurğulayır və boşanmada tək bir tərəfi ya qadını və ya kişini günahlandırmağı məqbul saymır.

Respodentlərin 29,6%-i hesab edir ki, ailədə sosial konfliktlərin yaranmasında və boşanmada daha çox kişilər günahkardır. Rəyi soruşulanların 14,6% vəziyyəti günahkar sayır, yalnız 8,4%-i qadınların boşanma üçün zəmin yaratdıqlarını

vurğulayırlar.

Ailənin dağılmasında kişinin və qadının rolunu əsas sayan resopodentlərin qənatincə burda boşanma faktorlarının paylanma dərəcələri müxtəlifdir. Belə ki, ailənin dağılmasında hər iki cütlüyün günahının olması bir başa kişinin və ya qadının hər hansı psixoloji xüsusiyyətlərinin və ya xarakter əlamətlərinin uyğunsuzluğunu özündə ehtiva etmir. Burada ailənin dağılmasıda başlıca rol «vəziyyət», ailənin maddi vəziyyəti və ya ailədaxili münasibətlərin uyğunsuzluğu dliqqət mərkəzinə gəlir.

Bir maraqlı cəhəti də qeyd etmək istəyirik ki, Azərbaycan ailələrində ailənin dağılmasının səbəbkarı kişi olduqda ilk nöbədə onun spirtli içki içməsi, ailəyə baxmaması və ya evə qazanac gətirməmsi nəzərdə tutulur.

Qadınların isə ailənin dağılmasında rolunun ön plana çəkilməsi daha çox onun uşaqlara və ya ailə başçısına qayğının olmaması, məişətdə onun üzərinə düşən vəzifələrin yerinə yetirilməməsi və sonda mentalitetə zidd kimi qiymətləndirilir, qadının ailəyə xəyanəti diqqət mərkəzinə gəlir.

Bununla yanaşı qeyd etmək yerinə düşərdi ki, statistika göstərir ki, hər on boşanma hallarından biri zorakılıq faktı ilə bağlıdır. Əgər boşananda qadın günahkardırsa, o zaman valideynlərin ailəyə nüfuz dərəcəsi, qadının onları yola verməməsi, ailənin bir-birini başa düşməməsi, dünyagörüşün uyğun olmaması və s. daha çox vurğulanır.

Ailənin maddi vəziyyətinin onun konfliktli olmasına və boşanmaya zəmin yaratmasına heç kim şübhə etmir. Faktlar göstərir ki, aşağı gəlirli ailələrdə boşanma halları kişinin alkoqola qurşanması, qadının isə daha yaxşı həyat axtarışına çıxması amili ilə izah oluna bilər.

Apardığımız tədqiqat göstərdi ki, ailədə kimin pulu daha çox xərcləməsi məsələsi də sosial-psixoloji konflikt yaradır və boşanmaya gətirib çıxarar ( məsələn sən özünə hər paltar almısan, mənimsə heç nəyim yoxdur). Əksinə daha təmin olunmuş ailələrdə bu faktor özünün göstərməsə də digər amillər daha qabarıq özünü təqdim edir. Məsələn, xarakterin uyğunsuzluğu, münasibətlərdə anlaşılmazlıq, ümümi maraqların olmaması və s.

Belə qənaətə gəlmək olar ki, ailənin maddi təminatı boşanma hallarının

qarşısını almır, lakin bununla yanaşı ailənin təmin olunması cütlüklərin səbirli olmasına səbəb olur və konfliktlər elə də tez-tez baş vermir. Amma bununla belə bir sıra amillər bu aillərdə də boşanmanı zərurətə çevirir. Əgər ailə üzvlərindən heç biri komporomisə getmirsə boşanma qaçılmaz olur.

Boşanmanın səbəblərinin bu cür paylanmasını iki vəziyyətlə şərh etmək olar. Birincisi, maddi təlabatların ödənməsi digər təlabatları aktuallaşdırır. Çörək problemi həll olunubsa, şəxsiyyətlərarası münasibətlərdə uyğunsuzluq, ümumui maraqların olmaması və s. ortaya çıxır. Ailənin maddi vəziyyətinin yaxşı olduğu respodentlərdən bir gənc qadın özünün vəziyyətini belə təsvir edir: «Mən onun məni sevməsini sınamaq üçün çıxıb getdim və düşünürdüm ki, o mənim dalımca gələcək. Ancaq o gəlmədi. Bir aydan sonra o mənə zəng etdi və boşanmağı tələb etdi. Sonra aydın oldu ki, onun başqa qadını var və mənim getməyim onun ürəyincə olub».

«Kim günahkardır» amilinə görə boşanmaların səbəbləri

(respodentlərin sayı %-lə göstərilmişdir)

Cədvəl 3.6.

| Boşanmanını əsas səbəbləri | Günahkardır | | | |
|---|---|---|---|---|
| | Vəziyyət | Kişi | Qadın | Hər ikisi |
| Cütlüklərin bir-birini başa düşməməsi | 32,7 | 14,4 | 22,1 | 30,4 |
| Maddi amil (maddi çətinlik, yaşayış şəraitinin yaxışı olmaması) | 23,4 | 13,8 | 16,6 | 19,3 |
| Xəyanət | 10,9 | 21,4 | 26,2 | 15,2 |
| Cütlüklərin birinin narktoikə və ya alkoqola meyilliyi | 8,5 | 24,7 | 12,4 | 9,1 |
| Valideynlərin münasibətlərə nüfuzu | 10,9 | 7,8 | 15,2 | 14,5 |
| Fiziki zorakılıq | 5,2 | 10,9 | 0 | 5,1 |

İkincisi, faktlar göstərdi ki, maddi təminatlı ailələrdə boşanmaya zəmin yaradan əsas səbəblərdən biri psixoloji səbəbdir. Yəni maddi təminatlı ailələrdə eqosentrik fərdiləşmə baş verir ki, bu da ailədə kimin hökmranlıq etməsi uğurunda mübarizəyə gətirib çıxarır.

Bir məsələni də qeyd etmək istəyirəm ki, müasir dövrdə monoqam ailələrdə bacısız və qardaşsız böyüyən gənclərin hər hansı kompromisə getməməsi, başqalarına güzəşt etməməsi halları müşahaidə olunur ki, bu da boşanmaların sayına təsir

göstərir. Onlarla aparılımış sorğular göstərir ki, əgər ailədə maddi çətinliklər ifrat səviyyədədirsə cütlüklər boşanmaya getmirlər. Baxmayaraq ki, belə ailələrdə konfliktlər olduqca çox olur və öz taleləri ilə barışırlar. Bir qadın qeyd edir: «Mən ailədən cana doymuşdum. Getmək istəyirdirm. Amma hara gedim. Getməyə yer yox idi. İki uşaqla heç bir yaxınımız bizə baxmadı. Əgər anam yaxında olsaydı, bəlkə də kömək edərdi. Amma o yaxında deyil. Ona görə də taleimlə barışmışam.

Müştərək ev almış və məişət əşyalarına malik cütlüklərin boşanması çətin olur. Burada süründürməçilik və s. boaşanmanı yubadır.

Ümumiyyətlə, ailədə maddi çətinlik ( müyyən əşyaların alınması üçün pulun çatışmaması, üzücü yaşayış şəraiti, qadının kişidən maddi asılılığı və s.) bəzi ziddiyyətləri özündə əks etdirir. Bu bir tərəfdən ailədə boşanmanı çətinləşdirir. Ona görə ki, ümumui yaşayış sahəsi vardır, uşaqların təminatı üçün bir-birindən asılılıq vardır, qadın kişidən maddi cəhətdən asılıdır və s. kimi faktlar boşanmanı çətinləşdirir (müvəqqəti olsa da) və ailənin qorunub saxlanmasında əhəmiyyətli amil kimi özünü göstərir. Belə nikahlarda boşanma haqqında uzunmüddətli müzakirələr aparılır və əksər hallarda ailə dağılmır.

Başqa bir tərəfdən isə maddi çətinlik başlıca olaraq ailə həyatının uğurlu davam etməsini çətinləşdirir, eləcə də onların boşandığı şəraitdə belə ayrı-ayrılıqda yaşamanı problemlərlə yükləyir.

Bir sıra amillərin xüsusilə də zorakılıq və valideynlərin ailə münasibətlərinə nüfuz etdiyi ailərdə daha çox çəkilməz və ya həll edilməz problemə çevrilir. Belə hallarda əziyyəti uşaqlar çəkir və onlar daha çox psixoloji travmalara məruz qalırlar. Belə konfliktli şəraitdə həyatın davam etməsi çox hallarda ailənin mövcudluğu yalnız kağız üzərində qalır, hər bir valideyn ayrı-ayrılıqda öz həyatını yaşayır.

Hesab edirik ki, bu amil daha çox uşaqların gələcək həyatına zərbə vurur, onların sosiallaşmasının qarşısını alır və ya onu ləngidir. Faktlar göstərir ki, ümumi uşaqların olması ailənin boşanmaya məruz qalmamasına bir sıra hallarda mane olur.

Apardığımız tədqiqat göstərdi ki, rəyi soruşulanların demək olar ki, yarısı bir uşaqlı ailələrdir (49,5%), dörddə biri 27,1%-i ikiuşaqlı ailərdir və hər dörd ailənin uşağı yoxdur. Bu tədqiqat göstərir ki, uşaqların olması cütlükləri bir-birinə dözümlü

edir. Buradan belə qənatə gəlmək olar ki, uşaqlar ailənin daha möhkəm edir və onun monolitliyinin qorunub saxlanmasına və onun emosional möhkəmliyinə ciddi təsir göstərir.

Bütün bunlarla yanaşı uşağın olmaması səbəbindən də boşanmalar rəyi soruşlanların yalnız 3,5%-ni təşkl edir. Faktlar göstərir ki, Azərbaycan ailələrində uşaq olduqca zəruri amil kimi qəbul edilməsinə baxmayaraq uşağın olmadığı şəkildə belə boşanmaların sayı olduqca azadır və başqa amillərlə müqayisədə nisbətən aşağı tempə malikdir.

Bir qadının qeydlərini diqqət mərkəzinə gətirmək istəyirik: «Qaynanam hər gün deyinirdi ki, sizin uşağınız yoxdur. Yəqin ki, səndəndir. Oğlum isə sağlamdır. Məncə belə şəraitdə yaşamaq olduqca çətindir və mən boşanmaya qərar verdim.

Apardığımız tədqiqat göstərdi ki, nikahın uzunömürlülüyünə uşaqların sayı hərtərəfli təsir göstərir. Boşanmaya məruz qalmış ailələrin 50 %-nin uşağı olmamış, 32,5 %-nin bir uşağı olmuşdur. Birinci halda nikah 2 ilə qədər, ikinci halda isə nikahın davametmə müddəti 5 ilə yaxın olmuşdur.

Ailənin qorunub saxlanması hər bir cəmiyyətin ümdə məsələlərindən və vəzifələrindən biridir. Bu ölkənin demoqrafik inkişafı üçün əsaslı amildir.

Təbii ki, ailə-nikahın birinci 5 ilinə qədər gənc ailənin uşaq dünyaya gəlməsi üçün potensial imkanları çox böyükdür. Bu potensialdan hər ölkə istifadə etməli, hər vəhcələ ailədə uşağın dünyaya gəlməsini stimullaşdırmalıdır. Çünki uşaqların mövcudluğu ailənin boşanmasının qarşısını alan və ya onu ləngidən əsas amillərdən biridir.

Bir məsələni də qeyd etmək lazımıdır ki, ailənin dağılmasının əksər hallarda qadının reproduktiv davranışı ilə izah etməyə çalışırlar. Çünki o kişiyə nisbətən daha tez-tez təkrar nikaha daxil olur. Ona görə də ailənin qorunub saxlanması əhalinin inkişafının əsas resursudur və depopulyasiyanın aradan qaldırılmasının yeganə amillərindən biridir.

Azərbaycan ailələrində boşanma hallarının aradan qaldırılması üçün gənc ailələrin ailə –məişət problemləri dövlət səviyyəsində həll olunmalıdır. Çox zaman gənc ailə öz-özünün problemlərini həll edə bilmir, sosial təqdir olunmaya məruz qalır, nəticə isə acınacaqlı olur. Ailə dağılır. Bu amillər nəzərə alınmalı və ailədə

potensiala konflikt yarada biləcək amillərin aradan qaldırılmasına çalışılmalıdır. Ailə institutları bu işlərin öhdəsindən vaxtında gəlməlidirlər. Çünki müəyyən vaxtdan sonra onların təsiri heç nəyə yaramır.

Müxtəlif müddətdə birgə yaşamış ailərdə uşaqların sayı( %-lə)

Cədvəl 3.7.

| Birgə yaşayan ailələr | 1 uşaq | 2uşaq | 3 uşaq | 4 uşaq | 5 və artıq uşaq | Uşaqlar yoxdur | cəmi |
|---|---|---|---|---|---|---|---|
| 1yaşdan artıq | 29,6 | 0,2 | 0,1 | 0 | 0 | 70 | 100 |
| 1yaşdan 5 yaşa kimi | 64 | 8 | 1 | 1 | 1 | 26 | 100 |
| 5 yaşdan 10 yaşa kimi | 55 | 32 | 2 | 0,5 | 0 | 10 | 100 |
| 10yaşdan 15 yaşa kimi | 41 | 46 | 7 | 1 | 0 | 4 | 100 |
| 15 yaşdan 20 yaşa kimi | 26 | 60 | 20 | 1 | 0 | 3 | 100 |

Təbii ki, boşanmaya təsir göstərən digər amillərlə yanaşı alternativ ailə-nigah münasibətlərinin də rolu böyükdür. Boşanmaların sayının artması ancaq ailə istitutunun böhranın təzahürünün göstərsə də, alternativ ailə-nigah münasibətlərinin artmasına bir işarədir və depopulyasiya meylərinin artmasının göstəricisidir. Bu isə çətin uşaqların, küçə uşaqlarının sayının artmasına və dolayısı yolla cinayətkarlığın artmasına gətirib çıxarır.

Nigah yönəlişliyi də ailənin dağılmasına təsir göstərən amillərdən biridir. Bu yönəlişliyin pozitiv istiqamətdə aparılması üçün ailə və məktəb də ciddi maarifləndirmə işləri aparmalı və uşaqların tərbiyəsinə diqqəti artırılmalıdır. Postmodernizm şəraitində ailəyə hazırlıq cəmiyyətin və insanların birincili problemlərindən və ya vəzifələrindən biri olmalıdır.

Fikirlərin liberallaşması, cəmiyyətin loyallığı və s. kimi amillər nikaha qədər birgə yaşayışı şərtləndirir və təbii ki, bu da cəmiyyətdə boşanma risklərini artırır, potensial konfliktlərin gerçəkləşməsi üçün zəmin hazırlayır.

Rəyi soruşulanların əksəriyyəti cəmiyyətdə alternativ nigahların olmasını vurğulasa da Azərbaycan ailələri üçün ənənəvi nigahın və ailənin əsas dəyərlərdən biri olduğunu vurğulamışlar. Belə ki, rəyi soruşulanların 73,2 %-i ailəni qoruyub saxlamağa cəhd göstərmişlər. Lakin bu zaman boşanma artıq vəziyyətdən çıxış yolu kimi qiymətləndirilmişdir.

Boşanmış ailələrin demək olar ki, 37,5%-i öz uşaqlarını ailə də böyütmək istəyində olduqlarını vurğulamış və boşanma üçün təəssüf hissi keçirdiklərini qeyd etmişlər.

Apardığımız tədqiqat göstərdi ki, Azərbayacan ailəsi üçün boşanmanın əsas səbəbi ailədaxaili münasibətlər və valideynlərin gənc ailərin işlərinə nüfuz etməsidir. Burada ailənin maddi təminatı da başlıca yerlərdən birini tutur. Qadının və kişinin özünütəsdiq edə bilməməsi də boşanma üçün neqativ amillərədlən biri hesab edilə bilər.

## 2.3.Ailədaxili konfliktlərin aradan qaldırılması yolları

Ailə cəmiyyətin kiçik vahidi olaraq qəbul edilir. Ailə deyili ümumiyyətlə bir evdə yaşayan ata-ana, varsa onların evlənməmiş uşaqları aydın olur. Hər bir ailə təkrar olunmazdır. Hər ailə quruluşunun gücləndirilməsi, ailədə uşaqların yaşadıqları mühitin keyfiyyətli və sağlam olması üçün ilk öncə hörmət, anlayış, sevgi, etibar və səbr gərəkdir. Təbii ki, evliliyin bir - iki ili bu problemlərin nisbətən həllə qovuşdurmağa cəhd göstərilən illəridir. Ailə başçılarının anlayış səviyyəsindən asılı olaraq, bu müddət uzanıb-qısala bilər. Konfliktlər əslində bir tərəfdən də ərlə-arvadın seçimlərinə nə ölçüdə hörmət etdiyini ortaya çıxarır.

Yuxarıdakı qeydlərə əsaslanaraq deyə bilərik ki, ailədə yaşanan və yaşanma ehtimalı olan bu konfliktlər əslində çox təbii və normaldır. Evliliyin əvvəlində olan konfliktləri bir patologiya olaraq görmək, evlilik haqqında əmələ gələn yanlış fikirdir. Çünki aid olduqları yerdən alınıb, tək bir vedrəyə tökülən soyuq və isti suyun müəyyən bir qarşılıqlı təsirdən sonra ortaq bir istiliyə qovuşması kimi, ərlə-arvad da evlilik butası içində ortaq bir anlayış və hiss birliyinə, ancaq bu konfliktlər nəticəsində çatarlar.

Təbii ki, bu faydalar konfliktlərin ədalətli və uyğun bir şəkildə həllə qovuşdurula bilməsi halında etibarlıdır. Bütün məsələ, konfliktlərin doğru şəkildə təhlil edilməsində düyünləşməsindədir. Problemli evliliklərdə isə ümumiyyətlə konfliktlərin həllə çata bilmədiyi və get-gedə evliliyin bir girdabın dairələri kimi kədərli sona doğru irəlilədiyi evliliklərdir. Problemlərin bir həllə qovuşdurulması isə əlbəttə bir

sıra şərtlərin yerinə yetirilməsi ilə bağlıdır.

Konfliktlərin sağlam bir şəkildə həll edildiyi bir ailədə ərlə-arvad bir-birilərini yaxşı tanıyar və duyğular qarşılıqlı olaraq hiss edilər və paylaşılar. Duyğu və düşüncələr olduğu kimi, yəni şişirdilmədən ortaya qoyular. Daim sükunət qorunar. Tərəflər özləri üçün əhəmiyyətli olan xüsusiyyətləri sərbəstcə ifadə edirlər. Problemlər indiki halı ilə, yəni heç bir köhnə situasiyaları, təcrübələri indiki konfliktlə əlaqələndirilməməlidir. Qətiyyətlə öyüd-nəsihət vermə kimi qarşı tərəfə səhv etdiyi və aydın olmadığı hissi yaşadacaq davranışlardan çəkinilər. İti şəkildə mühakimə etmək qarşı tərəfdə də döyüş mövqeyinə keçməsinə səbəb olacaq, belə nəticənin əldə olunmaması üçün bu davranış forması sərgilənməz. Mövzunun özü ilə mövzuya bağlı olmayan detallar bir-birindən ayırd edilər. Məsələn, ailə içində : Ər işdən evə gec gəldiyində, qadın ərinin evə nə qədər gecikdiyi deyil, niyə gecikdiyi, hətta niyyətinin nə olduğu üzərində dayanır. Konfliktin həllində, tərəflər müsbət bir davranış sərgiləyərək, bir-birilərini dinləməlidir. Məsələn: "O sussun, mən ona nə deyəcəyimi çox yaxşı bilirəm" şəklində təcavüzkar bir davranış forması sərgilənməz ya da qarşındakı insanın sözün kəsmək olmaz. Konflikt zamanı konflikti həll etmək istəyirlərsə, nə kişi nə də qadın tək özünün haqlı çıxmasına çalışmamalıdır, hər iki tərəfin üzərində razılaşa biləcəyi bir həllə yönəldilir. Məsələn: "Mən haqlıyam, sən səhv hərəkət etmisən " tərzində davranmaq qəti surətdə olmaz. Həllin hər iki tərəfin də qəbul edə biləcəyi, həqiqi və reallaşdırıla bilən ölçüdə diqqətə çarpan və balanslı olmasına diqqət yetirilər. Ümumiyyətlə ailədə stabil və sakit iqlim yaratmaq üçün "Sən" yerinə "Biz" , "Sən etməlisən" yerinə "Biz etməliyik" formasında ifadələrin istifadə edilməsinə diqqət yetirilməlidir.

Konfliktli ailələrdə uşağı tərbiyə edərkən ailədəki ata və ana ilk öncə özləri intizam qaydalarına riayət etməklə nümunə olmalıdırlar. İntizam-ailə içindəki tarazlıq və nizamın yaradılmasında böyük əhəmiyyət daşıyır.Ancaq intizam cəmiyyətimizdə əksərən "Cəzalandırma" ilə eyni mənada qiymətləndirilir. Hər nə qədər "Qatılıq" və "Sərtlik" mənasında işlənsə də həqiqi mənada cəzalandırma qədər mükafatlandırmağı da ehtiva edir və uşağın cəmiyyətə uyğunlaşmasını asanlaşdıran davranışın istiqamətləndirilməsini məqsəd qoyar. İntizam, uşağa istənilən davranış və vərdişləri

öyrədər, öz - özünə nəzarət etmə, ya da özünü tərbiyələndirmə inkişafını təmin edər. Intizam, əsaslı və elastik təməl qanunları ehtiva etməlidir. Sərt və təzyiqçi intizamlı davranışı yönləndirməyi qarşısına məqsəd qoyan ata - ana ; uşağı özlərinə qarşı qorxu, əsəb və hücumçu mövqedə olmasına səbəb olar, uşağa təcavüzkar olmağı və problemlərini zor yoluyla həll etməyi öyrədər və zəif vicdan, əxlaq inkişafına gətirib çıxarar. Araşdırmalar nəticəsində intizam üsulu olaraq mükafatlandırmanın cəza verməkdən daha təsirli olduğu müəyyən olunmuşdur. İntizam qaydaları uşağın başa düşdüyü bir şəkildə və yaşına uyğun olmalıdır.Qaydalar açıq olmalı və tətbiq oluna bilməlidir. Sevgi və şəfqət insanı tərbiyə edən könül oxşayıcı duyğulardır. Sevgi və təqdir insana qiymətli olduğu duyğusunu verər ; qiymətli olduğunu hiss edən insan da ətrafına dəyər verər.Pedaqoqlar bildirmişlər ki, uşaqların gələcəkdə müvəffəqiyyətli və yaxşı şəxsiyyət olması üçün sağlam təhsil yolunun inkişaf etdirilməsində uşağın şəxsiyyətinin qurulmasında əsas təməli uşaqlıq dövründə ailədə gördükləri qoyur.

Cəmiyyətimizdə günahkar doğulan uşaq yoxdur. Uşaq istənilən şəklə soxula biləcək bir oyun xəmiri kimidir.Uşağın şəkillənməsində təsirli olan ailə, uşaqda inkişafını istədiyi müsbət şəxsiyyyət xüsusiyyətlərini ancaq sağlam bir ailə mühitində təmin edə bilər.Sağlam bir ailə mühiti də uyğun bir ana-ata əlaqəsini tələb edir. Bu səbəblə prioritetli hədəf möhkəm və sağlam bir ailə qurulmasıdır.

Ailədəki konfliktlərin aradan qaldırılması yolları: l.Duyğu və düşüncələr, azaldılmadan və şişirdilmədən, olduğu kimi ortaya qoyulmalıdır.

2. Problemlər indiki məzmunda ələ alınmalı və köhnədən yaşanan problemlərin, işin içinə qarışdırılmamalıdır.

3. Qarşıdakı insanı məsləhət və nəsihət yağışına tutmamalı.

4. Konflikt zamanı qarşı tərəfi mühakimə etməməli.

5. Konflikt zamanı mövzunun özü ilə mövzuya aid olmayan detallar bir-birlərindən ayırd edilməlidir.

6.Konflikt zamanı hücum mövqeyində dayanmayın, yəni qarşıdakinin nə söylədiyini anladığınızdan tam əmin olmamış fikir yürütməyə çalışmayın.

7. Hərə özünü haqlı çıxarmaq yerinə, hər iki tərəfin də razılaşa biləcəyi bir həll yolu tapılmalıdır.

Müasir dövrdə ailədaxili problemlər xüsusi aktuallıq kəsb edən məsələdir. Ailə problemləri haqqında bir çox yanaşmalar mövcuddur. Müxtəlif sosial-iqtisadi, sosial-demoqrafik, sosial-psixoloji, pedaqoji və s. amillərlə əlaqədar olaraq ailədə köklü dəyişikliklər baş vermişdir.Ailə nigah münasibətlərində psixoloji amillərin rolu daha da artmışdır.

Ailə xidmətlərinin təşkilinin başlıca məqsədi, birinci növbədə, ailənin möhkəmlənməsinə, uğurlu ailə kimi inkişaf etməsinə kömək etməkdən ibarətdir. Sosial-psixoloji tədqiqatlar əsaslı surətdə göstərir ki, ailədaxili münasibətlərin psixoloji cəhətdən pozulması ailədə müxtəlif çətinliklər və konfliktlərə şərait yaradır.

V.Sisenkonun fikrincə, ailədə ər-arvad arasında hər hansı bir münaqişə maraqların, tələbatların, baxışların və təsəvvürlərin qarşı durmasıdır. Bu müddəadan çıxış edərək o göstərir ki, nigaha daxil olan qadınla kişinin hər biri özlüyündə potensial psixi zərbə amili kimi çıxış edir. İlk baxışda bu qənaətlə razılaşmaq çətindir. Adətən nigaha daxil olmaq qarşılıqlı məhəbbətə əsaslanır. Məhəbbət nədir? Hegelin klassik tərifinə, lap elə gündəlik həyat təcrübəsinə əsasən sevmək digər cinsə məhəbbət bəsləmək öz xoşbəxtliyini başqasının səadətində tapmaq deməkdir. A.S.Makarenkonun fikrincə, "İnsan cəmiyyətində cins tərbiyə fizioloji tərbiyə ola bilməz". Cinsi əlaqə bütün bəşəri mədəniyyət və nailiyyətlərindən, ictimai insanın həyat şəraitindən, tarixin humanizm yolunda estetikanın tələblərindən təcrid oluna bilməz. Əgər kişi yaxud qadın özünü cəmiyyətin bir üzvi olduğunu dərk etmirsə, əgər onlarda cəmiyyətin həyası, gözəlliyi və zəkası üçün məsuliyyət hissi yoxdursa, onlar necə sevə bilər? Onlarda özlərinə hörmət, özlərinin onları kişi yaxud qadının dəyərlərindən üstün bir dəyərə malik olmalarına inam haradan ola bilər? Bir halda ki, sevən sevdiyi qız (qadın) və ya oğlan (kişi) üçün göydən ulduz qoparmağa da hazırdır, bəs onda bu " psixi zərbə amili" haradan meydana çıxır?!

A.S.Makarenko sevgi hissi tərbiyəsinə xüsusi əhəmiyyət verirdi. O, yazırdı: "Cinsi tərbiyə məhz sevgi tərbiyəsi olmalıdır, yəni qadına qarşı böyük və dərin bir hiss, həyatın, ümidlərin və arzuların vəhdəti ilə bəzənmiş bir hissi tərbiyə etməkdən ibarət olmalıdır (41, s.15)".

L.M Pankova isə məhəbbəti üç mərhələyə bölür:

1) maraq, cazibə, simpatiya
2) ehtiras, vurğunluq, valehlik
3) səcdə, hörmət, sədaqət.

E. From isə məhəbbət münasibətlərini belə sıralayır:

a) sevgi

b) xarici görünüşə vurğunluq

c) münasibətlər əsasən cinsi meyllərlə qurulan Cinsi Sevgi.

S.V.Kovolyov hesab edirdi ki, işdə tanış olaraq qurulan ailələr sevərək qurulan ailələrdən möhkəm olur. O, belə bir nəticəyə gəlmişdir ki, sevgiyə ümid və hətta sevginin özü ailənin dağılmasına səbəb ola bilər.

Bədii ədəbiyyatın insan əzəməti və ləyaqəti haqqında yaratdığı ən böyük psixoloji himn məhəbbət himnidir. Məhəbbət əsl insan xoşbəxtliyinin meyarıdır. Lakin bununla belə, nigahların hamısının eyni dərəcədə məhəbbət əsasında yarandığını, bütün hallarda məhəbbətin qarşılıqlı xarakter daşıdığını söyləmək olmaz. Müəyyən mülahizə ilə bağlanan nigahlara heç də az təsadüf edilmir. Bir çox ailələr isə sadəcə olaraq təsadüfi tanışlıq əsasında yaranır. Boşanma hallarının artmasının əsas səbəblərindən birini görünür, məhz burada axtarmaq lazımdır.

# NƏTİCƏ

Beləliklə aparıdığımız tədqiqat aşağıdakı nəticələrə gəlməyə imkan verir:

-Apardığımız rəy soğuları göstərdi ki, üç amil: maddi çətinlik, daxili tələbat və valideynlərin gənc ailənin şəxsi münasibətlərinə qarşıması gənc ailələrdə sosial kofliktlərin ortaya çıxmasına və boşanma vəziyyətinə gətirib çıxarır.

- Faktlar göstərdi ki, gənc ailələr ailə həyatında özlərinin sərbəstliklərini də itirmək istəmirlər. Bununla yanaşı onların ailə haqqında təsəvvürləri ailə qurduqdan sonra formalaşan təsəvvürlərə uyğun gəlməlidir.

- Eksperiment göstərdi ki, bir sıra amillərin xüsusilə də zorakrılıq və valideynlərin ailə münasibətlərinə nüfuz etdiyi ailərdə konfliktlər daha çox çəkilməz və ya həll edilməz problemə çevrilir. Belə hallarda əziyyəti uşaqlar çəkir və onlar daha çox psixoloji travmalara məruz qalırlar. Belə konfliktli şəraitdə həyatın davam etməsi çox hallarda ailənin mövcudluğu yalınız kağız üzərində qalır, hər bir valideyn aryı-ayrılıqda öz həyatını yaşayır.

-Müəyyən edilmişdir ki, baş verən sosial konfliktlərin birinci mərhələsi ailənin 0-5-ci ilinə - gənc ailənin mövcudluğuna ilk dövrünə düşür ki, onun aradan qaldırılması üçün psixoproflaktik tədbirlər həyata keçirilməlidir:

-Aparılmış tədqiqatlar göstərir ki, gənc ailələrdə ailə konfliktləri yalnız şəxsiyyətlərarası münasibətlərin, onların bir-birini başa düşməməsi, xarakterin uyğun gəlməməsi və s.kimi münasibətlərin qeyri-adekvatlıqdan qaynaqlanmır. Burada şəxsiyyətdaxili konflikt və bu konfliktin ailə münasibətlərində transformasiya edilməsi bir sıra hallarda boşanmaya gətirib çıxarır.

-Gənc ailələrdə sosial konfliktlərinin və boşanmaların yaranmasında yalnız ailənin özü deyil, həm də valideynlərin gənc ailəni anlamaması, cütlüklərin hər birinin özünəməxsus dəyərlərə malik olması, maraqlarının uyğunsuzluğu, maddi çətinliklər, ümumi dünyagörüşün fərqliliyi, tələbatlarının iearxiyası və s. kimi məsələlər də dominatlıq təşkil edə bilər.

-Apardığımız eksperiment və buna müvafiq tədqiqat işləri göstərdi ki, gənc ailələrdə yaranan sosial və psixoloji konfliktlər əsasən aşağıdakı amillərlə

şərtlənmişdir: -ər-arvadın bir-birinə xəyanəti, psixoseksual uyğunsuzluğu; ailədə manafe uğurunda mübarizə , -öz «məni» sferasında tələbatlarının təmin olunmaması, tərəf müqabili tərəfindən ləyaqət hissinə hörmətsizlik; -qarşılıqlı anlaşmanın olmaması; -cütlüklərdən birinin– digərinə kompromisə getməməsi; -maddi çətinlik; ailənin məişət təlabatlarının təmin olunmaması; -ailədaxili münasibətlərdə ailənin digər üzvləri və münasibətlərin kəskinləşməsi və s.

Qeyd olunmalıdır ki, bütün bunlarla yanaşı gənc ailələrdə sosial konfliktlərin yaranması yalnız ailənin özündən yaranan problemlərlə məhdudlaşmır. Burada nigahaqədərki dövrün nəzərə alınması, gənclərin bir-birini daha yaxından tanıması üçün şərait olub-olmamasını da diqqət mərkəzinə gətirmək lazımdır.

Gənc ailələrdə bilavasitə sosial konfliktlərin təsiri ilə ortaya çıxan problemlərin aradan qaldırılması üçün, aildə mövcud olan maddi və sosial çətinliklərin aradan qaldırılması ilə bərabər, sağlam mənəvi-psixoloji iqlimin yaradılması, ailə üzvülərinin maarifləndirilməsi, yeri gəldikcə onlara müəyyən köməkliklərin göstərilməsi, eləcə də ailə psixoloqların yardımından istifadə edilməsi bu problemlərin qismən həllinə yardımçı ola bilər və boşanma halları da azalar.

Tədqiqat sübut edir ki, gənclər məhəbbət, nigah, ailə münasibətləri, uşaqların tərbiyə olunması, ailədə mənəvi və psixoloji iqlimin hökm sürməsi və s. bu kimi məsələlərlə yaxından maraqlanırlar. Onlar qarşılıqlı məhəbbət əsasında ailə qurmağa, uğurlu nigaha və xoşbəxt ailəyə üstünlük verirlər. Odur ki, həmin gənclər məhəbbətə, nigaha, ailəyə ciddi münasibət bəsləyirlər. Ailə -xoşbəxtliyin mənbəyidir. Gənclərin qənaətincə, təcrübəsizlik nəticəsində, insan bəzən sevgisində, daxil olduğu nigahda yanılır, ailə xəşbəxtliyinə çata bilmir.

Aparılmış müşahidə, sorğu və test zamanı aydınlaşdırdıq ki, valideynlər müasir oğlan və qızları psixoloji baxımdan lazımi səviyyədə səciyyələndirməkdə çətinlik çəkir, məhəbbətin psixoloji xarakteristikasını ər və arvad harmoniyasının əsası kimi nəzərdən keçirə bilmirlər, gələcək ailələlərdə konfliktli münasibətlərin meydana gəlməsinə səbəb olur.

Ailənin mahiyyətini, insanın, cəmiyyətin, doğulan körpələrin həyatında necə mühüm əhəmiyyət daşıdığını anlamaq ailənin dayaqlarını sarsıtmağa qoymur, ər -

arvad qarşılıqlı münasibətlərini, ailə daxilindəki ünsiyyət və rəftarını, davranışını düzgün qurur, yaranan ixtilaflar zamanı hissin hökmünə tabe olmağı deyil, ağlın hökmünü əsas tutur.

Nigahın mahiyyəti, nigah ittifaqına girməyin insanın üzərinə necə böyük məsuliyyət qoyduğunu anlamaq, nigahın bağlanması qaydalarına və şərtlərinə bələd olmaq, nigahı qoruyub saxlamağın təkcə bu ittifaqda olan tərəflər üçün deyil, bütün ailə üzvləri, uşaqlar üçün necə əhəmiyyət daşıdığını başa düşmək və buna görə məsuliyyət hiss etmək gənclərin ailə həyatına uğurla hazırlanmasını təmin edir.

Sevənlərin qarşılıqlı münasibətlərinin psixoloji və mənəvi əsaslarını, məhəbbət hissinin ülviliyini bilmək, öz hissini qorumağı bacarmaq, gələcək ər – arvadda məhəbbət hissinin olması, şərəf və ləyaqət hisslərinə malik olmaq, seçdiyi şəxsə hörmət və etibar uğurlu nigahın əsasıdır.

Tədqiqatdan aydın olur ki, müxtəlif ailə tiplərində özünü büruzə verən ailə konfliktlərinin təzahürləri və aradan qaldırılması sosial - psixoloji mexanizminə görə stereotipləşdirmə və identikləşdirmə üsulu ilə açılır. Konfliktlərin həllində sosial - sirayət, təqlid və s. kimi sosial - psixoloji üsullardan istifadə də çox faydalı olur.

Ailə konfliktlərinə, sosial - psixoloji amillərlə yanaşı maddi - iqtisadi vəziyyəti, ailə üzvlərinin maddi ehtiyaclarının ödənilməsi səviyyəsi və imkanları çox ciddi təsir göstərir.

Ailə konfliktlərinin hər saat ailənin dağılması, yəni boşanma ilə nəticələnməsinin səbəb və mexanizmləri barədə məlumatlardan, xüsusən də şəhərlərdə ailə məsləhətxanalarında istifadə edilməsi də çox faydalı olardı. Bu məsələdə ailəyə ailə psixologiyası problemləri ilə məşğul olan mütəxəssislərin yaxından köməyi çox əhəmiyyətli olardı.

Gənclərin ictimai - siyasi inkişafına valideynlər mühüm təsir göstərirlər. Uşağın gələcək kişi və qadın kimi formalaşmasının əsasları da ailədə qoyulur.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika; Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Renessans, 2000, 202 s.
2. Abbasov A.N. Məktəbliləri ailə həyatına hazırlamağın nəzəriyyəsi və təcrübəsi: Ped.elm.dok.… dis.Bakı, 1995, 309 s.
3. Axundov S.İ., Həsənov A.V. Ailədə uşaqların əxlaq tərbiyəsi. Bakı: Maarif, 1992, 194 s.
4. Aslanov E.M. El-oba oyunu. Xalq tamaşası. Bakı: Gənclik, 1950, 169 s.
5. Atalar sözü. Bakı: Yazıçı, 1985, 692 s.
6. Atalar sözü – ağlın gözü. Bakı: Azərnəşr, 1976, 206 s.
7. Atalar sözü. Bakı: Gənclik. 1981,360 s.
8. Azərbaycan ədəbiyyatı inciləri. Bakı: Yazıçı, 1987, 571 s.
9. Azərbaycan folklor antologiyası. Naxçıvan folkloru. Bakı: Sabah, 1994, 375 s.
10. Azərbaycan nağılları. Bakı: Azərnəşr, 1982, 360 s.
11. Azərbaycan aşıqları və el şairləri: 2 cilddə, I c., Bakı: Elm, 1983, 376 s.
12. Azərbaycan xalq dastanları. Bakı: Yazıçı, 1983, 251 s.
13. Babayev İ.A., Əfəndiyev P.Ş. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1970, 265 s.
14. Babayev N.H. Babam – nənəm, atam-anam və biz. Bakı: Azərnəşr, 1988, 283 s.
15. Bayramov Ə.S. Etnik psixologiya məsələləri. Bakı: Elm və həyat, 1996, 202 s.
16. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981, 190 s.
17. Bayramov Ə.S. «Kitabi-Dədə Qorqud» dastanlarında etnik-psixoloji xüsusiyyətlərin inikası. Bakı: Nurlan, 2000, 137 s.
18. Bayramov Ə.S. Psixoloji düşüncələr. Bakı: Elm və həyat, 1994, 192 s.
19. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1989, 540 s.
20. Bayramov İ.M. «Kitabi-Dədə Qorqud» dastanlarında Azərbaycan xalqının etnik

psixoloji xüsusiyyətlərinin inikası. Psixol. elm. nam. ...diss.avtoref. Bakı, 1995, 22 s.

21. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya: Dərslik. Bakı: Qappoliqraf, 2003, 356 s.
22. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Ümumi psixologiya. Bakı :Maarif, 1989, 540 s.
23. Bayramov Ə.S., Əlizadə Ə.Ə.,Seyidov İ.Ə. və b. Şəxsiyyətin inkişafının etnopsixoloji məsələləri. Bakı: ADU, 1985, 126 s.
24. Bayramov Ə.S. Etnik psixologiya. Bakı: Renessans, 2001, 304 s.
25. Bayramov Ə.S. Etnik psixologiya məsələləri.Bakı : Elm və həyat, 1996, 154 s.
26. Camallı K.H. Əvhədi yaradıjılığında valideyn-övlad münasibəti məsələləri // Pedaqoji Universitet Xəbərləri, 2004, № 2, s.150-157
27. Əhmədov Ə.K. Azərbaycanlıların ailəsi və ailə məişəti. Ped.elm.nam. … dis. avtoref. Bakı,1994, 22 s.
28. Əliyev H.Ə. Ailə və məktəb ənənələri sağlam nəsil tərbiyə edir. Bakı: Maarif, 1988, 88 s.
29. Əliyeva G.B. Yeniyetmələrin mənəvi tərbiyəsində cinsi xüsusiyyətlərin nəzərə alınmasının psixoloji əsasları: Psix.elm.nam…dis. avtoref. Bakı, 1996, 27 s.
30. Əlizadə Ə.Ə. Güzəran psixologiyası. Bakı: Ünsiyyət, 1995, 121 s.
31. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə. Bakı: Maarif, 1989, 256 s.
32. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif, 1986, 236 s.
33. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə həyatının etika və psixologiyası. Bakı: Maarif, 1998, 192 s.
34. Əlizadə Ə.Ə. Ailədə uşaqların cinsi tərbiyəsi. Bakı: Maarif, 1968, 87 s.
35. Əlizadə Ə.Ə. Məhəbbət aləmi. Bakı: «Azərbaycan Ensiklopediyası» Nəşriyyat Poliqrafiya birliyi, 1995, 263 s.
36. Quliyev H.A. Məişətimizdə adət və ənənələr. Bakı: Azərnəşr, 1976, 129 s.
37. Quliyev H.A. Azərbaycanda ailə məişətinin bəzi məsələləri. Keçmiş və müasir dövr. Bakı: Elm, 1986, 96 s.
38. Tağıyev A.N. «Kitabi-Dədə Qorqud»da ailə səadətinin şərtləri // Azərbaycan məktəbi curnalı, 1976, № 9, s.62-66

39. Азаров Ю.Р. Семейная педагогика. М.:Политиздат, 1982, 223 с.

40. Аллахвердиева И.Р. Социально-психологический анализ супружеского конфликта в азербайджанской семье. Автореф. дис...канд. псих. наук. Баку, 1994, 17 с.

41. Макаренко А.С.Избранные педагогические сочинения в двух томах. — М., Педагогика, 1977